# BAKI UNİVERSİTETİNİN
# XƏBƏRLƏRİ

# ВЕСТНИК
## БАКИНСКОГО УНИВЕРСИТЕТА

# NEWS
## OF BAKU UNIVERSITY

ISSN 1609-0586

**SOSİAL-SİYASİ**
*elmlər seriyası*
*серия*
**СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИХ НАУК**
*series of*
**SOCIAL-POLITICAL SCIENCES**

***№4.2018***

*Baş redaksiya heyəti:*

**Məhərrəmov A.M.** (baş redaktor), **Kazımzadə A.H.** (baş redaktorun müavini), **Əliyeva İ.N., Məmmədov Y.Ə., Əliyev İ.Ə., Əfəndiyev V.Ə., Xələfov A.A., Məmmədəliyev V.M., Paşayeva N.A., Quliyeva Ş.T.** (məsul katib).

*Seriyanın redaksiya heyəti:*

**Məlikova M.F.** (redaktor), **Vahidov F.Q.** (redaktorun müavini), **Hacıyev Z.C.** (məsul katib), **Abbasbəyli A.N., Əhmədov Ə.C., Əliyev B.H., Əlizadə H.Ə., İsmayılov R.R., Məhərrəmov A.M., Qasımov A.M., Məmmədov R.F., Rüstəmov İ.Ə., Səməndərov F.Y., Əliyev Ə.İ., Həsənalıyev Z.M., Əliyeva K.R.**

B.310.30.IV.1999

*© «Bakı Universiteti Nəşriyyatı», 2018*

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4* *Sosial-siyasi elmlər seriyası* *2018*

## HÜQUQ

UOT 341:347.78

# UNİVERSİTETLƏRDƏ ƏQLİ MÜLKİYYƏT SİYASƏTİ VƏ ELMİ-TƏDQİQAT FƏALİYYƏTİ: SİLİKON VADİSİNİ NECƏ KEÇMƏK OLAR?

**A.T.SƏFƏROV**
***Bakı Dövlət Universiteti***
***azersafarov@bk.ru***

*Artıq müasir dünya iqtisadiyyatının əqli mülkiyətə əsaslandığı danılmazdır və əqli mülkiyyət iqtisadiyyatın əsas lokomotividir. Hər bir dövlətin, millətin gücünün onun elminin, Universitetlərinin gücü ilə bağlı olduğunu nəzərə alsaq Universitetlərdə düzgün seçilmiş əqli mülkiyyət siyasəti ölkənin inkişafını şərtləndirir. Bilik üçbucağını formalaşdıraraq elmi-tədqiqat nəticələrinin kommersiyalaşmasına yönələn kampaniyaların yaradılması, innovasiyaların kommersiyalaşmasını inkişaf etdirən stimulların yaradılması dövrün tələbidir. Hər bir Universitet müəllim və tələbələrə sahibkarlarla işləmək imkanı verən texnologiya ilə əlaqəli olan ölkənin iqtisadiyyatına kömək edən mərkəzlərə çevrilməlidir. "Silikon Vadisi" təcrübəsində qeyd etmək olar ki, burada elektron ticarət sahəsində dövriyyə ildə 1 trilyon ABŞ dollarından artıqdır və işçilərin illik gəlirləri təxminən 80,000 $ civarındadır.*

**Açar sözlər:** əqli mülkiyyət, əqli mülkiyyət hüquqları, əqli mülkiyyət siyasəti, bilik iqtisadiyyatı, Silikon Vadisi, mədəni hüquqlar, internet, insan hüquqları, kommersiyalaşma, innovasiya, rəqəmsal müəlliflik hüququ, patent, müəlliflik hüququ, hüquq norması, start-ap kompaniyalar

Əqli mülkiyyət hüquqları müəlliflik hüququnun obyekti olan əsərlərə, ifalara, fonoqramlara, yayım təşkilatlarının verilişlərinə, inteqral sxem topologiyalarına, məlumat toplularına, folklor nümunələrinə, ixtiralara, faydalı modellərə, sənaye nümunələrinə, əmtəə nişanlarına, coğrafi göstəricilərə hüquqlardır [2, 23]. Əqli mülkiyyət hüquqları əqli fəaliyyət nəticələrinin qorunması məqsədilə onların müəlliflərinə və hüquq sahiblərinə verilən müstəsna hüquqlardır. Əqli mülkiyyət hüquqları digər şəxslərə əqli mülkiyyət sahibinin icazəsi olmadan onun yaradıcı fəaliyyətin məhsulunu istifadə etməyə imkan vermir [12, 317]. Müasir dünyada əqli mülkiyyətin inkişafını şərtləndirən bilik və bacarıqlardır, insan kapitalının, intellektin səviyyəsidir. Bu onunla izah olunur ki, əqli mülkiyyət mövcud bilikdən yaranan və yeni biliklərlə nəticələnən fenomendir. İnsan hüquqları haqqında Ümumi Bəyannamə,1966-cı il tarixli

İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktda əqli mülkiyyət hüququ təsbit olunmuş və İnsan hüquqları haqqında Ümumi Bəyannamənin 27-ci maddəsinə görə hər bir insan, cəmiyyətin mədəni həyatında iştirak etmək, incəsənətdən həzz almaq, elmi tərəqqidə iştirak etmək və onun nemətlərindən istifadə etmək hüququna və həmçinin müəllifi olduğu elmi, ədəbi və bədii əsərlərin nəticəsi olan mənəvi və maddi mənafelərinin müdafiə olunması hüququna malikdir [17; 20].

Əqli mülkiyyətin müasir fəaliyyət konteksti, onun iqtisadiyyatda və cəmiyyətdə yeri, əqli mülkiyətin rolu və yeri haqqında düşüncə tərzimizin, təfəkkürümüzün dəyişdirilməsi zərurətini yaradır. Digər tərəfdən müasir qloballaşan mühitdə cəmiyyətin inkişafı, mövcud ictimai münasibətlərin tənzimlənməsi sahəsində tətbiq edilən normaların təkmilləşdirilməsi zərurəti meydana çıxır ki, bu da əqli mülkiyyət hüquqlarına yeni yanaşmanı tələb edir. Müasir dövrdə əqli mülkiyyət institutunun əsas vəzifəsi milli iqtisadiyyatın inkişafını stimullaşdırmaqdır [9, 4]. Qloballaşmanın səciyyəvi xüsusiyyətlərindən biri də yeni texnologiyaların, innovasiyaların yayılması kimi müsbət təsirlə bağlıdır. ÜƏMT-in Baş direktoru F.Qarri qeyd etdiyi kimi gələcəkdə əqli mülkiyyətin beynəlxalq arxitekturası və forması texnologiyalar tərəfindən getdikcə daha çox diqtə ediləcək və onu idarə etməsi qaçılmaz olacaqdır [14].

Artıq müasir dünya iqtisadiyyatının əqli mülkiyyətə əsaslandığı danılmazdır və əqli mülkiyyət iqtisadiyyatın əsas lokomotividir. Elmin inkişafı, əqli mülkiyyət hüquqlarının qorunması, əqli mülkiyyət siyasətinin və bilik iqtisadiyyatının formalaşdırılması Azərbaycan Respublikasında dövlət siyasətinin mühüm prioritetlərindən biridir. Bu baxımdan təhsil, elm və innovasiyalar arasında qarşılıqlı əlaqənin qurulması, bilik üçbucağınının formalaşdırılması mühüm əhəmiyyət daşıyır. Son illərdə elm və təhsil sahəsində nailiyyətlərin əldə olunması da bilavasitə ölkənin modernləşdirilməsinə istiqamətlənmiş sosial-iqtisadi siyasətlə bağlıdır. Azərbaycan Respublikası Prezidentinin sözləri ilə desək biliklərə əsaslanan cəmiyyətin formalaşdırılması və neft kapitalını insan kapitalına çevirmək əsas prioritet istiqamətdir [1]. Digər tərəfdən xarici investisiyaların cəlb olunmasında da əqli mülkiyyətin rolu danılmazdır. Azərbaycan yeni iqtisadi siyasətinin mühüm qolu – innovativ inkişafa qədəm qoyur. Bu səbəbdən son dövrlərdə Azərbaycan iqtisadiyyatının inkişafında əqli mülkiyyətin rolu əhəmiyyətli dərəcədə artmış, əqli mülkiyyət hüquqlarının realizə olunmasının təminatına xüsusi diqqət yetirilir və son dövrlərdə əldə olunmuş iqtisadi nailiyyətlərin, o cümlədən əqli mülkiyyət sahəsindəki nailiyyətlərin əsasında müasir çağırışlara cavab verməklə həyata keçirilən islahatlar və gələcəyə yönəlmiş "Azərbaycan modeli" siyasəti durur [5, 5]. "Azərbaycan modeli"-biznes mühitinin inkişafını, sərmayə qoyuluşunu stimullaşdıran innovasiyalı inkişaf modelidir və heç də təsadüfi deyil ki, Dünya Bankı "Bizneslə məşgulluq" 2018 ("Doing business" 2018) hesabatında Azərbaycanın indeksi 32 pillə yüksəlib, ölkəmiz dünyanın 190 ölkəsi arasında 25-ci yerdə qərarlaşıb. Eyni zamanda elan edib ki, Azərbaycan 10 islahatçı dövlətin birincisidir və dünyada 3-

cü və daha çox islahatlar aparan ölkədir [13]. Həmçinin Dünya İqtisadi Forumunun (Davos) 2017-2018-ci illər üçün "Qlobal Rəqabətlilik Hesabatı" indeksinə görə Azərbaycanın reytinqi 2 pillə yüksələrək 140 ölkə sırasında 35-ci yerdə qərarlaşmışdır [15].

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında "bilik iqtisadiyyatı"nı formalaşdırmaq, elmi potensialın və innovasiya fəaliyyətinin dəstəklənməsi, uzunmüddətli davamlı iqtisadi inkişafı təmin etmək, əqli mülkiyyətə əsaslanan kreativ iqtisadiyyatın davamlı inkişafı, ölkənin ümum daxili məhsulunda onun payının artırılması üçün tədbirlərin həyata keçirilməsi, informasia-kommunikasiya texnologiyalarının inkişafı və informasya cəmiyyətinə keçidin təmin edilməsi, qanunvericiliyin təkmilləşdirilməsi prioritet istiqamətlər kimi nəzərdə tutulmuşdur [1]. Davos İqtisadi Forumunun "İnklüziv inkişaf indeksi–2018"-ə əsasən, ölkəmiz inkişaf edən ölkələr arasında 3-cü yerdə qərarlaşmış, "Əqli Mülkiyyət institutları" altindeksinə görə Cənubi Qafqazda 1-ci yerdə, MDB məkanında qabaqcıl üçlüyə daxildir [15]. Azərbaycan "Əqli mülkiyyətin qorunması" altgöstəricisi üzrə 2016-2017-ci illərdə 71-ci yerdə qərarlaşdığı halda 2018-ci ildə mövqelərini möhkəmlədərək 37-ci yeri tutmuş, bilik iqtisadiyyatına görə 146 ölkə arasında 79-cu yerdə, 2017-ci ildə qlobal innovasiyalar üzrə 86-cı, innovativ inkişaf üzrə isə 42-ci yerdə qərarlaşmışdır [7]. 1995-ci ildə ÜƏMT-ə üzv olmuş Azərbaycan Respublikasında əqli mülkiyyətin qorunması ilə bağlı qanunvericilik sistemi təkmilləşdirilmiş, normativ-hüquqi baza yaradılmış, əqli mülkiyyətin qorunması və qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində, demək olar ki, bütün beynəlxalq konvensiya və sazişlərə qoşulmuş, həmçinin region dövlətləri ilə ikitərəfli müqavilələr bağlanmış, əqli mülkiyyət hüquqlarının qorunması sahəsində institusional nəzarət mexanizmləri formalaşdırılmışdır [4, 172]. Belə ki, Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi əqli mülkiyyət hüquqları sahəsində mərkəzi icra hakimiyyəti orqanı kimi bu istiqamətdə dövlət siyasətini və idarəçiliyini həyata keçirir və ÜƏMT ilə sıx əməkdaşlıq əlaqələri formalaşdırılmışdır. Əqli Mülkiyyət Agentliyinin nəzdindəki Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzində Əqli Mülkiyyət üzrə biliklərin təkmilləşdirilməsi və sertifikatlaşdırılması istiqamətində, daxili indeksin yaradılması, İKT və əqli mülkiyyətin qarşılıqlı təsiri və əqli mülkiyyət hüquqları ilə qorunan bir çox obyektlərin qlobal rəqəmsal şəbəkəyə çıxışı nəzərə alınaraq, mərkəzdə rə-qəmli hüquqların on-line monotorinqi və lisenziyalaşdırma xidmətinin, rəqəmsal hüquqları idarəetmə sisteminin yaradılması istiqamətində bir çox işlər görülmüşdür. Bütün bunlar onu göstərir ki, Azərbaycan yeni iqtisadi siyasətinin mühüm qolu olan innovativ inkişafa qədəm qoymuş, bu isə yerli və dünya bazarında rəqabətliliyin, istehsalın səmərəliyinin artırılması üçün yeni texnologiyaların yaradılması və qabaqcıl texnologiyaların cəlb edilməsi, elm tutumlu sahələrin genişlənməsi deməkdir. Professor K.İmanovun sözləri ilə desək yaşadığımız "biliklər cəmiyyətində", texnologiyaların sıçrayışı dövründə və rəqəmsal innovasiyaların "rə-

qəmsal imperativ" zamanında "innovativ inkişaf tədqiqatların nəticəsində əldə edilən biliklərin və texnologiyaların, investisiyaların və əqli mülkiyyətin yaratdığı insan kapitalının ekosistemidir" [7]. Təbii ki, bu tədbirlərin həyata keçirilməsində Universitetlərin və elmi-tədqiqat müəssisələrinin rolu danılmazdır. Hər bir dövlətin, millətin gücü onun elminin, Universitetlərinin gücü ilə bağlıdır. Universitetlərdə düzgün seçilmiş əqli mülkiyyət siyasəti ölkənin inkişafını şərtləndirir. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin ali təhsil və elm sistemində radikal transformasiyalar mühüm yer tutur. Bunun mahiyyəti universitetlərin innovasiyalı inkişafda və iqtisadi artımda həlledici rolundan ibarətdir. Bu isə universitetlərin sosial-iqtisadi funksiyalarının dəyişməsi deməkdir. Bu fəaliyyətə texnologiyaların işlənməsi və transferi, əqli mülkiyyət məhsullarının kommersiyalaşması və bazara çıxarılması, yeni biznes sahələrinin formalaşdırılması və gəlir əldə etmək məqsədilə əqli mülkiyyətin idarə olunması daxildir. Universitet və elmi-tədqiqat müəssisələrində özünəməxsus əqli mülkiyyət siyasəti və texnologiyaların kommersiyalaşması və transferinin ön plana çıxarılması Azərbaycan Respublikasında dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. İnstitusional əqli mülkiyyət siyasəti, biznes və ali təhsil müəssisələri arasında səmərəli əməkdaşlığın qurulması üçün əsas blokdur, həmçinin uğurlu kommersiyalaşdırma və lisenziya işi üçün əsas mərhələdir. Universitetlər və elmi-tədqiqat institutları elm və texnologiyaların inkişafında mühüm rol oynayır və milyonların həyatını inkişaf etdirən qabaqcıl kəşflər və ixtiraların yarandığı yerlərdir. ÜƏMT-nin Baş katibi F. Qarrinin qeyd etdiyi kimi "Universitetlər bilik iqtisadiyyatının zavodlarıdır. Əqli mülkiyyət onların istehsal etdiyi biliklərin yayılması və iqtisadi sahədə istifadə edilən biliklərin əldə edilməsi üçün universitetlərə başqa mexanizm əlavə edir" [14]. Bir sözlə, universitetlər yalnız bilik yaradıcıları, cəmiyyətə təhsilli tələbə və mütəxəssislər və elmi əsərlərdə və konfrans-diskusiyalarda bilikləri cəmiyyətə transfer edən mərkəzlər deyil, həmçinin kommersiyalaşmış texnologiyaları transfer edən mərkəzlərdir. Bu səbəbdən universitetlərin və elmi-tədqiqat institutlarının rəsmi hüquqi mövqeyi olmalı, əqli mülkiyyət siyasəti formalaşdırılmalı və bununla əqli mülkiyyət universitetin strateji resursuna çevrilməlidir [6]. Bu baxımdan "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya"nın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı", 2013-cü il tarixli "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" elm sahəsində həyata keçiriləcək islahatların konseptual əsaslarını özündə əks etdirməklə burada nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi nəticəsində son illər universitetlərdə yeni idarəetmə modelinin yaradılması istiqamətində də bir sıra islahatlar aparılmışdır. Burada məqsəd bilik üçbucağını ("Biliklər+texnologiyalar+investisiyalar və əqli mülkiyət= universitetlərin və sənayenin insan kapitalının ekosistemınə) [6], formalaşdıraraq innovasiyalı inkişafın, kommersiyalaşmanın fəal faktorların birinə çevirilməsi, elmi-tədqiqat nəticələrinin kommersiyalaşmasına yönələn start-ap kampaniyaların və innovasiyaların kommersiyalaşmasını inkişaf etdirən stimulların yaradılmasıdır [5,

15]. Azərbaycan Milli Elmlər Akademiyasında Texnoparkın yaradılması, "Universitetlərdə və elmi-tədqiqat institutlarında əqli mülkiyyət siyasəti üzrə Milli Layihə"nin həyata keçirilməsi bu istiqamətdə atılan mühüm addımlardandır. Ölkənin hər bir universiteti müəllim və tələbələrə sahibkarlarla işləmək imkanı verən texnologiya ilə əlaqəli olan, ölkə iqtisadiyyatına kömək edən mərkəzlərdir. Texnologiya parklarının inkişafı, universitet ilə araşdırma və inkişaf mərkəzlərinin (Ar-Ge) daha sıx fəaliyyətini təmin edəcək və texnologiya və idarəetmə ilə bağlı bacarıqların paylaşılmasını təmin edən şirkətləri bir araya gətirmək mümkün olacaqdır. Texnoparklar innovasiya mədəniyyətini stimullaşdırma və innovasiya biznesinin və elmi təşkilatların rəqabət qabiliyyətinin artırılmasına istiqamətlənən, mütəxəssislər tərəfindən idarə olunan təşkilatdır. Texnoparklar 2-dən 20-yə qədər təsisçiyə malik ola bilər. Bu idarəetmə mexanizmi vahid təsisçi olan mexanizmdən mürəkkəb olmasına baxmayaraq daha effektlidir. Bu baxımdan Universitet və elmi-tədqiqat institutlarında yaradılan bilik və texnologiya böyük iqtisadi və sosial fayda verə bilər. Kəşflərin laboratoriyadan bazara çıxarılması universitetlər və elmi-tədqiqat institutları üçün əqli mülkiyyət siyasətinin inkişaf etdirilməsi başlıca səbəbdir [4]. Bu siyasətin inkişaf etdirilməsi isə bir çox amillərdən, prosseslərə dəstək verən mühitin olmasından, maliyyə dəstəyindən, universitetlərin muxtariyyətindən, keyfiyyətli fəaliyyət göstərən Texnologiya İdarəetmə İdarələrinin və ya informasiya mərkəzlərinin olmasından, biznes sektorunun universitetlər ilə birlikdə işləmək üçün maraqlı və hazır olmasından, kommersiyalaşdırılma prosesinə cəlb olunmuş mütəxəssislərin ehtiyac və gözləntilərinin təmin olmasından asılıdır [18]. Həmçinin mühüm məqamlardan biri də Universitetlər və elmi-tədqiqat institutlarında əqli mülkiyyət siyasətinin inkişaf etdirilməsinə diqqətin cəlb edilməsidir ki, burada əsas istiqamət milli iqtisadi və sosial inkişafı dəstəkləmək üçün universitetlərdə və elmi-tədqiqat institutlarında institusional əqli mülkiyyət siyasətinin işlənib hazırlanlması və həyata keçirilməsinin səviyyəsini yüksəltmək, həmçinin elm və sənaye (sahibkarlar) arasındakı əməkdaşlığın genişləndirilməsi və əqli mülkiyyətin istifadəsinin və kommersiyalaşdırılmasının sürətləndirilməsidir. Bu məqsədə nail olmaq üçün konkret olaraq nə etmək lazımdır? Fikrimizcə bunun üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:

Tədqiqatçılara və tələbələrə, sahibkarlara əqli mülkiyyət haqqında maarifləndirmə işinin aparılması və innovasiya və yaradıcılığın təşviq edilməsi;

İnkişaf etmiş əqli mülkiyyət siyasətinin qüvvədə olan müvafiq milli qanunlarla uyğunlaşdırılmasının təmin olunmasına, həmçinin Universitetlər və elmi-tədqiqat müəssisələrini əqli mülkiyyət siyasətinin qəbul edilməsinin əlavə dəyərinə inandırmaq, universitetlərdə əqli mülkiyyət və texnologiyaların ötürülməsi sahəsində mütəxəssislərin artırılması sahəsində fəaliyyətin genişləndirilməsinə nail olmaq [18];

Bu sahəyə sahibkarların cəlb edilməsi üçün əqli mülkiyyətin maliyyələşdirilməsi, qiymətləndirilməsi, qorunması və idarə edilməsi üçün prosedurların

müəyyən edilməsi, həmçinin üçüncü tərəflərin əqli mülkiyyət hüquqlarına əlaqəsinin təmin edilməsi mexanizmlərini formalaşdırmaq [16];

Texnologiya transferi prosedurları üçün hüquqi prosedurların müəyyən edilməsi;

Əldə olunan gəlirlərin ədalətli bölüşdürülməsini təmin edən qaydaların müəyyən edilməsi.

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsinə nəzər yetirdikdə Yaponiya, Cənubi Koreya, Malayziya, ABŞ və Böyük Britaniyanın texnoparklarının əhəmiyyətli nəticələr əldə etdiyini görmək olur. Məsələn, ABŞ-da hələ 1980-ci ildə "Texnoloji innovasiyalar haqqında" Qanun qəbul edilmişdir. Bu Qanun hər bir federal laboratoriya qarşısına "kommersiya dəyərli texnologiyaların müəyyən edilməsi və onların kommersiyalaşması tələbini irəli sürürdü [3; 9, 14]. Hazırda dünyada təxminən 700-dən artıq texnopark mövcuddur ki, onlardan 42%-i AB[a]-da, 34%-i Avropa Birliyi ölkələrində, 11%-i Çində, 13%-i isə digər ölkələrdə fəaliyyət göstətərir. Burada əsas məqsəd şirkətlər və tədqiqat mərkəzlərində nəzəri bilik və yeni məhsullar əldə etmək texnologiyasını birləşdirmək və şirkətləri və təşkilatlarını texnologiya mərkəzli olmağa təşviq etməkdir. Bunun da nəticəsində özəl sektorla, firmalarla dövlət və digər təşkilatlar arasındakı əməkdaşlıq artır və xarici asılılığın qarşısı alınır. Həmçinin şəxslərə biznes və sahibkarlıq imkanları verilir. Bu eyni zamanda xarici asılılığı azaltmaqla, regionlarda iqtisadiyyatın inkişafına təkan vermiş olur. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, texnoparklar innovasiyaya, sahibkarlara və biliklərə əsaslanan şirkətlərə dəstək verməklə ümumilikdə ölkə iqtisadiyyatının inkişafına səbəb olur. Son illər informasiya inqilabı (High Tech Revolution) təkcə ABŞ və Avropanın deyil, dünya iqtisadiyyatının hərəkətverici gücünə çevrilib. Bəşəriyyətin bu günü və gələcəyini müəyyənləşdirən texnologiyaların bu mərkəzlərdə hazırlandığını nəzərə alsaq Silikon vadisi təcrübəsi nümunəsini nəzərdən keçirmək daha çox maraq doğurur. "Silikon Vadisi" bütün dünyada yüksək texnologiyaların inkişafına böyük təsir göstərmiş və göstərməkdə davam edir. Qeyd edilən "Silikon Vadisi" Cənubi Kaliforniyadakı San-Fransisko ilə San Xose arasındakı Vadiyə verilən addır. Bu ərazidə 1891-ci ildə Stanford Universitetinin əsası qoyulmuş və XX əsrin 50-ci illərində burada Universitetin təşəbbüsü ilə texnoparklar yaradılmışdır. Daha sonra isə Stenford Universitetinin rəhbərliyi şirkətlərə Universitetin boş qalmış ərazisində icarəyə yer vermək qərarına gəlmişdir. Vadinin adı bölgədə silikon çipslərinin istehsalı ilə bağlıdır. Belə ki, Kaliforniya ştatının Palo-Alto şəhəri rayonunda yarımkeçiricilərin istehsalının sürətlə inkişafını göstərmək üçün 11 yanvar 1971-ci ildə "Electronic News" jurnalının müxbiri Don Höfler "ABŞ-ın Silikon Vadisi" adlı məqalələr seriyasını dərc edərək bu rayonu "Silikon Vadisi" adlandırmışdır [3]. Çünki Vadidə yarımkeçirici sənaye müəssisələri yerləşirdi və inteqral mikrosxemlər üçün yarımkeçirici elementlərin istehsalında istifadə olunan əsas material silikon idi. Silikon Vadisinin texnoloji mərkəz kimi tarixi məhz bu sənaye sahəsindən başlamışdır. 90-cı illərin əvvəlində

"Silikon Vadisi" korporasiyalarının fəaliyyətinin prioriteti ən yeni kompüter texnologiyalarının tədqiqatı və işlənməsi, rəqəmli texnika və proqram təminatının marketinqi olmuşdur. Belə ki, hesablama texnikasının inkişafına önəmli təsir etmiş bir çox kompüter firmaları burada yerləşir. Buna görə də Vadi, həmçinin "dizayn və mühəndislik vadisi" kimi də adlandırılır. "Silikon Vadisi"nin tərkibinə 7 minə yaxın şirkət daxildir ki, onların arasında dünya şöhrətli "Adobe Systems", "Advanced Micro Devices" (AMD), "Apple Inc.", "Cisco Systems", "Dolby Laboratories Inc.", "eBay", "Googl-u göstərmək olar [19]. Burada ABŞ-ın çoxlu milyonçularının da yaşadığından, buranı bəzən "Milyonçular vadisi" də adlandırırlar. Vadidə ilk mikroprosessor, ilk kompüter, axtarış motorları olan Yahoo, Google və Facebook sosial şəbəkə saytı ortaya çıxmışdır. Kompüterlər üçün proqram təminatı buraxan, İnternet vasitəsilə mal və xidmətlər satan çoxlu müəssisələrin burada cəmləşməsi səbəbindən bu ərazini həm də "İnternet Vadisi" də adlandırırlar. Maraq doğuran məqam ondan ibarətdir ki, iqtisadi rəqabət şəraitində bu Vadidə olan məşhur markalar, binalar və s. kopyalanmağa cəhd göstərilsə də bu mümkün olmamışdır. Qarşıya belə bir sual çıxır ki, Vadidə fəaliyyət göstərən mərkəzlərin fəaliyyət xüsusiyyəti nədən ibarətdir və belə bir nailiyyətlərin əsasında nə durur?

Vadidə fəaliyyət göstərən şirkətlərin əsas ortaq özəlliyi ondan ibarətdir ki, burada əsasən eyni üniversitetləri bitirən təsisçilər fəaliyyət göstərir. Digər bir xüsusiyyət isə ondan ibarətdir ki, bu məşhur markaların qurucularının çox hissəsi Stanford Universitetinin məzunlarıdır. "Silikon Vadisi"nin uğurlarının əsasında duran digər bir özəl xüsusiyyəti ondan ibarətdir ki, burada fəaliyyət göstərən şirkətlər dünyada ən yaxşı məhsul istehsal etmək və ilk istehsal etmək uğrunda rəqabət aparırlar. Nəticədə şirkətlər dünyada tanınır və bu da buraya "beyin axını"na səbəb olur. Maliyyə aspektləri baxımından, Vadidə investisiyalar milyonlarla dollarlardan (təxminən 9-10 milyon) başlayır və elektron ticarət sahəsində bazar payı 1 trilyondan artıqdır. Kompüterlərin və digər proqram məhsullarının dünya ixracının 20%-i Silikon Vadisinın payına düşür. Burada fəaliyyət göstərən işçilərin sayı təxminən 250,000 nəfərdir və illik gəlirləri təxminən $ 80,000 civarındadır [3]. Vadidə iş prossesinin digər mühüm xüsusiyyət ondan ibarətdir ki, çalışanlar müqavilə ilə işləməyi çox da seçmirlər və istədikləri firmaya keçə bilərlər. Məsələn; Google-dan ayrılan biri Yahoo-da işləyə bilər.

Mütəxəssislər Silikon Vadisinın formalaşmasına həlledici təsir edən üç əsas faktor müəyyənləşdirmişlər:

1) ixtisaslı mütəxəssislərin hazırlanmasında dövlət siyasəti;

2) mikroelektronika məhsulunun çoxlu satış bazarının olması;

3) yeni elm tutumlu şirkətlərin yaranması vaxtı innovasiya prosesinin ilk mərhələlərində əsas rol oynayan riskli kapital bazarının olması **[8].**

Texnologiya inkişaf edir və ən bacarıqlı sahibkarlar qısa müddətdə böyük bir sərvətə sahib olmaq imkanları əldə edirlər ki, bu da iqtişadi inkişafı şərtləndirir. Həmçinin göründüyü kimi bilik üçbucağının (təhsil, elm və innovasiya

arasında effektiv qarşılıqlı əlaqənin qurulması) formalaşdırılması ilə bağlı zəngin dünya təcrübəsi mövcuddur. Nəticədə Universitetlərdə effektiv əqli mülkiyyət siyasəti tədqiqatçılar tərəfindən yaradılan yeni biliklərin yayılması və təşviqi üçün əlverişli mühit yaradır, elmi əsərlərin qorunmasında tətbiq edilən metodların müəyyənləşdirilməsinə, kommersiya nəticələrinin, maliyyə və ya digər gəlirlərin ədalətli və bərabər şəkildə bölüşdürülməsinə, şəffaflığın və stimullaşdırmanın təmin edilməsinə şərait yaradır və nəticədə bütövlükdə ölkə iqtisadiyyatı inkişaf edir. Digər tərəfdən innovasiya və yaradıcılığın təşviq edilməsi, həm də məşğulluğun inkişaf etdirilməsinə [12, 310], ümumilikdə beyin axınının qarşısının alınmasına səbəb olmaqla, investisiya üçün əlverişli bir mühitin yaranması və qorunması baxımından mühüm əhəmiyyət kəsb edir. Yuxarıda qeyd edilənlərə əsasən deyə bilərik ki, Azərbaycanda biliklər cəmiyyətinin inkişaf etdirilməsi və yüksək texnologiyalar ölkəsi kimi tanınmaq üçün kifayət qədər zəmin var. Ölkəmiz üçün universitetlərin təkamülü ciddi sosial və iqtisadi hadisədir. Belə ki, bu qəbildən olan universitetlər cəmiyyətin modernləşdirilməsində və bilik iqtisadiyyatına transformasiyasında aparıcı rol oynamaqla, iqtisadi islahatların fəal aktorlarına çevrilirlər. Nəticədə biz texnologiyaların əlverişli kommersiyalaşdırılmasına və transferinin asanlaşdırılmasına, universitetlər, elmi-tədqiqat müəssisələri və biznes-sənaye arasında əməkdaşlığın daha da genişlənməsinə nail ola biləcəyik. Həmçinin bu bizə innovativ iqtisadiyyatın yaradılması məqsədilə elm və istehsal arasındakı əlaqələrin gücləndirilməsinə, tətbiqi elmi araşdırmaların bazarın tələbatına müvafiq aparılması üçün zəruri mexanizmlərin yaradılmasına imkan verəcəkdir. Bütün bunların həyata keçməsi üçün nə etmək lazımdır? Hesab edirik ki, Azərbaycanda innovasiyaları inkişaf etdirmək və milli innovasiya sistemini yaratmaq üçün ilk növbədə aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:

a) intellektual mülkiyyət sahəsində dövlət siyasətinin həyata keçirilməsi [10].
b) kommersiyalaşma prossesinin iştirakçılarına dəstək verən proqram və layihələrinn hazırlanması üçün normativ hüquqi bazanın yaradılması;
c) kommersiyalaşmanın infrastukturunun formalaşdırılması [9, 96];
d) biznesə aid inzibati prosedurların sadələşdirilməsi;
e) vergi və kömrük qanunvericiliyində bununla bağlı stimulların yaradılması;
f) bu sahədə investisiya layihələrinin güzəştli şərtlərlə kreditləşməsi.

Universitetlərdə aparılan islahatların əsas istiqamətləri bilik iqtisadiyyatının formalaşdırmasına, elm tutumlu texnologiyaların yaradılmasına, innovasiya fəaliyyətinin genişləndirilməsinə yönəlməli, bu istiqamətdə beynəlxalq təcrübə daha dərindən öyrənilməli və tətbiq olunmalıdır. Belə bir fikir mövcuddur ki, əgər siz indi nə edə biləcəyinizi söyləsəniz, demək hara gedəcəyinizi bilirsiniz.

## ƏDƏBİYYAT


1.“Azərbaycan 2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyası. https://president.az/files/future_az.pdf

2. Allahverdiyev S.S. Əqli mülkiyyət hüququ : dərs vəsaiti; Odlar Yurdu Universiteti. Bakı: Digesta, 2006, 584 s.

3. Dünya bu vadidən idarə olunur. https://sputnik.az/tech/20160211/403715412.html).

4. Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Bakı: Hüquq ədəbiyyatı, 2013, 506 s.

4. Ekspertlər Azərbaycanda əqli mülkiyyət siyasəti üçün Milli Layihənin inkişaf aspektlərini araşdırıblar. https://azertag.az/xeber

5. İmanov K. Azərbaycan Respublikasının universitetlərində əqli mülkiyyətin və elmi-tədqiqat fəaliyyətinin dəstəklənməsində Müəllif Hüquqları Agentliyinin rolu (İnnovasiyalı inkişaf və universitetlərdə (elmi müəssisələrdə) texnologiyaların kommersiyalaşması yolları). Bakı. Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi, 2017, 64 s.

6. İmanov K. “Biliklər+ texnologiyalar +investisiyalar və əqli mülkiyət = universitetlərin və sənayenin insan kapitalının ekosisteminə DƏMT-in universitet və elmi-tədqiqat institutları üçün əqli mülkiyyət siyasəti modelinin uyğunlaşdırılma təcrübəsindən” mövzusunda məruzə. http://www.copag.gov.az/copag/az/content/news/730

7. İmanov K. ÜƏMT-nin Baş direktorunun Azərbaycana səfəri əhəmiyyətli hadisədir. http://www.copag.gov.az/copag/az/content/news/1049

8. Silikon Vadisi. https://kayzen.az/blog/informatika/8323/silikon-vadisi.html

9. Карповой. Н.Н. Экономические Аспекты Интеллектуальной Собственности для стран с переходной экономикой. http://www.wipo.int/edocs/pubdocs/ru/wipo_pub_transition_8.pdf

10. Политика университетов в сфере интеллектуальной собственности http://inter-legal.ru/politika-universitetov-v-sfere-intellektualnoj-sobstvennosti

11.Bently L., Sherman B., Intellectual Property Law. Oxford University Press. 2018. 1520 pp. ISBN: 9780198769958

12.Catherine Seville. EU Intellectual Property Law and Policy. Published by Edward Elgar Publishing Limited The Lypiatts. UK.2009. 482 p.

13. Doing Business in Azerbaijan - World Bank Group. http://www.doingbusiness.org/data/exploreeconomies/azerbaijan.

14.Francis Gurry - Media Articles and Interviews. http://www.wipo.int/about- wipo/en/dgo/interviews/.

15. Global Competitiveness Report 2017-2018 - Reports-World Economic Forum. http://reports.weforum.org/global-competitiveness-report-2017-2018/

16. Intellectual Property Policy | William & Mary https://www.wm.edu/.../policies/intellectual_property/index.p.

17. International Covenant on Economic, Social and Cultural Rights. 16 December 1966. https://www.ohchr.org/en/professionalinterest/pages/cescr.aspx

18. Model Intellectual Property Policy for Universities and Research Institutions. Version 1. Prepared by the Division for Certain Countries in Europe and Asia. WIPO.

19. Silicon Valley Immersion Tours | Top Silicon Valley Companies https://svichub.com/?gclid. http://www.teknolojitransferi.gov.tr/TeknolojiTransferPlatformu/resources/temp

20. Universal Declaration of Human Rights. 10 December 1948. http://www.un.org/en/universal-declaration-human-rights/

## ПОЛИТИКА ИНТЕЛЛЕКТУАЛЬНОЙ СОБСТВЕННОСТИ И НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКАЯ ДЕЯТЕЛЬНОСТЬ УНИВЕРСИТЕТОВ: КАК МОЖНО ОБОГНАТЬ СИЛИКОНОВУЮ ДОЛИНУ?

**А.Т.САФАРОВ**

**РЕЗЮМЕ**

Уже невозможно отрицать, что современная мировая экономика основывается на интеллектуальную собственность, и она является основным локомотивом экономики. Учитывая то, что сила и мощь каждого государства связана с мощью их науки и университетов, правильно избранная политика интеллектуальной собственности в ВУЗах обуславливает развитие страны. Создание компаний, направленных на коммерциализацию научно-исследовательских результатов с формированием треугольника знаний, создание стимулов, развивающих коммерциализацию инноваций, являются веянием времени. Университеты должны превратиться в центры, способствующие экономическому развитию страны посредством технологий, создающих возможность для работы преподавателей и учащихся с предпринимателями. На при-мере «Силиконовой Долины» можно отметить, что годовой оборот в области электронной торговли превышает 1 триллион долларов США, и годовые за-работки работников составляют 80,000 $.

**Ключевые слова:** интеллектуальная собственность, право интеллектуальной собственности, политика в области интеллектуальной собственности, экономика знаний, Силиконовая долина, культурные права, интернет, права человека, коммерциализация, инновации, цифровое авторское право, патент, авторское право, старт-ап компании

## INTELLECTUAL PROPERTY POLICY AND SCIENTIFIC RESEARCH OF UNIVERSITIES: HOW CAN WE OVERTAKE SILICON VALLEY?

**A.T.SAFAROV**

**SUMMARY**

It is impossible to deny that the modern global economy is based on intellectual property and is its main engine. It is proved that the strength and power of each state are associated with the power of its science and universities, the right policy of intellectual property in universities determines the development of the country. The creation of companies aimed at the commercialization of research results in the formation of the knowledge triangle, as well as the creation of incentives for the commercialization of innovations are the spirit of the times. Universities should become the centers which enable economic development of the country with the help of technologies and which enable teachers and students to work with entrepreneurs. In the case of Silicon Valley, we can see that the annual turnover in e-Commerce is more than 1 trillion US dollars, and the annual earnings of employees are 80,000 US dollars.

**Key words:** intellectual property, intellectual property rights, intellectual property policy, knowledge economy, Silicone Valley, cultural rights, İnternet, human rights, commercialization, innovation, digital copyright, patent, copyright, start-ap companies

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 Sosial-siyasi elmlər seriyası 2018

UOT 349.3

# XARİCİ ÖLKƏLƏRDƏ SOSİAL XİDMƏT SFERASININ TƏNZİMLƏNMƏSİ XÜSUSİYYƏTLƏRİ

**Ü.M.ƏLİYEV**
***Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi***
***aliyev_ulvi_89@mail.ru***

*Bu məqalədə xarici ölkələrdə sosial xidmət sferasının tənzimlənməsi xüsusiyyətləri araşdırılmışdır. Bir sıra inkişaf etmiş ölkələrin sosial xidmət sahəsində təcrübəsi araşdırılmaqla onların xarakterik xüsusiyyətləri ümumiləşdirilir. Xarici ölkələrdə sosial xidmət sahəsində dövlət sifarişlərinin QHT-lərə verilməsini məqbul saymaqla həmin problemin üstün cəhətləri göstərilmişdir.*

**Açar sözlər:** sosial, dövlət, qanun, proqram, təminat

«Sosial xidmət haqqında» 30 dekabr 2011-ci il tarixli Azərbaycan Respublikası Qanununun qəbul edilməsilə respublikamızda sosial xidmət sisteminin formalaşmasında yeni mərhələ başlamışdır. Azərbaycan Respublikasında sosial xidmət sisteminin formalaşması üçün Qərbi Avropa ölkələrində əhaliyə sosial xidmət üzrə "konvergensiya" (latın dilində convergere-yaxınlaşmaq, uzlaşmaq deməkdir (6, 360-364)) nəzəriyyəsinin tətbiq olunması vacib rol oynaya bilər. Bu nəzəriyyə iki sosial sistemin: hər birinin müsbət əlamətlərini və xüsusiyyətlərini özündə birləşdirən hər hansı "qarışıq cəmiyyətdə" onların sistemli əlaqəsi ilə kapitalizmin və sosializmin yaxınlaşmasında ictimai inkişafın (XX əsrin 50-70-ci illəri) ьstьn tendensiyasını nəzərdə tutan sosioloq, politoloq və iqtisadçıların əsərlərində kifayət qədər geniş şəkildə öz əksini tapmışdır (10, 271-272).

Qərb ölkələrinin iqtisadi inkişafını müşayiət edən sosial xidmət sisteminin genişlənməsi üç istiqamətdə həyata keçirilmişdir:

Birincisi, sosial xidmətin təqdim edilməsi risklərinin genişlənməsi. Belə ki, sosial xidmət sistemi əvvəlcə yalnız müəyyən sosial risklərdən müdafiəni əhatə etsə də sonralar öz tərkibinə onların geniş dairəsini daxil etməyə başlamışdır.

İkincisi, sosial müdafiə olunan şəxslərin tərkibinin genişlənməsi. Belə ki, sosial xidmət sistemi əvvəlcə yalnız muzdlu işçiləri əhatə edirdi və yalnız

tədricən müdafiəyə ehtiyacı olan digər şəxslər qruplarını (məsələn, sənətkarlara, işləməyənlərin müəyyən təbəqələri, reabilitasiya mərhələsində olanlara, sosial yardımdan istifadə edənləri) əhatə etməyə başlamışdır.

Üçüncüsü, təqdim edilən sosial xidmət növlərinin kəmiyyətinin coxalması və səviyyəsinin yüksəlməsi. Belə ki, göstərilən xidmətlərin sayı əvvəllər məhdud olsa da dövlətin iqtisadi potensialının artması ilə tədricən göstərilən xidmətlərin səviyyəsinin yüksəlməsi də mümkün olmuşdur.

Sosial xidmət sisteminin ayrı-ayrı sahələrinin konkret olaraq formalaşması ilə əlaqədar göstərmək olar ki, hər bir ölkənin bazar iqtisadiyyatı ilə uzlaşan alternativ imkanları mövcuddur. Həmin imkanlar özündə əsas etibarilə sosial xidmətin təşkil edilməsi, sosial müdafiə olunmalı olan şəxslərin dairəsi, sosial xidmətlərin həcmi və forması, onun maliyyələşdirilməsi ilə bağlı aspektləri əhatə edir.

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə sosial təminat probleminin tədqiqatçıları göstərirlər ki, əksər ölkələrdə sosial xidmət sistemi üçün iki prinsip - dövlətin yalnız ictimai birliklərin müəyyən fəaliyyət göstərməsindən sonra sosial xidmət göstərilməsinə dəstək prinsipi, yəni bazar münasibətləri şəraitində funksional mərkəzsizləşmə haqqında danışmağa imkan verən dövlətin səlahiyyətlərinin bir hissəsinin könüllü fəaliyyət göstərən təşkilatlara, yerli hakimiyyətlərə verilməsi və bunun təkcə insan hüquqlarının təmin olunmasına deyil, həm də insanlara normal həyat şəraitinin təmin olunmasına aid olduğu halda əsas rolun və məsuliyyətin dövlətə keçməsi prinsipi xarakterikdir (8, 220-222;12, 19-21).

Almaniyanın qanunvericiliyində bundan başqa, sosial xidmətin aşağıdakı prinsipləri də təsbit edilmişdir:

- sığorta prinsipi (sosial xidmətin sosial sığorta ödəmələri hesabına maliyyələşdirilməsi, sosial sığorta ödəmələri ilə sosial xidmət növlərinin həcmi arasında qarşılıqlı əlaqə);
- təminat prinsipi (vergilər hesabına maliyyələşdirilmə);
- himayəçilik prinsipi (büdcə hesabına maliyyələşdirilmə və fərdi ehtiyaclara yönəltmə).

Böyük Britaniyada isə sosial xidmətin aşağıdakı prinsipləri təsbit edilmişdir:

- universallıq (sosial xidmətin ölkənin bütün əhalisinə şamil olunması);
- ümumilik (bütün sosial risk hallarını əhatə etməsi);
- idarəetmənin vahidliyi (sosial xidmətin idarə edilməsi ictimai dövlət xidməti tərəfindən həyata keçirilir);
- göstərilən xidmətlərin eyniliyi (onlar əlavələrə və vəziyyətinə görə eyni olmalıdırlar və gəlirlərin məbləğindən asılı olmamalıdırlar).

ABŞ-da öz tərkibinə bilavasitə sosial işləri daxil edən dövlət sosial xidmət sistemi Avropa ölkələrindən xeyli gec meydana gəlmişdir. Uzun müddət ABŞ-ın sosial xidmət məsələlərinə lazımi formada fikir verilməmişdir. Dövlətin sosial siyasəti daha çox pensiya təminatına və sosial sığortaya yönəl-

mişdir. ABŞ-da sosial təminat pensiya təminatı, İngiltərədə professional pensiya təminatı, Avstraliyada superannusiya sistemi, Fransada əlavə professional pensiyalar, AFR-də istehsalat sığortası adlanırdı. Müəyyən müddət keçdikdən sonra istehsalat sosial təminatının strukturu mürəkkəbləşərək öz tərkibinə tibbi xidmətlə yanaşı sosial xidməti də daxil etməyə başlamışdır.

Hazırda ABŞ-da 1935-ci ildə qəbul edilmiş sosial müdafiə və sosial təminat haqqında qanunlar qüvvədədir. 45 milyon amerikalını əhatə edən və 2002-ci il federal dövlət büdcəsindən 455 milyard dollar məbləğində maliyyələşməni nəzərdə tutan sosial həmrəylik prinsipinə əsaslanan pensiya təminatı sisteminin əsas dövlət proqramında islahatlar aparılması barədə artıq yeni təkliflər irəli sürülmüşdür (1, 184). Ölkənin inkişaf tempinə uyğun olaraq həmin qanunlara müxtəlif dövrlərdə müəyyən düzəlişlər olunmuşdur. Məsələn, 1975-ci ildə sosial təminat haqqında qanuna aşağıdakı normaları müəyyən edən 20-ci maddə əlavə olunmuşdur: gəliri müvafiq ştatda adambaşına olan orta gəlirin 80%-dən azını təşkil edən şəxs pulsuz olaraq sosial xidmət növlərindən istifadə edə bilər. Gəlir həmin məbləğdən çox olduqda isə sosial xidmətlərə görə haqq tələb olunur. Sosial xidmət üzrə federal fondlar əhalinin sayına uyğun olaraq ştatlar arasında bölüşdürülür. Dövlət sosial yardım xidmətləri 75%-i federal vəsaitlər hesabına, 25% isə ştatın vəsaitləri hesabına maliyyələşdirilir (13, 151-152).

Yaşlı insanlara göstərilən sosial xidməti tənzimləyən əsas qanun olan «Yaşlı amerikalılar haqqında» qanun isə 1992-ci ildə qəbul olunmuşdur. Həmin qanuna əsasən ayrılan vəsaitlər müxtəlif yardım növlərinin təşkili və göstərilməsi üçün nəzərdə tutulur. Onların arasında yaşayış yerinə görə qocalara xidmət göstərilməsini, həm qrup şəklində, həm də fərdi olaraq qida ilə təmin edilməsini göstərmək olar. Eyni zamanda xüsusi ehtiyaclarla şərtlənən müxtəlif yardım növlərinin təqdim edilməsi də nəzərdə tutulmuşdur. Qanunda göstərilən həmin xidmətlərin maliyyələşdirilməsinə ayrılmış bütün vəsaitin 70%-i yönəldilir və bu zaman qidalanma məsələsi mərkəzi yer tutur. Belə ki, yaşı 60 və ya ondan çox olan vətəndaşlar qida proqramından istifadə etmək hüququna malikdirlər. Əlillər zərurət olduqda evdə qida əldə edirlər və yaşa görə onlar 60 yaşdan da az ola bilərlər. Qidanın 2/5-dən çoxu yaşayış yeri üzrə verilir, qalan 3/5-ü isə yaşayış məntəqələrinə ən yaxın olan ərazilərdə paylanılır.

Federal vəsaitlər hesabına ştatlardan və ayrı-ayrı ərazi vahidlərindən əhəmiyyətli dərəcədə fərqlənən və "son ümid proqramları" adlandırılan ümumi yardım proqramları fəaliyyət göstərir. Bu proqramlar yalnız bir əhali qrupuna, məsələn, əlillərə, əlillərin ailələrinə və s. xidmət göstərilənə qədər həyata keçirilə bilər. Ehtiyacı olan bütün kateqoriya şəxslərə (praktiki olaraq heç bir proqrama aid olmayan əmək qabiliyyətli şəxslər istisna olmaqla) yalnız 10 ştatda xidmət göstərilir.

ABŞ-da ümumi yardım proqramlarından başqa fövqəladə və xüsusi yardım proqramları da mövcuddur. Fövqəladə yardım proqramları ümumi proqramlarda planlaşdırılmayan hallarda sosial dəstəyi nəzərdə tutur. Xüsusi

yardım proqramları insanların qeyri-standart ehtiyaclarının ödənilməsinə yönəlir. Proqramların dövlət proqramı olmasına baxmayaraq xüsusi sosial agentliklər də burada iştirak etmək hüququna malikdirlər.

Almaniyada müxtəlif hissələrə bölünən sosial yardım sistemi fəaliyyət göstərir. Sosial təminat (sosial yardım) təşkilatların qarşısında duran əsas vəzifə hər bir insanın layiqli həyat şəraitinin təmin edilməsidir. Sosial xidmətə olan hüquq ölkə əhalisinin əksəriyyətinə aiddir. 1991-ci ilin yanvarın 1-dən «Müstəqil surətdə özünə xidmətetmə qabiliyyətini itirmiş şəxslər və yaşlı insanlar üçün evdə yardımın göstərilməsi haqqında"qanun qüvvəyə minmişdir. Evdə xidmət göstərilməsi üçün sığorta edilmiş şəxs statusu, hazırda və ya keçmişdə əmək fəaliyyətində iştirak edilməsi tələb olunur. Yardımın həcmi vətəndaşlara maksimum dərəcədə ev şəraitində qalmağa imkan verir və sığınacaq institutunda onların yaşaması zəruriyyətini minimuma endirir (xüsusən ona görə ki, orada qalma evdə xidmətdən daha baha başa gəlir).

Niderlandda 1968-ci ildə qəbul edilmiş "Xüsusi tibbi xərclərin sığortalanması haqqında" qanun hələ də qüvvədədir və həmin qanunda sosial xidmətin aşağıdakı formaları təsbit edilmişdir: sığınacaq evləri, stasionar müəssisələr, gündüz və gecə qalmaq üçün evlər, evdə xidmət göstərilməsi (xüsusi milli assosiasiyalar tərəfindən). Sığınacaq institutu pensiya və əlavə gəlirlər (əgər onlar olarsa) hesabına ödənilir. Ancaq dövlət yardıma görə haqqın yüksək həddini müəyyən etmişdir. Yalnız müəyyən müddət üçün nəzərdə tutulan yardım pulsuz olaraq göstərilir (6, 360-364).

Böyük Britaniyada "Yardım göstərilməsi haqqında" 1948-ci il qanunu müasir dövrdə də öz əhəmiyyətini saxlamışdır. Həmin qanuna əsasən bütün sosial yardım rejimləri sosial təminat və səhiyyə orqanlarının səlahiyyətindədir. Ehtiyacı olanlara fərdi sosial yardım göstərilir. Yaşlı şəxslərin 97%-i evdə yaşamaqla tibbi və sanitar yardımdan, o cümlədən sosial xidmətdən istifadə edir. Yarımstasionar xidmət mərkəzlərində həkimlər tibbi yardımı göstərirlər, sosial sferanın işçiləri isə qidanı və istirahəti təşkil edirlər. Evdə yaşaya bilməyən şəxslərin 80%-i yerli cəmiyyətlərin, 20%-i isə qeyri-kommersiya birliklərinin və özəl institutların mülkiyyətində olan xüsusi təchiz olunmuş mənzillərdə məskunlaşırlar. Bununla yanaşı, yerli vergilər və hökümət subsidiyaları hesabına maliyyələşdirilən qocalar üçün evlər mövcuddur. Həmin evlərdə yaşayanların çox az bir hissəsi (5%) öz hesablarına sosial xidmətlə təmin edilirlər.

İsveçrənin "Sosial təminat haqqında" 1982-ci il tarixli qanununda göstərilir ki, yaşlı şəxslər yaxınlıqda sosial, kommersiya, tibbi-sanitar və mədəni xidmətlərin göstərilməsi üzrə xidmətləri olan yüksək keyfiyyətli mənzilə malik olmalıdırlar. Sosial xidmət onu göstərən şəxsin sağlamlıq vəziyyətindən və vəsaitlərindən asılıdır. Qanun mənzil müavinətinə olan hüququ və ya mənzilin təchizatı üçün dotasiya müəyyən edir. Sosial xidmətə ehtiyacı olanlara adi və ya xüsusi təchiz olunmuş mənzil, əlillik dərəcəsi ağır olanlar üçün yüksək səviyyəli rahatlığı olan mənzil təqdim olunur. Qanunda yaşlı şəxslər və səhhəti, xüsusilə ağır vəziyyətdə olan şəxslər üçün yataqxanada və ya pansionat evlərdə

ayrıca mənzilin verilməsi nəzərdə tutulmuşdur (4, 14).

Danimarkada 1987-ci ilin mayında yaşlı şəxslərin ehtiyaclarına uyğun yeni mənzillərin tikintisinə və köhnə mənzillərin yenidən təchiz olunmasına imkan verən "Mənzil haqqında" qanun qəbul olunmuşdur. Qanun onlara, hətta lazımi yardıma ehtiyacları olduqda belə evdə yaşamağa icazə verir. Bunun üçün qanun yerli xüsusiyyətləri nəzərə alan mənzillərin tikilməsi zamanı cəmiyyətin və rəhbərliyin subsidiyalaşdırılması qaydasını, yəni yaşlı şəxslər üçün mənzil müavinətlərini nəzərdə tutur. Həmin qanun yaşlı şəxslərin sayının və onunla bağlı dövlətin və cəmiyyətin xərclərinin mütəmadi artmasını, ailə əhatəsində öz müstəqilliyini saxlamaq istəyən yaşlı şəxslərin iradəsini nəzərə alaraq dövlət tərəfindən təqdim olunan evdə yardım və qulluqla bağlı xidmətlərin göstərilməsini təsbit edir.

İspaniya Konstitusiyasına və muxtar cəmiyyətlərdəki ümumi qanunlara müvafiq olaraq vətəndaşların sosial müdafiəsinə yönəlmiş bir sıra qanunvericilik aktları qəbul olunmuşdur. Kastilya və Leonun muxtar cəmiyyəti "Sosial fəaliyyət və sosial xidmət haqqında" 1988-ci il tarixli qanun qəbul etmişdir. Andaluz muxtar cəmiyyəti, Basklar ölkəsi, Kataloniya muxtar cəmiyyəti vətəndaşlara sosial xidməti, yaşlı insanların yaşayış səviyyəsinin yüksəldilməsini, yardımın fərdiləşdirilməsini nəzərdə tutan sosial təminat haqqında qanunlar qəbul etmişlər.

Fransada sərbəstliyini itirmiş, o cümlədən yaşlı şəxslərin və sığınacaq institutlarında olan şəxslərin müdafiəsi 1970-ci il xəstəxana islahatı ilə və 1975, 1978 və 1990-cı illərdə qəbul edilmiş müxtəlif qanunlarla müəyyən olunur. Onlar uzunmüddətli saxlama (internat evləri strukturlarında) zamanı və uzunmüddətli ambulator müalicə (yaşlılar üçün nəzərdə tutulmuş evlərdə) zamanı xidmətlərin ödənilməsinin diferensiyalaşdırılmış tariflərini müəyyən edirlər. Evdə yardım göstərilməsi zamanı mümkün xərclərin yüksək hədləri müəyyən edilmişdir, bunlar daha da artıqda qospitala yerləşdirmə nəzərdə tutulmuşdur. Yüksək gəlirə malik olmayan şəxslər ağır vəziyyətdə olurlar, çünki onlara lazımi yardım göstərilməsindən imtina oluna bilərlər.

Lüksemburqda yaşlı insanlara qulluğun maliyyələşdirilməsi və qulluğun özü sosial təminat orqanlarından deyil, bilavasitə dövlətdən asılıdır. Həmin şəxslərin sığınacaq institutunda və ya ev şəraitində saxlanılan dəyəri, bir qayda olaraq, təsbit edilmiş yüksək həddə müəyyən olunur və ödənişdə vətəndaşların özləri də iştirak edir. Nəzərə alsaq ki, ölkədə pensiyaların məbləği yüksəkdir, onda belə xərclərə yaşlı şəxslərin 2/3-nin imkanı çatır. Əgər həmin şəxsin öz gəliri kifayət etmirsə, onun saxlanılması dövlət tərəfindən ailənin iştirakı olmadan maliyyələşdirilir (9, 58).

Belçikada yaşlı şəxslərin sosial yardımına yönələn çoxsaylı qanunlar və qərarlar qəbul edilmişdir ki, burada tariflər və ailənin maliyyə ehtiyatlarına münasibətdə sanitar və sosial aspektlər arasında fərqlər müəyyən olunmuşdur. Qəbul edilmiş müəyyən aktlar bəzən bir-birinə uyğun gəlmir və qaydalardan istisnalar doğurur. Ölkədə yaşlı vətəndaşlara evdə qulluq göstərilməsi daha çox

inkişaf etsə də bu xidmətlərin dəyəri xeyli yüksək olaraq qalır. Bununla əlaqədar oxşar xidmətlər, o cümlədən lazımi gerontoloji hazırlığa malik olan kadrlar çatışmır.

Sosial xidmət haqqında xarici qanunvericiliyin təhlili göstərir ki, sosial xidmətə ehtiyacı olan şəxslərin vəziyyəti ayrı-ayrı ölkələrdə müxtəlifdir. Bəzi ölkələrdə sosial xidmət əldə etmək üçün tibbi sığortaya malik olmaq və müəyyən vaxt ərzində sığorta haqlarını ödəmək (Almaniyada, Niderlandda), peşə fəaliyyəti stajına malik olmaq (Almaniya) lazımdır. Yaşlı insanların maraqları naminə bəzi ölkələrin (ABŞ, AFR, Danimarka, İsveç) qanunvericiliyi evdə sosial xidmətin göstərilməsinə, onların evdə, ailədə yaşaması üçün ən yaxşı şəraitin yaradılmasına yönəlmişdir.

İnsanın sosial xidmət hüququnun səmərəli təmin olunması üçün hər bir cəmiyyət üzvü və dövlət bir-birləri ilə sıx surətdə əməkdaşlıq etməlidirlər. Bu o deməkdir ki, sosial xidmət hüququnun səmərəli təmin olunmasında dövlət təkbaşına deyil, ictimai birliklər və cəmiyyət üzvləri ilə birlikdə, sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərməlidir. Məsələn, dövlət sosial xidmətlərindən başqa xarici ölkələrdə dini və s. fondlar daxil olmaqla yerli fondlar tərəfindən maliyyələşdirilən könüllü qeyri-kommersiya sosial xidmətləri və xüsusi şəxslərin himayə etdiyi özəl kommersiya təşkilatların maliyyələşdirilməsi hesabına sosial xidmətlər həyata keçirilir. Eyni zamanda peşəyə görə birləşən təşkilatlar da mövcuddur.

A.Y.Nekrasovun haqlı olaraq qeyd etdiyi kimi "qeyri-hökümət təşkilatlarının fəaliyyətində, xüsusilə qiymətli olan odur ki, onlar öz fəaliyyətində peşəkar ödənişli xidmətlərlə könüllü xidmətləri əlaqələndirirlər, həmçinin onlar həmin xidmətləri əhaliyə bilavasitə, çətin inzibati prosedurlara əl atmadan təqdim edirlər. Onlar, xüsusilə böhran vəziyyətlərində (təbii fəlakətlər, qəzalar və s.) yeni tələbatların meydana gəlməsinə düzgün və operativ reaksiya vermək və hökumət proqramlarını tamamlayaraq əhaliyə təxirəsalınmaz yardım göstərmək imkanındadır" (5, 75).

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin əksəriyyətində çoxsaylı assosiasiyalar fəaliyyət göstərir. Assosiasiyalar öz üzvlərinin mənafelərinin müdafiəsi məqsədilə təşkil olunur. Məsələn, Böyük Britaniyada orta məktəb müəllimlərinin, ali təhsil müəssisələrinin və kolleclərin müəllimlərinin, sonrakı təhsil müəllimlərinin assosiasiyaları korporativ marağın, pedoqoji heyət üzvlərinin statusunun sosial təminatı məsələlərini həll edirlər, onlara isə zərurət olduqda sosial xidmət göstərilir. Bununla əlaqədar korporasiyanın imkanları təhsil orqanlarının, õåyli sàydà müxtəlif mьəllimlərə dəstək fondlarının imkanları çərçivəsində kənara çıxır. Xüsusi olaraq, müəllimlər üçün yardım və qarşılıqlı dəstək cəmiyyətləri yaradılmışdır və fəaliyyət göstərir.

Müəyyən ölkələrdə öz üzvlərinə, həmçinin sosial xidməti təmin edən xüsusi sosial təminat təşkilatları mövcuddur (1, 6-10). Bununla əlaqədar tam şəkildə muxtariyyətə malik olan xüsusi təşkilatlar yaradılmışdır: şaxtaçılar təşkilatı, SNCF (dəmir yolları milli cəmiyyəti) təşkilatı, RATP (muxtar dövlət

Paris nəqliyyat müəssisəsi), peşəkar hərbçilər təşkilatı, Fransız bankı təşkilatı və s.

Bir sıra ölkələrdə xüsusi proqramlar qəbul etməklə icmanı təmin edən sosial xidmət praktikası inkişaf etmişdir. Belə ki, ABŞ-da "Gündəlik qayğı " proqramı bütün il ərzində həftənin beş günü (8:00-dan 16:30-a qədər) qüvvədə olur. Bu proqram uşaqları səhər yeməyi, nahar, günortadan sonra iki qəlyanaltı ilə təmin edir. Təhsilə yönələn proqrama əlavə olaraq "Gündəlik qayğı" preventiv tibbi xidmət və ailə məsləhətləşməsini təmin edir.

Son illər "Qoddard-Riversayd" layihəsi, həmçinin evsiz tənha insanlar üçün nümunəvi yaşayış yerinə çevrilir. Evsiz insanlarla iş hələ 70-ci illərin sonlarında başlamışdır. O zaman işlənib hazırlanmış layihəyə görə Yuxarı Vest-Saydın park və küçələrinə hər gün evsiz insanlara qida, paltar, xidmət, sığınacaq, emosional dəstək təklif edən işçilər komandası göndərilirdi. Layihə ruhi xəstə olan evsiz insanlarla apardığı işdə qazandığı uğurlar sayəsində dövlət miqyasında diqqəti cəlb etdi (3, 198; 7, 114).

Analoji funksiyanı, həmçinin bəzi ölkələrdə (Finlandiya) yaradılan öz fəaliyyətində müəyyən istiqaməti və məqsədi deviz seçən liqalar həyata keçirir. Məsələn, "Qonşuna kömət et" devizi altında fəaliyyət göstərən liqa minlərlə uşaqları özündə birləşdirir. Məqsəd-bütün səviyyələrdə, yerli səviyyədən dövlət səviyyəsinə qədər uşaqların və anaların sağlamlığının mühafizəsinin inkişafıdır. 1989-cu ildə liqa uşaqların problemləri ilə və uşaqlı ailələrə dəstək məsələsi ilə məşğul olan eston rəhbərləri ilə əməkdaşlıq etməyə başladı. Liqa digər ölkələrdə də uşaqların mühafizəsi üzrə təşkilatlarla əməkdaşlıq edir. Liqanın bütün Finlandiya üzrə 470 yerli şöbəsi vardır. Yerli şöbələrdə liqa üzvləri hökümətə və ictimai rəyə təsir etməyə çalışırlar, müxtəlif tədbirlər təşkil edir və onlar da fəal iştirak edirlər. Burada fəaliyyətin 100 müxtəlif növü mövcuddur: orada xəstə uşaqlara yardım edirlər, psixoloq-məsləhətçilər, klublar, ilk valideynlər üçün məktəblər və s. var.

İsveçrədə sosial xidmət, xüsusilə diqqətəlayiqdir. Müəlliflərdən A.M.Fişer-Qeyzer ona yüksək qiymət (11, 215) verərək göstərir ki, İsveçrədə sosial işin vəziyyəti onun bütün istiqamətlərində dövlətin konfederativ xarakteri ilə müəyyən olunur. Ölkə iyirmi altı kantona bölünüb və onların hər biri öz qanunvericiliyinə uyğun yaşayır. Sosial sfera daxil olmaqla kantonlarda həyata keçirilən bütün ictimai-siyasi, iqtisadi və mədəni fəaliyyət yalnız kantonun əhalisinin rifahına yönəlmişdir. Ancaq yoxsullara və ehtiyacı olanlara dövlət sosial yardımının göstərilməsinə görə məsuliyyəti kanton deyil, icma daşıyır. İsveçrədə cəmi 3050 müstəqil icma vardır ki, onların da yarısı 500 nəfərdən çox olmayan sakinə malikdir.

İsveçrədə sosial xidmət müəssisələri özəl və ya kilsə müəssisələri kimi fəaliyyət göstərirlər. Tarixi ənənələrdən asılı olaraq onlar 3 səviyyədə - konfederasiya, kanton və kommuna (icma) səviyyələrində fəaliyyət göstərirlər. Bununla əlaqədar sosial xidmətlər "dövlətin mümkün qədər az müdaxilə etməsi" prinsipi üzrə idarə olunurlar.

Ölkədə sosial xidmətlərin inkişaf tarixi göstərir ki, onlar əsas etibarilə özəl təşəbbüs nəticəsində meydana gəlmişlər və ittifaqlar, fondlar və cəmiyyətlər tərəfindən idarə olunurlar. Məsələn, Sürix kantonunda bütün təşkilatların təxminən 50%-i özəl şəxslərin əlindədir, 15%-ni kilsə xidmətləri təşkil edir, 30%-i kommunalara və təxminən 5 %-i kantonlara məxsusdur. Ancaq xüsusi sosial xidmətlərin hamısı bu gün dövlətin, kantonun və ya icmanın verdiyi maliyyə dotasiyaları olmadan mövcud ola bilməz. Sosial xidmət xərcləri çox yüksək olduğu üçün maliyyə məsələsi ciddi çətinliklər doğurur.

Bununla belə, özəl təşkilatların üstünlüyü ondadır ki, onlar dövlət xidmətlərinə nisbətən cəmiyyətdə yaranan problemlərə daha cəld, daha mobil reaksiya vermək, göstərilən sosial xidmətlərə yeniliklər gətirmək imkanına malikdirlər.

Ölkədə sosial xidmət bu prinsip üzrə təşkil olunur: əvvəlcə ailədə olan bütün imkanlardan istifadə edilir, əgər bunlar kifayət etmirsə, onda özəl və ya kilsə sosial xidmətləri tərəfindən xidmətin göstərilməsinə başlanılır. Yalnız sonuncu halda dövlət təşkilatlarına kömək üçün müraciət olunur.

Təqdim olunan sosial xidmətlər ərazidən - şəhər və ya kənddən asılı olaraq fərqlənir. Böyük şəhərlərdə sosial xidmətlərin artıqlığı müşahidə olunur. Sosial yardım ayrıca şəxslərə, ailələrə, qruplara və kollektivlərə göstərilir. Praktikada sosial iş kompleks xarakterli olduğuna görə bu işin ayrı-ayrı sahələri arasında fərqləndirmə o qədər də dəqiq aparılmayıb. Ona görə də daha çox kantonların mərkəzlərində fəaliyyət göstərən ixtisaslaşmış özəl məsləhətxanalarla yanaşı çoxprofilli dövlət sosial xidmət mərkəzləri mövcuddur. Onlar bir qayda olaraq böyük şəhərlərdə və daha iri icmalarda cəmləşmişlər və bütün həyati məsələlər üzrə: tərbiyə problemləri, qəyyumluq, müxtəlif maliyyə işləri, ailədə əmək kollektivlərində qarşılıqlı münasibətlər, yaşla bağlı problemlərin həlli və s. üzrə xidmətləri və məsləhətləri təklif edirlər.

İri sənaye müəssisələri, univermaqlar, ticarət firmaları, banklar, poçt və teleqraflar, dəmir yolları və s. də öz sosial yardım mərkəzlərinə malikdirlər və həmin müəssisələrdən asılı deyillər və onların rəhbərliyi qarşısında hesabat verməyə bilər.

Kilsə vergiləri və verilmiş ianələr sayəsində maliyyə münasibətlərində uğur qazanan çoxlu kilsə icmaları gənclərlə, tənha şəxslərlə, kişilərlə, qadınlarla, analarla, dul şəxslərlə və s. ilə diferensiasiyalı şəkildə iş aparan xeyli sosial işçi qruplarına malikdirlər. Onlar xüsusi layihələri - xeyriyyə naharlarını, qocalar və gənclər üçün görüşləri, uşaqlar üçün istirahəti və s. həyata keçirirlər.

Ölkədə böyük sosial yardım əlillərə, xəstələrə, fiziki və əqli çatışmazlıqları olan şəxslərə, qocalara göstərilir. Həmin kateqoriya şəxslər üçün bütün kantonlarda öz şöbələri olan ümumdövlət sosial yardım mərkəzləri (“Pro Infirmis”, “Pro Senectute”) fəaliyyət göstərir. Sosial işçilər əlillərə, xəstələrə gündəlik həyatın çətinliklərinin öhdəsindən öz imkanları həddində necə gəlməyi öyrədirlər. Həmin işçilər münasib mənzil axtarmaqda, internata düzəldilməsində, ərzaq xidmətinin təşkilində, zəruri köməkçi vasitələrin (əl ağacı,

uşaq arabaları və s.) alınmasında onlara köməklik edirlər. Tənha şəxslər və qocalar üçün daha gənc insanlar arasından ünsiyyət qura bilən şəxslər seçilir.

Hazırda İsveçrənin bütün iri şəhərlərində qadın evləri açılmışdır. Ərləri tərəfindən döyülən, psixi istirablara məruz qalan qadınlar həmin evlərdə uşaqlarla birlikdə sığınacaq tapa bilərlər. Burada bir neçə həftə qaldıqları müddətdə onlar rahat şəkildə ailələrində mövcud olan vəziyyəti müzakirə edirlər və sosial işçilərlə birlikdə çıxış yolu tapmağa cəhd göstərə bilərlər. Zorakılığın qurbanı olan qadınlara yaşamış olduqları iztirabları unutmaqda, habelə baş vermiş hadisə üzrə məhkəmə baxışının hazırlanmasında və aparılmasında köməklik göstərilir. Qadın məsləhətxanaları arasında ailə planlaşdırması məsələləri üzrə yardım göstərən ixtisaslaşmış mərkəzlər mövcuddur.

İsveçrədə gənclərə yardım xidmətlərində sosial işin bütün politrası ifadə olunmuşdur. Uşaq tərbiyyə və gənclər internatları yaradılmışdır. İlk öncə şəhərlərdə yaradılan Robinzon adlı oyun meydançalarında uşaqlar sosial işçilərin rəhbərliyi altında komalar tikmək, nəsə hazırlamaq - öz fantaziyalarını qurmaq imkanına malikdirlər.

Gənclərin görüş məntəqələrində və gənclər mərkəzlərində oğlanlar və qızlar öz boş vaxtlarında birgə tədbirlər keçirirlər, onları maraqlandıran məsələlər haqqında söhbət edirlər. Bu mərkəzlərdə çalışan sosial işçilər gənclərin qruplarına başçılıq edirlər, boş vaxtlarda məşğuliyyət növü və əyləncə təklif edirlər, rəqs gecələri (diskotekalar) və digər mədəni tədbirlər təşkil edirlər. Həmin vaxt ərzində müxtəlif məsələlər üzrə fərdi məsləhətləşmələr aparıla bilər. Ailələrə, azyaşlı və böyük uşaqları olan valideynlərə yardım göstərilməsi üzrə ixtisaslaşan klassik tipli özəl məsləhətxanaların sayı da az deyildir.

İsveçrənin faktiki olaraq bütün kantonlarda öz filiallarına malik olan uşaqlara, yeniyetmələrə, gənclərə yardım üzrə böyük ümumdövlət mərkəzi mövcuddur. Burada tələbatdan asılı olaraq xidmətlər göstərilir, habelə uşaqların istirahət düşərgələrində, internatlarda qalması üçün maliyyə dəstəyi göstərilir.

Bundan əlavə bir çox kantonlarda gənclərə məhkəmə icraatı sahəsində yardım üzrə dövlət mərkəzləri fəaliyyət göstərir. Burada sosial işçilər yetkinlik yaşına çatmayan qanun pozanların cəzalandırılması və ya müdafiəsinə dair bütün mövcud hüquqi aktları araşdırırlar. Sosial işçilər və sosial pedaqoqlar məhkəmə icraatı sahəsində gənclər üçün həbsxanalarda və islah müəssiələrində işləyirlər. Burada sosial işçilər qüvvədə olan hüquqi aktları araşdırırlar.

Hələlik ümumdövlət səviyyəsində bu sosial bəla ilə mübarizədə vahid strateji xətt işlənib hazırlanmasa da İsveçrənin bütün kantonlarında xəstələr-alkoqoliklər və narkamanlar üçün müstəsna məsləhətxanalar mövcuddur. Psixiatriya klinikalarında və ixtisaslaşmış institutlarda müvafiq müalicə kursunu keçdikdən sonra bu növdən olan xəstələri xüsusi terapevtik şöbələrə keçirirlər ki, orada onlar qruplarda yaşayırlar və müxtəlif profilli mütəxəssislər (sosial işçilər, həkimlər, psixoloqlar və s.) onları adi peşəkar və gündəlik həyata qaytarmağa çalışırlar .

Bəzi özəl mərkəzlərin sosial işçiləri sosial hazırlıqdan sonra küçə işi adlı fəaliyyəti həyata keçirirlər. Bu o deməkdir ki, onlar yeniyetmələri, gəncləri müəyyən görüş və yığıncaq yerlərində, məsələn, şəhər parkında, şəhərin mərkəzi meydanında, dəniz kənarında və ya müvafiq bar və kafelərdə saxlayaraq həmin gənclərə bütün sosial məsələlər üzrə lazımi köməklik göstərirlər .

Bu gün Isveçrədə bütün sosial fəaliyyət sferalarında və işəgötürənlərdə sosial işçilər tam şəkildə əmək haqqı almaqla işləyə bilərlər.

Ölkənin ayrı-ayrı kantonlarında sosial işin strukturu və istiqaməti bir-birindən fərqlənsə də, bu işin prinsipləri, onun məqsədləri və fəaliyyyəti bütün sahələrdə eynidir.

**Beləliklə, bu məqalədə qeyd edilənlərin təhlili və ümumiləşdirilməsi aşağıdakı nəticələrə gəlməyə əsas verir:**

**1.** Azərbaycan Respublikasında sosial xidmət sisteminin formalaşması üçün Qərbi Avropa ölkələrində əhaliyə sosial xidmət üzrə "konvergensiya" (latın dilində convergere-yaxınlaşmaq, uzlaşmaq deməkdir (6, s. 360-364)) nəzəriyyəsinin tətbiq olunması vacib rol oynaya bilər.

Təəssüf ki, bu tendensiya keçmiş SSRİ-də "kənardan" təsir hesab edildiyinə görə rədd edilmiş və bu səbəbdən konvengensiya nəzəriyyəsinin "insan şəxsində kapitalizm" və "insan şəxsində sosializm" formasında konkretləşdirilməsi cəhdlərinin inkişafı mümkün olmamışdı. Hüquq elmlərinə gəldikdə isə xarici ölkələrdən fərqli olaraq Azərbaycanda konvergensiya nəzəriyyəsinin inkişafı üçün əlverişli mühit formalaşmamışdır. Bununla yanaşı, bazar iqtisadiyyatına keçid şəraitində bu nəzəriyyə Azərbaycanda da aktuallıq kəsb edir. Konvergensiya nəzəriyyəsi ona görə əhəmiyyətlidir ki, o, hər şeyi yenidən başlamaq üzrə bütün cəhdləri rədd edərək qanunvericilik və hüquqtətbiqetmə üzrə artıq hazır olan müsbət təcrübənin istifadə edilməsini təklif edir. Hesab edirik ki, belə bir nəzəriyyənin sosial xidmətlə bağlı münasibətlərin tənzim edilməsində istifadə edilməsi daha düzgün olardı.

**2.** Sosial xidmət haqqında xarici qanunvericiliyin təhlili göstərir ki, sosial xidmətə ehtiyacı olan şəxslərin vəziyyəti ayrı-ayrı ölkələrdə müxtəlifdir. Bəzi ölkələrdə sosial xidmət əldə etmək üçün tibbi sığortaya malik olmaq və müəyyən vaxt ərzində sığorta haqlarını ödəmək (Almaniyada, Niderlandda), peşə fəaliyyəti stajına malik olmaq (Almaniya) lazımdır. Yaşlı insanların maraqları naminə bəzi ölkələrin (ABŞ, AFR, Danimarka, İsveç) qanunvericiliyi evdə sosial xidmətin göstərilməsinə, onların evdə, ailədə yaşaması üçün ən yaxşı şəraitin yaradılmasına yönəlmişdir.

**3.** İnsanın sosial xidmət hüququnun səmərəli təmin olunması üçün hər bir cəmiyyət üzvü və dövlət bir-birləri ilə sıx surətdə əməkdaşlıq etməlidirlər. Bu o deməkdir ki, sosial xidmət hüququnun səmərəli təmin olunmasında dövlət təkbaşına deyil, ictimai birliklər və cəmiyyət üzvləri ilə birlikdə, sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərməlidir. Məsələn, dövlət sosial xidmətlərindən başqa xarici ölkələrdə dini və s. fondlar daxil olmaqla yerli fondlar tərəfindən maliyyələşdirilən könüllü qeyri-kommersiya sosial xidmətləri və xüsusi şəxs-

lərin himayə etdiyi özəl kommersiya təşkilatların maliyyələşdirilməsi hesabına sosial xidmətlər həyata keçirilir. Eyni zamanda peşəyə görə birləşən təşkilatlar da mövcuddur.

**4.** Sosial xidmət haqqında xarici ölkələrin qanunvericiliyi bir çox ümumi cəhətlərə malikdir: bir qayda olaraq əlillərə sosial xidmət dövlət tərəfindən təmin olunur. Bu xidmət dövlət və bələdiyyə orqanları tərəfindən maliyyələşdirilir. Pensiyaçılara sosial xidmət dövlət sosial idarələri və həmkarlar ittifaqları assosiasiyaları tərəfindən təmin olunur, çətin həyati şəraitdə yaşayan şəxslərə xidmət isə könüllü cəmiyyətlər, liqalar və icmalar tərəfindən təmin olunur.

Sosial xidmət haqqında xarici ölkələrin qanunvericiliyinin təhlili belə qənaətə gəlməyə imkan verir ki, sosial xidmətin növləri və həcmi əsasən ölkə iqtisadiyyatının səmərəliliyindən asılıdır. İqtisadi cəhətdən zəif ölkələrdə sosial sığorta sistemi artıq heç olmasa maliyyələşmə baxımından sosial təminatın yalnız nisbətən aşağı səviyyəsini təmin etmək imkanındadır. İqtisadi səmərəliliyin artması ilə sosial xidmət sistemini də genişləndirmək olur.

**5.** Hazırda məcburi dövlət sosial sığortası mülkiyyət və təşkilati-hüquqi formalarından asılı olmayaraq bütün müəssisələrin, o cümlədən məcburi dövlət sosial sığortaya cəlb edilmiş şəxslərin ödədikləri sosial sığorta haqqı ilə Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondu (DSMF) tərəfindən həyata keçirilir. Lakin DSMF vəsaitləri hesabına əmək pensiyaları və bəzi sosial müavinətlər (əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət, işsizlik müavinəti və s.) ödənilir. Hesab edirik ki, sosial xidmət institutu üzrə də məcburi dövlət sosial sığortası prinsiplərinin tətbiq edilməsi məqsədəmüvafiq olardı. Ona görə ki, hazırda əhaliyə sosial xidmətin səmərəsi bir sıra maliyyə-iqtisadi və təşkilati problemlərlə əlaqədar olaraq aşağı düşmüşdür. Ona görə ki sosial xidmətin sabitliyi yalnız dövlətin səyləri ilə təmin edilə bilməz, çünki büdcə vəsaiti belə xidmətə ehtiyacı olanların hamısını, hətta minimum səviyyədə təmin etməyə imkan vermir. Buna görə də bu prosesdə müasir vətəndaş cəmiyyətinin bütün subyektlərinin - qeyri-dövlət strukturlarının və qeyri-hökumət təşkilatlarının iştirakı zəruridir. Cəmiyyətin sosial sığortaya cəlb edilməli olan üzvlərinin sosial xidmətin maliyyələşdirilməsində iştirakının təmin edilməsi bu gün üçün ən aktual məsələ olaraq qalmaqdadır. Bu baxımdan hesab edirik ki, sosial xidmətin ehtiyaclarına sərf olunacaq bütün vəsaitlərin cəmləşdiriləcəyi büdcədənkənar xüsusi dövlət fondu formalaşdırılmalıdır. Məhz həmin fond vasitəsilə vətəndaşların sosial xidmətin əsas növlərinə olan konstitusion hüquqları reallaşdırıla bilər. Belə ki, sığorta olunanlar sosial xidmətə olan hüquqları çərçivəsində daha keyfiyyətli sosial xidmət və onun daha geniş dairəsini əldə edəcəklər. Onlar sosial xidmətin səmərəliliyinin yüksəldilməsinin ən mühüm üsulu olan sosial sığorta mexanizmi vasitəsilə əldə etdikləri hüquqların real təminatına malik ola biləcəklər. Bazar iqtisadiyyatı şəraitində sosial xidmətin maliyyələşdirilməsinə mərkəzləşdirilmiş mənbələrlə yanaşı, müəyyən maliyyə imkanlarına malik olan şəxslərin və büdcədənkənar əlavə mənbələrin

də (məsələn, Dövlət Neft Fondu) cəlb edilməsi məqsədəmüvafiq olar.

**6.** Hesab edirik ki, sosial xidmət formalarının daha yüksək şəkildə təqdim edilməsi üçün respublikamızda aşağıdakı yeni tipli sosial xidmət müəssisələrinin yaradılması məqsədəmüvafiq olardı;

- valideyn himayəsindən məhrum uşaqlar üçün yardım mərkəzləri;
- ağır formada əlilliyi olan şəxslər üçün evdə mobil reabilitasiya xidmətləri;
- əhaliyə psixoloji yardım mərkəzləri;
- həddi-buluğa çatmayan və davranış pozuntuları olan uşaqlar üçün xüsusi psixo- sosial reabilitasiya mərkəzləri;
- əlilliyi olan uşaqlar üçün reabilitasiya-inkişaf mərkəzləri;
- ailə əsaslı kiçik qrup evlər;
- uşaqlar üçün ailə əsaslı müvəqqəti sığınacaqlar;
- uşaqlara dəstək və inkişaf mərkəzləri;
- himayədar (foster) qayğı xidmətləri;
- ailə məsləhət və təlim mərkəzi;
- uşaq və ailələrə dəstək mərkəzləri;
- insan alverinin qurbanı olmuş və ya zorakılığa məruz qalmış uşaqlar üçün sığınacaq tipli krizis mərkəzləri.

**ƏDƏBİYYAT**


1. Robert L. Makkan. Amerika iqtisadiyyatının əsas cəhətləri / Birləşmiş Ştatların məlumat agentliyi. Bakı: Təknur, 2013, s. 184.
2. Анализ постановления дан в работе Пашков А.В. Организация социального обеспечения во Франции. М., 1998, с. 6-10.
3. Вул Б. Программа социальной помощи в американской общине / теория и практика социальной работы. Т. 1. М., Тула, 1993, с. 198.
4. Зарубежные социальной работы / Российский журнал социальной работы, 1998, №1/7, с. 14.
5. Некрасов А.Я. Международный опыт социальной работы. М., 1994, с. 75.
6. Основы социальной работы. Сб. под ред. П.Д. Павлинка. М., 2001, с. 360-364.
7. Социальная работа и подготовка социальных работников в Великобритании, Канаде, США. М., 1992, с. 114
8. Теория и практика социальной работы: отечественный и зарубежный опыт. Отв. ред. Т. Ф. Яркина. Т.1. М.: Тула, 1993, с. 220-222.
9. Теория и методика социальной работы/ Под.ред. И.Г.Зайчышева. Ч. 2 М., 1994. с. 58
10. Философский энциклопедический словарь. М., 1983, с. 271-272.
11. Фишер-Гейзер А.М. Социальная служба в Швейцарии / Теория и практика социальной работы. Т. 1 М.: Тула, 1993, с. 215.
12. Элементы системы социального обеспечения в условиях социально ориентированной рыночной экономики. На примере ФРГ. М., 1993. с. 19-21.
13. Энциклопедия социальной работы: Пер. с. англ. / Гл. ред. Кунельский Л.Э. и др .Т. 1 М., 1994 с. 151-152.

## ОСОБЕННОСТИ РЕГУЛИРОВАНИЯ СФЕРЫ СОЦИАЛЬНОГО ОБСЛУЖИВАНИЯ В ЗАРУБЕЖНЫХ СТРАНАХ

**У.М.АЛИЕВ**

**РЕЗЮМЕ**

В статье исследованы особенности регулирования сферы социального обслуживания в зарубежных странах. Автор, исследовав практику некоторых развитых стран в сфере социального обслуживания, обобщает их характерные особенности, считает приемлемым передачу неправительственным организациям государственных заказов в данной сфере, указывает ее преимущественные стороны.

**Ключевые слова**: социальный, государство, закон, программа, обеспечение

## FEATURES OF THE REGULATION OF THE SPHERE OF SOCIAL SERVICE IN FOREIGN COUNTRIES

**U.M.ALIYEV**

**SUMMARY**

In article deals with the features of regulation of the sphere of social service in foreign countries. The author, having investigated practice of some developed countries in the sphere of social service, generalizes their characteristics. The author, including acceptable transfer of the state orders to nongovernmental organizations in the sphere of social service, specifies its primary parties.

**Keywords:** social, state, law, program, providing

**UOT 342.922**

# İDARƏETMƏ VƏ NƏZARƏT: FUNKSİONAL TƏHLİL

**Ə.H.RZAYEV**
***AMEA-nın Hüquq və İnsan Haqları İnstitutu***
***doctor-rzayev-ali@mail.ru***

*Heç zaman həddini aşma*
***C.Solon***
*Gördüyün işi əvvəl ağıl tərəzisi ilə ölç*
***Qətran Təbrizi***

*Məqalədə nəzarətin anlayışı, mahiyyəti və məzmunu bütün aspektlərdə təhlil edilir. Nəzarət cəmiyyətdə baş verən proseslər haqqında lazımi, hərtətəfli məlumatlar almaq üçün mühüm kanallardan biri kimi baxılır.*

**Açar sözlər:** nəzarət, idarəetmə, əks əlaqə, sistem, idarəetmə prosesi, dövlət nəzarəti, dövlət idarəetməsi, kibernetika

**Nəzarət** (fransız-Controle) - nəyisə yoxlamaq, yoxlama məqsədilə müşaiyət etmək; uçot, haqq-hesabı yoxlamaq, hesabat vermək, hakimiyyət idarəsi; qanunların, qərarların icrasını yoxlamaq məqsədilə müşaiyət kimi ifadə olunur.

Qısa Oksford lüğətində «nəzarət» termini üç mənada işlədilir: 1) yoxlamaq və ya nəzarət etmək, bu səbəbdən tənzimləmək; 2) hesabat tələb etmək; 3) qabağını almaq və azad fəaliyyəti istiqamətləndirmək.

Nəzarət – nəzərdə tutulan parametrlərdən, məqsədlərdən alınmış nəticələrin kənara çıxmaların aşkarlanması, düzəldilməsi və xəbərdar edilməsinə imkan verən idarəetmə fəaliyyətidir. Nəzarət dar mənada kiminsə, nəyinsə fəaliyyətini yoxlamaq, geniş mənada normativ-hüquqi aktların, qəbul olunmuş qərarların, tələblərin riayət edilməsini və yerinə yetirilməsinin yoxlanılması kimi baxmaq olar(1) .

Nəzarət cəmiyyətdə baş verən proseslər haqqında lazımi, hərtərəfli məlumatlar almaq üçün mühüm kanallardan biridir. O cəmiyyətin bütün bölmələrinin normal funksiya göstərməsi, xalqın maraqlarının necə əməl eilməsi haq-

qında obyektiv mühakimə yürütməyə kömək edir. Nəzarətin düzgün təşkili hər bir insanın konstitusiya, qanunlar və digər normativ aktlara əməl etməsini təmin edir, qəbul olunmuş qərarların həyata keçməsi üçün təşkilati iş aparılır, yaranmış problemlərin həlli üçün praktiki addımlar atılır. Nəzarət ayrıca şəkildə mövcud olmur. O, öz xüsusiyyətləri və məzmunu ilə konkret həcmdə və müəyyən formada idarəetmə sahələrində həyata keçirilir.

Nəzarət anlayışı idarəetmənin əsas funksiyalarından biri kimi universal xarakter daşıyır və eyni qayda ilə sosial sistemində, canlı orqanizmdə, texniki qurğularda və avtomatik idarəetmə sistemində həyata keçirilir.Bütün canlı orqanizmlər, bioloji fərdlər, cəmiyyət, texniki qurğular, mürəkkəb özünüidarə, özünütənzim olunan dinamik sistemlər haqqında 1948-ci ildə N.Viner tərəfindən yaradılan ***kibernetika*** elmi dövriyyəyə buraxılandan sonra idarəetmə elmi əksər ölkələrdə geniş yayılmış və inkişaf etməyə başlamışdır.

Kibernetika *«əks əlaqə»* adı daşıyan nəzarətin köməyilə idarəetmə subyekti idarəetmə obyektinin fəaliyyətində bütün vəziyyət barədə informasiya alır, zəruri halda idarəetmə prosesində operativ müdaxilə edir və sistemdə düzəlişlər aparır. N.Viner əks əlaqənin sadə nümunəsini qayığın sükançısında göstərir. Sükançı qayığın hərəkəti zamanı qayıq müəyyən edilmiş kursdan kənara (sağa və ya sola) çıxarsa, sükançı onu təzimləyir. Burada sükançının ustalığı ondadır ki, əks əlaqə- nəzarət əsasında qayığı müəyyən olunmuş kurs üzrə apara bilir.

Beləliklə, əks əlaqədə idarəetmə obyektinin vəziyyəti haqqında informasiya ötürülmə prosesidir. İdarəetmənin effektivliyi idarə edən subyektin qərarları, göstərişləri birbaşa əlaqə ilə obyektə çatdırılmaq və obyektin vəziyyəti barədə əks əlaqə kanalı ilə subyektə informasiyanın catdırılması ilə müəyyən edilir.

Azərbaycan Respublikasının Konstitusiyasında (1995) hakimiyyətlər bölgüsü (7-ci maddə) təsbit edildikdən sonra yeni şəraitdə *idarəetmə* orqanlarını əvəz edən *icra hakimiyyəti* orqanlarının yeni vəzifələrinə, funksiyalarına və strukturlarına uyğun tam yeni baxışlar, prinsiplər tətbiq edilmiş və təbii olaraq nəzarət idarəetmə funksiyası kimi onun təyinatı və nəzarət orqanlarının səlahiyyəti dəyişilməyə məruz qalmışdır. İcra hakimiyyəti orqanlarında nəzarət funksiyası idarəetmə funksiyalarından transformasiya olunur.

Nəzarət dövlət idarəetməsinin mühüm funksiyasıdır. Ədəbiyyatda bəzi müəlliflər idarəetmə funksiyalarında nəzarət funksiyasının ikinci dərəcəli xarakter daşıdığını göstərirlər. Bunu nəzarətin idarəetmə funksiyaları siyahısında axırıncı yerdə dayanması ilə əsaslandırırlar. Nəzərə alınmalıdır ki, nəzarət idarəetmə prosesində növbəliliyə görə axırda yazılır.

İdarəetmənin əsas funksiyalarından biri olan nəzarətin də öz funksiyaları var və o idarəetmə funksiyaları ilə müəyyən edilir. Nəzarətin idarəetmə funksiyası kimi xüsusi rolu onun əks əlaqələrin həyata keçməsini, vaxtında idarəetmə obyektinə təsir tədbirlərinin, planların və qoyulmuş məqsədlərin dəyişilməsinə xidməti şərtləndirir. Nəzarət funksiyalarına, müxtəlif səviyyələrdə

normativ aktların tələblərindən kənara çıxmaları aşkar etmək; kənara çıxmaların səbəblərini təhlil etmək; kənara çıxmaların aradan qaldırılması üçün təkliflər hazırlamaq və düzəlişlər etmək; gələcəkdə bu cür pozuntulara yol verməmək üçün profilaktik tədbirlər hazırlamaq; hüquq-mühafizə tədbirləri görmək, yəni əyintilərə yol vermiş şəxsləri məsuliyyətə cəlb etmə daxildir.

Nəzarəti xarakterizə edən elementlərlə: nəzarətin subyekti, nəzarətin obyekti, nəzarətin predmeti (nəzarətin təşkili üçün məsələ və meyarların məcmusu), nəzarətin məqsədi, vəzifələri, prinsipləri, metodları, texnologiyası, nəzarət prosesi daxildir. İdarəetmə prosesi siklik xarakterli olub bir-birini əvəz edən mərhələlərdən: məqsədlərin müəyyən edilməsi, qərarların qəbulu, qərarların icrasının təşkili, onun yerinə yetirilməsinə nəzarətdən ibarətdir.

Bəzi tədqiqatçılar nəzarətin mahiyyətinə kompleks şəkildə 1) dövlət idarəetmə prosesinin elementi; 2) idarəetmə funksiyası; 3) bütün idarəetmə sistemində qanunçuluğu təmin edən metodlar kimi baxılır.

Ümumiyyətlə, mütəxəssislərin nəzarətə idarəetmə elementi və funksiyası keyfiyyətində baxışları bir qayda olaraq alınan nəticələrin müqayisəsini idarəetmə fəaliyyətinin yekun mərhələsində həyata keçirməsi ilə əlaqələndirilir. Nəzarətin idarəetmə funksiyası kimi xüsusi rolu onun əks əlaqələrin həyata keçməsinə, vaxtında idarəetmə obyektinə təsir tədbirlərinin, planların və qoyulmuş məqsədlərin dəyişilməsinə xidməti şərtləndirir.

Ümumi şəkildə «İdarəetmə funksiyası» kateqoriyası idarəetmə obyektinə, idarəetmə sisteminə idarəetmə təsirinin məzmununu ifadə edir. İdarəetmə obyekti üzərində nəzarət yoxdursa, orada xaos yaranar, nəticədə obyektin dağılmasına gətirib çıxardır. Nəzarət düzgün və əsaslandırılmış aparılırsa: 1. Qeyri-müəyyənlik itir; 2. Böhranın qarşısını almaq imkanları yaranır; 3. Distruktiv təzahürlərlə yanaşı həm də konstruktiv təzahürlər meydana gəlir.

İdarəetmə funksiyası məsələsi nəzəriyyə və praktikada geniş istifadə olunur. Hər bir halda idarəetmə funksiya idarəetmə təsirinin, yəni idarəetmə münasibətlərinin mahiyyətini ifadə edir.

A.Fayol idarəetmədə tətbiq edilən funksiyaları – əvvəldən görmək, planlaşdırmaq, təşkilati, koordinasiya, nəzarətin məcmusunu inzibati funksiyalar adlandırmışdır. Sonrakı tədqiqatçılar idarəetmə funksiyalarına müxtəlif meyarlara görə təsnifat verirlər. Bunlar içərisində universal hesab olunanlar: a) idarəetmə funksiyası, idarəetmə orqanlarının və idarəetmə personalının kadrlarının funksiyalarını müəyyən etmək üçün əsas olan ilkin idarəetmə funksiyaları; v) idarəetmə sisteminin formalaşdırılmasının daxili məntiqini əks etdirən bir-birilə əlaqəli, bir-birini şərtləndirən bütün funksiyalar (4, 87-88).

Tərcübədə hər bir dövlət özü üçün spesifik idarəetmə modeli seçir.

«İdarəetmə modeli» anlayışı idarəetmənin əsas sistemini açmağa imkan verir. Model sözü lüğətdə bir neçə mənada verilir. Geniş mənada model - bu hər hansı bir obyektin, prosesin və ya təzahürün analoqu (təsviri, sxemi, planı və s.) kimi baxılır.

İdarəetmə modellərinin formalaşmasında R.Ouen, F.Teylor, M.Veber,

A.Fayol, Q.Emerson və b. böyük rolu olmuşdur. İdarəetmənin əsas modelləri aşağıdakı kimi təsnif olunur:

- *mülkiyyət forması və istehsal vasitələrinə görə*: kapitalist, sosialist, korporativ;

- *iqtisadiyyata bazar təsiri dərəcəsinə görə*: liberal dövlət tənzimlənməsi elementinə görə bazar, sosial-bazar, bazar münasibətlərinin inkişafı ilə olan idarəetmə modeli, bazar (plan) elementləri ilə mərkəzləşdirilmiş idarəetmə modeli;

- *hakimiyyət səlahiyyətlərinin realizə xarakterinə görə*: avtoritar, demokratik; məhsuldar pillələr sistemində insanın «yerləşmə kriteriyası»na görə: doindustrial, industrial, postindustrial; ərazi mənşəyinə və adaptasiya yerinə görə: azərbaycan, rusiya, amerikan, yapon, isveç, alman, braziliya;

- *müvafiq menecment məktəblərin məxsusluğuna görə*: elmi menecment məktəbi (R.Ouen, F.Teylor və b); rasional bürokratiya məktəbi (M.Veber); administrativ məktəb (A.Fayol); «klassik məktəb» (Muni, Reyli və b.); əməyin elmi təşkili məktəbi (A.Baqdanov, A.Yurovski və b.); insan münasibətləri məktəbi (E.Məyo); motivasiya məktəbi (A.Masloy, F.Xersberq və b.); «təşkilatı davranış məktəbi» (K.Ardciris və b.);

- *idarəetmə sistemində insanın rolu və yeninə ğörə*: (model D.Makgregora, X nəzəriyyəsi və Y nəzəriyyəsi), model U (Z nəzəriyyəsi);

- *xarici və daxili mühitin dəyişilməsinə görə*: strateji (ənənəvi, konservativ, cari vəziyyət), adaptiv (qabaqlayıcı, innovasion), dinamik (proqnoz, ehtimal olunan inkişaf modeli) (4, 95).

*İdarəetmə prosesində* nəzarət əks əlaqə elementi kimi çıxış edir, yəni əvvəl qəbul edilmiş qərar, plan və normativlərin korreksiyası həyata keçirilir. İdarəetmə prosesi sikli xarakterli olub bir-birini əvəz edən mərhələlərdən: məqsədlərin müəyyən edilməsi, qərarların qəbulu, qərarların icrasının təşkili, onun yerinə yetirilməsinə nəzarətdən ibarətdir. Nəzarət obyektlərindən məlumatların alınması və istifadə olunması aşağıdakı ardıcıllıqla aparılır: 1) lazımi məlumatları almaq; 2) alınmış məlumatları təhlil etmək və qiymətləndirmək; 3) nəzarət gedişində hüquqi aktlarda müəyyən edilmiş tələblərdən kənara çıxmalara münasibət bildirmək. *Nəzarət prosesi* standartların – konkret meyarların, məqsəd və vəzifələrin qoyulması, əldə olunan nəticələrin standartlarla müqayisəsi və nəticələrin qiymətləndirilməsindən ibarətdir.

*Nəzarətin məqsədlərinə*:idarəetmə qərarlarının əsaslılığının və effektivliyinin qiymətləndirilməsi; bu qərarların realizəsinin qiymətləndirilməsi; obyektin fəaliyyətində qəbul olunmuş qərarların, norma və qaydaların tələblərindən kənara çıxmaları aşkarlamaq; aşkar edilmiş əyintilərin aradan qaldırılması üçün tədbirlər hazırlamaq; destruktiv əyintilərin profilaktikası məqsədilə idarəetmə prosesinin düzəlməsi üçün tədbirlər hazırlamaq; obyektin optimal funksiya göstərməsi üçün maneələri aradan qaldırmaq daxildir (6).

## Sosial nəzarət

*Hər birimizdə biri digərinin etdiyinə*
*irad tutan iki insan var.*
***Q.Sankeviç***
*Ağıllı insanlar cəmiyyətin qan damarıdır.*
***Daniel Defo***

Məlumdur ki, bütün nəzarət növləri, o cümlədən dövlət nəzarəti **sosial nəzarətin** müxtəlif təzahürləridir. Sosial sözü insanların həyat və münasibətləri ilə əlaqədar olmaqla cəmiyyətə xasdır. Sosial nəzarətin xarakteri ictimai münasibətlərin hakimliyi ilə müəyyən olunur və öz növbəsində sosial sistemin funksiya göstərməsinə və inkişafına ciddi təsir göstərir.

Sosial nəzarət mexanizminin köməyilə cəmiyyət və onun bölmələri (qruplar, təşkilatlar) sosial sistemin funksiya göstərməsinə ziyan gətirən pozuntulara müəyyən məhdudiyyətlər qoyulur. Bu məhdudiyyətlər keyfiyyətində hüquqi və mənəvi normalar, adətlər və ənənələr durur.

Sosial nəzarət qoyulmuş çərçivədə norma və meyarların köməyilə insan davranışının müəyyən xüsusiyyətlərinin təhlili kimi baxılır. Sosial nəzarət insan davranışının bu çərçivədən kənara çıxmasına qadağa qoyur. Sosial nəzarət cəmiyyətin, dövlətin və onun orqanlarının, ictimai təşkilatların və kollektivlərin və başqa sosial təsisatların mühüm funksiyası, vətəndaşların subyektiv hüquqlarıdır;

Cəmiyyətin dinamik inkişafı sosial nəzarətin daim dəyişdirilməsini, yeni şəraitə və məqsədlərə uyğunlaşmasına şərait yaradır. Sosial nəzarət mexanizmin mahiyyətini cəmiyyətin, sosial idarəetmənin fəaliyyəti prinsiplərin, funksiyaların, forma, metod və vasitələrin nəzarətin hüquqi aspektlərini araşdırmaqla nail olmaq olar. Sosial nəzarət sistemi mürəkkəb olmaqla nəzarət subyektlərinə görə cəmiyyət, dövlət, ayrı-ayrı dövlət orqanları, ictimai təşkilatlar, əmək kollektivləri, vətəndaşlar daxildir.

Ümumiyyətlə, sosial nəzarət hüquqi və idarəetmə aspektlərdə baxılır.

***Hüquqi aspektdə*** nəzarət cəmiyyət və idarəetmə fəaliyyətinin tənzimlənməsini təmin edən funksiya kimi baxılır. Sosial nəzarətin inkişafının mühüm istiqaməti onun hüquqla üzvi bağlılığıdır. Hüquq insanların davranışının tənzimləmə vasitəsi kimi çıxış edir. Əgər hüquq dövlətin və xalqın iradəsini qanunla ifadə edirsə, nəzarət insanların davranışının bu iradəyə uyğunluğunu aşkar və təmin etmək rolunu oynayır. Əgər sosial norma davranışın miqyasıdırsa, nəzarət insanların davranışının bu miqyasa uyğunluğunu aşkar etmək üçündür.

Ümumiyyətlə, nəzarət iki istiqamətdə aparılır. *Birinci,* qanunverici aktların həyata keçməsi və ya qoyulmuş məhdudiyyətlərə əməl olunması yoxlanılır; *İkinci,* həqiqi vəziyyəti aydınlaşdırmaq və ya nəzarət olunan obyektdə nəzərdə tutulan, arzu olunan və ya gözlənilənlərə uyğunlaşdırmaq. Onlardan biri – işin həqiqi vəziyyəti haqqında uçot məlumat, digəri isə – olmalı vəziyyət haqqında məlumatdır. Burada əsas normativ aktların, yəni qərarların, hüquqi normaların tələbləri baxımından araşdırılır.

***İdarəetmə aspektində*** nəzarət: Birinci, idarəetmə funksiyalarından biri, yəni nəzarət fəaliyyəti kimi idarəetmə orqanlarının, onların rəhbərlərinin sistemli pozitiv fəaliyyəti keyfiyyətində; İkinci, əks əlaqə mexanizmi kimi, idarəetmənin yekun mərhələsi; üçüncü, idarəetmə qərarlarının qəbulu və icrası prosesində ayrılmaz hissəsi kimi baxılır. Bütün bu aspektlərdə əsas olan nəzarətin mahiyyətinə hüquq mütəxəssislərinin vahid baxışları yoxdur.

İdarəetmə aspektində nəzarət cəmiyyətdə, dövlətdə və kollektivdə fəaliyyətin qiymətləndirməsi kimi baxılır. Bu aspektdə nəzarət spesifik əlamətlərə malikdir. Onlar: birinci, idarəetmə fəaliyyətinin ayrılmaz hissəsi xüsusi növü; ikinci, idarəetmə qərarlarının qəbulu prosesində idarəetməyə zəruri olan məlumat təminatı mənbəyi; üçüncü, təsərrüfat subyektinin hüquqa müvafiq olmasını təsdiq etmək məqsədilə onun fəaliyyətinin faktiki vəziyyətini yoxlama sistemi; dördüncü, idarəetmə qərarlarının icrası haqqında lazımi məlumat almaq üçün geriyə əlaqə mexanizmidir.

Nəzarət müəyyən prinsiplərlə həyata keçirilir. Onlar: qanunçuluq, obyektivlik, müstəqillik, aşkarlıq, qənaətcillik, məsuliyyət, məqsədəuyğunluq, sistemlilik, vahid metodologiya, siyasətə qarışmamaq, hüquqi bazanın, maddi və maliyyə vəsaitin olması, nəzarət orqanlarının işində koordinasiya, kolegiallıq, əks əlaqənin səmərəliliyi, şəxsiyyətin həyat və ləyaqətinin mühafizəsi və b. daxildir (5, 180).

İdarəetmə prosesində, o cümlədən nəzarət fəaliyyətində əsas subyekt qismində – dövlət, ictimai təşkilat, kollektiv və vətəndaş çıxış edir.

Nəzarətin subyektlərinin qarşılıqlı əlaqəsindən asılı olaraq daxili (idarə, idarə daxili) və xarici (idarədən kənar, idarələr arası və idarə üzərində) nəzarətə bölünür. Daxili nəzarət bir sistemin özündə orqanlar üzərində tabelilik əsasında (kontrol), xarici – subyektlərinin bir-birinə asılılığı və tabeliliyi olmayan orqanlarda (nadzor) aparılır.

**Konstitusiya nəzarəti anlayışı** geniş mənada normativ aktların Konstitusiyaya uyğunluğunun təmin olunması kimi baxılır. Konstitusiya nəzarəti orqanlarının rolu və səlahiyyətləri müxtəlif ölkələrdə müxtəlif fərqlərin olmasına baxmayaraq, onlarda eyni fəaliyyət sahəsi - qanunların və digər normativ aktlarının Konstitusiyaya uyğunluğunu təmin etməkdir.

Konstitusiya nəzarəti institutunun təhlili göstərir ki, bu institut ***«Amerika modeli»*** *və* ***«Avropa modeli»*** ilə bir neçə inkişaf yolu keçib.

**«Amerika modeli»** ilk dəfə ABŞ-da tətbiq edilmişdir. Bu model əsasən İngilis - Sakson ümumi hüquq sisteminin qüvvədə olduğu ölkələr üçün səciyyəvi olub, konstitusiyaya nəzarətini ümumi yurisdiksiyalı məhkəmələr tərəfindən həyata keçirilir.

Birinci Dünya müharibəsindən sonra Avropada Konstitusiya nəzarətinin «Amerika modelindən» fərqli ***«Avropa modeli»*** tətbiq edilməyə başlayır. «Avropa modelinin» tətbiq olduğu ilk ölkə *Avstriya* olmuşdur. Avropa modeli ideyası Avstriya hüquqşünası H.Kelzinə məxsusdur. O, 1920-ci ildə Avstriya Federal Konstitusiya qanununun hazırlanmasında Konstitusiya Məhkəməsinin

yaradılmasında yaxından iştirak etmiş və sonra həmin məhkəmənin üzvü olmuşdur. Odur ki, bu model bəzi hallarda «*Avstriya modeli*» və ya «*Kelzin modeli*» adlandırılır.

Ikinci Dünya müharibəsindən sonar Konstitusiya nəzarətinin "Avropa modeli" daha geniş tətbiq edilməyə başlanmışdır. "Amerika modelinin" uzun proseduraya malik olması, məhkəmə prosesinin mürəkkəbliyi və s. amillər avropa dövlətlərində ondan imtina olunmasına və «Avropa modelinə» üstünlük verilməsinə səbəb olmuşdur.

Hüquqi ədəbiyyatda konstitutsiya nəzarətini tətbiq edən ölkələri dörd qrupa bölürlər:

1. Konstitusiya nəzarəti aşağıdan-yuxarıya bütün məhkəmə orqanları tərəfindən həyata keçirilən ölkələr (ABŞ, Argentina, Meksika, Norveç, Portuqaliya, Yaponiya və s.).

2. Konstitusiya nəzarəti yalnız ali məhkəmələr tərəfindən həyata keçirilən ölkələr (Avstraliya, Hindistan, İrlandiya, Kanada, İsveçrə və s.).

3. Konstitusiya nəzarəti bu məqsədlə yaradılmış xüsusi məhkəmələr tərəfindən həyata keçirilən ölkələr (Avstriya, İtaliya, Rusiya, AFR, Türkiyə, Azərbaycan və s.).

4. Konstitusiya nəzarəti məhkəməyə oxşar orqanlar (Konstitusiya şuraları) tərəfindən həyata keçirilən ölkələr (Fransa və Fransa modelini qəbul etmiş bir sıra digər ölkələr) (2, 51-53).

Vinerin irəli sürdüyü əks əlaqədə (nəzarət) konsepsiyası əsasında nəzarət insanın *özünə nəzarətdə, insan orqanizmində, ailədə, cəmiyyətdə, dövlətdə və avtomatik* idarə etmək sistemində həyata keçirilir.

*İnsanın özünə nəzarəti* sosial nəzarətin tərkib hissəsi olmaqla insanın öz davranışını, motivlərini və niyyətlərini sərbəst tənzimləməsidir (3, 291). Özünənəzarət bütün dövlət nəzarətinin özəyi olmaqla kənar nəzarətdən daha vacibdir. Belə ki, insan kənardan nəzarətin olmadığını hiss edərək hüquqi qaydaları pozursa, dövlət əmlakını mənimsəmə vəzifəsindən sui-istifadə və korrupsiya hallarına yol verirsə bu özünənəzarətin olmamasına dəlalət edir. Özünənəzarət mexanizmi, ictimai həyat fəaliyyəti prosesində insanın öz hərəkətlərində, niyyətlərində mənəvi keyfiyyətlərində tədricən yaranan inandırma, hissiyyat, vərdiş, özünüqiymətləndirmə, özünütərbiyəni əhatə edir.

*İnsan orqanizmində idarəetmə – nəzarət* funksiyasını insan orqanlarının idarəetmə mərkəzi olan beyin həyata keçilir. Beyinə daxil olan milyonlar, hətta milyardlarla ifadə edilən siqnallar beyində təhlil edilir, sonra dəyərləndirilir və hər birinə qiymət verilir və tənzimləmə - homcostoz həyata keçirilir. Homcostoz fizioloji vəziyyəti və ya bütün orqanizmin hüceyrələrini, orqanlarını və bütün sistemi optimal səviyyədə mühafizə edən tənzimləyici mexanizmdir. Orqanizmdə idarəetmə və tənzimləmə mexanizmində hüceyrələr, toxumalar, orqanlar vahid tam kimi işləyir. Canlı orqanizmdə əks əlaqə əsas rol oynayır. Əks əlaqə – orqanizmdə müəyyən prosesini yavaşıtmaq və ya saxlamaq zərurəti yarananda bu baş verir. Canlı orqanizmdə girişdə informasiyanı qəbul

edən hesablayıcılardan və çıxışda giriş və çıxış əlaqə kanallarından, yaddaş orqanı olan mərkəzi sinir sistemindən ibarətdir. Beləliklə, orqanizm daxilində qarşılıqlı təsir sinir, qumoral mübadilə və başqa amillərin iştirakı ilə mürəkkəb tənzimləyici, koordinasion olunan və bir-birindən asılı olan mexanizmlər vasitəsilə həyata keçirilir.

*Ailədə ailə başçısının idarəetmə* fəaliyyətində əks əlaqə vasitəsilə nəzarət həyata keçirilir, ailə üzvlərinin hər biri haqqında məlumatlar təhlil edilir. Ailə başçısı nəzarət funksiyalarını həyata keçirməzsə, ailə üzvləri arasında nizam-intizam pozulur, tərbiyə məsələsi arxa plana keçir.

*Cəmiyyətdə sosial, ictimai, dövlət nəzarət mexanizmi* işləməzsə, insan və dünyəvi dəyərlər pisləşər, cəmiyyətdə xaos yaranar, həqiqətin yerini yalanlar tutar, yaxşı pis, ağ qara, ədalətsiz ədalətli qələmə verilə bilər.

*Avtomatik idarəetmə sistemində nəzarət* müəyyən tənzimləyici cihazlar həyata keçirir, əgər sistemdə nasazlıq baş verərsə, cihazlardan əks əlaqə kanalları vasitəsilə siqnallar mərkəzi idarəetmə mərkəzinə daxil olur və sistemdə düzəlişlər aparılır.

## ƏDƏBİYYAT


1.Rzayev Ə. H. Dövlət nəzarəti: nəzəriyyə və praktika. Bakı: Elm, 2008, 310 s.
2. Нудель М.А. Конституционный контроль в капиталистических государствах М, 1968, с.51-53.
3.Словарь по этике. М.: Политздат, 1981, с.291.
4. Теория управления: Учебник / Под общ. ред. А.Л. Гапоненко, А.П. М.: РАГС, 2008, с. 358.
5.Шорина Е.В. Контроль за деятельностью органов государственного управления в СССР, М., 1981.
6. (https:ru wikipediya orp/wiki/kontrol)


## УПРАВЛЕНИЕ И КОНТРОЛЬ: ФУНКЦИОНАЛЬНЫЙ АНАЛИЗ


**А.Г.РЗАЕВ**


**РЕЗЮМЕ**


В статье анализируются понятие, содержание, правовой механизм, принципы и процесс контроля, как одной из функций управления. Контроль рассматривается в социальном, правовом и управленческом аспектах.



**Ключевые слова:** контроль, управление, обратная связь, система, процесс управления, государственный контроль, государственное управление, кибернетика


## CONTROL AND MANAGEMENT: FUNCTIONAL ANALYSIS


**A.H.RZAYEV**


**SUMMARY**


The article analyzes the meaning, content of the legal mechanism, principles and the process of control as management functions. Control is considered in social, legal and managerial aspects.



**Keywords:** Control, management, feedback, system, management process, state control, state management, cybernetics

**UOT 341.225**

# ОБЯЗАТЕЛЬСТВО ГОСУДАРСТВ ПО ПРОВЕДЕНИЮ ПЕРЕГОВОРОВ ОТНОСИТЕЛЬНО СПОРНЫХ НЕРАЗГРАНИЧЕННЫХ МОРСКИХ РАЙОНОВ

**И.А.РАДЖАБОВ**
***Бакинский Государственный Университет***
***ilkin.rajabov@gmail.com***

*На примере многочисленных двусторонних договоров в статье рассматриваются различные аспекты обязательства приложить все усилия для достижения временной договоренности практического характера в соответствии со статьями 74 и 83 Конвенции Организации Объединенных Наций по морскому праву 1982 года, раскрываются цели, характер, формы и содержание указанного обязательства, а также действие по времени соглашений, заключаемых с целью его исполнения.*

**Ключевые слова**: международное право, международное морское право, конвенция по морскому праву, Венская конвенция, межгосударственные соглашения, континентальный шельф, исключительная экономическая зона, временные меры.

Обязательство приложить все усилия для достижения временной договоренности практического характера изложено в пунктах 3 статей 74 и 83 Конвенции Организации Объединенных Наций по морскому праву 1982 года (далее – Конвенция морскому праву 1982 г.) [1] следующим образом:

> До заключения соглашения [о границе], как предусматривается в пункте 1, заинтересованные государства в духе взаимопонимания и сотрудничества предпринимают все усилия для того, чтобы достигнуть временной договоренности практического характера... Такая договоренность не должна наносить ущерба окончательной делимитации.

Цель обязательства приложить все усилия для достижения временной договоренности практического характера была разъяснена Арбитражем по статье 287 и Приложению II Постоянной палаты третейского суда в деле *Arbitration between Guyana and Suriname* (далее - дело *Гайана против Суринама*). Поскольку обе стороны направили в арбитражный суд письменные представления, в которых ясно указали соответствующие

границы спорных территорий, оспариваемая зона между этими двумя линиями была отчетливо определена судом и при ссылке на нее использовался термин “спорная зона” [12, Карта 1, после § 163]. По мнению Арбитража, обязательство приложить все усилия для достижения временной договоренности предназначено для содействия достижению временного режима и практических мер, которые могли бы подготовить почву для временного использования спорных зон в ожидании делимитации. Арбитраж также посчитал, что это обязательство подразумевает под собой признание необходимости избегать приостановления экономического развития в спорной морской зоне, пока такая деятельность не влияет на достижение окончательного соглашения [Там же, § 460].

Предполагается, что обязательство в статьях 74(3) и 83(3) “приложить все усилия” для вступления во временную договоренность носит скорее рекомендательный, чем обязательный характер, направленный на непременное достижение результата. Если это положение предусматривало непременное выполнение обязательства, статьи 74(3) и 83(3) могли бы быть составлены просто как “соответствующие государства вступают во временные меры практического характера”. То, что это обязательство является одним из видов поведения, также подтверждается выводом Арбитража в деле *Гайана против Суринама* о том, что “язык изложения, которым закреплено обязательство, налагает на Стороны обязанность вести добросовестные переговоры” и требует от них принять “примирительный подход к переговорам, в соответствии с которым они будут готовы пойти на уступки в рамках временной договоренности” [Там же, §461].

Конвенция по морскому праву 1982 г. не устанавливает или даже не предлагает форму, в которой должна быть заключена временная договоренность или каковым должно быть ее содержание. Андерсон и ван Логхэм предполагают, что возможны самые разнообразные формы, включая соглашение о кооперации или совместном режиме, который позволяет проводить разведку и добычу в неделимитированной зоне, частичный или полный мораторий на определенные виды деятельности, такие как бурение, или просто договоренность о предварительном уведомлении о предполагаемой деятельности в неделимитированной зоне с последующими консультациями [13, 206]. Статьи 74(3) и 83(3) ссылаются на “временные договоренности” “практического характера”. В докладе Ассоциации международного права об исключительной экономической зоне, опубликованном в 1988-м году, утверждалось, что предварительная договоренность носит “практический характер”, если “настоятельная необходимость вступить в нее настолько чрезмерна, что ожидание завершения делимитации было бы против интересов заинтересованных Сторон” [14, 546]. Эти мнения представляются спорными. Более непредвзятое прочтение статей 74(3) и 83(3) предполагает, что “практический ха-

рактер” относится скорее к необходимым условиям временной договоренности, а не непосредственно к необходимости вступить в соглашение. По мнению автора, термин “договоренность” указывает на то, что результат может быть не договором, а носить неформальный или даже необязательный характер, а “практического характера” указывает на оперативное, нежели правовое содержание, соответствующее требованию не наносить ущерб окончательной делимитации.

На практике временные договоренности обычно принимают одну из двух основных форм - временной пограничной линии или зоны совместного управления. Хорошим примером временной границы является соглашение между Алжиром и Тунисом, заключенное в 2002-м году, которое установило предварительную единую морскую границу между двумя государствами [3]. Преамбула к соглашению отсылает к статьям 74(3) и 83(3) Конвенции по морскому праву 1982 г., а в статье 4 говорится, что соглашение не наносит ущерба окончательной делимитации морской границы. Другой пример временной границы - соглашение 2001 года между Ирландией и Великобританией [4]. Соглашение на временной основе определило часть их совпадающих континентальных шельфов, которые не были разграничены более ранним соглашением 1988 года. Соглашение определяет себя как достигнутое “в соответствии со статьей 83(3)” Конвенции по морскому праву 1982 г. и устанавливает, что оно действует “без ущерба к любому будущему соглашению” относительно делимитации этого района континентального шельфа между двумя государствами. В 2013 году соглашение было заменено окончательным пограничным соглашением [15; 16, 383].

Временные договоренности в формате зон совместного управления или эксплуатации имеют различные формы и могут относиться как к конкретному виду деятельности, так и к их ряду. Существуют договоренности, принимаемые только в отношении эксплуатации ресурсов морского дна. Таким примером является соглашение между Нигерией и Сан-Томе и Принсипи 2001 года, которое устанавливает совместную зону для упорядоченной разработки и добычи нефти и других ресурсов в районе, где их исключительные экономические зоны совпадают друг с другом [5, 43]. Соглашение определяет, в частности, создание совместных органов для осуществления разработки зоны, совместное использование доходов, законы и правила, которые должны применяться в зоне, и меры по охране окружающей среды. Преамбула к соглашению ссылается на статью 74(3) Конвенции по морскому праву 1982 г. и гласит, что соглашение “не наносит ущерба возможному разграничению их соответствующих морских зон по соглашению в соответствии с международным правом”. Соглашение должно оставаться в силе в течение 45 лет, с возможным пересмотром через 30 лет [Там же, статья 51]. Такой срок может считаться очень длительным для “временной договоренности”, но

длительные сроки могут быть необходимы в условиях, когда нефтяным компаниям требуется гарантия их инвестиций.

Второй, более сложный пример включает три соглашения, заключенные между Австралией и Демократической Республикой Восточный Тимор (Тимор-Лешти) после достижения ею независимости в 2002 году. Первое соглашение, Договор о Тиморском море [6], определяет себя (в преамбуле и статье 2) в соответствии с терминологией статьи 83(3) Конвенции по морскому праву 1982 г., как временную договоренность практического характера до заключения соглашения и без ущерба для делимитации границы континентального шельфа между двумя государствами. Договор устанавливает Совместную зону разработки нефти (Joint Petroleum Development Area - далее JPDA). Второй договор касается добычи на двух месторождениях углеводородов, которые расположены на восточной границе JPDA [7]. Третье соглашение - Договор о некоторых морских договоренностях в Тиморском море ("Договор CMATS") [8], как и Договор о Тиморском море, определяет себя (в преамбуле) как временную договоренность практического характера до заключения соглашения и без ущерба для делимитации границы континентального шельфа. Однако, эта временная договоренность имеет исключительно обязывающий характер, поскольку препятствует сторонам добиваться делимитации их морской границы судом или трибуналом на весь срок действия Договора, определенный в течение 50 лет [8, статьи 4 и 12]. Тем не менее, Договор действительно создает своего рода временную границу для водной толщи, поскольку он предусматривает, что Австралия осуществляет юрисдикцию над водной толщей к югу от южного предела JPDA (что в значительной степени совпадает со срединной линией), а Тимор-Лешти к северу от этой линии [Там же, статья 8]. Правообразующее действие Договора CMATS 2006 года в настоящее время оспаривается в арбитражных разбирательствах, возбужденных Тимором-Лешти против Австралии.

Можно утверждать, что любой договор, который устанавливает совместную зону эксплуатации или управления в качестве замены морской границы, даже если он не ссылается на статьи 74(3) и/или 83(3) Конвенции по морскому праву 1982 г. и в действительности был заключен до ее принятия, следует рассматривать как временную договоренность в духе этих статей, если только она не рассматривается как постоянная замена границы. Существует немало примеров таких договоров, например соглашение 1974 года между Японией и Республикой Корея [9]. Временные договоренности такого рода (даже длительные) следует отличать от зон совместной эксплуатации, соглашения по которым были достигнуты как часть пограничного урегулирования и опираются на окончательную границу, которая была согласована.

В некоторых случаях государства, в качестве временной договоренности, заключали соглашения о совместных зонах по управлению или

добыче в отношении рыболовства. Одним из таких примеров, хотя и завершившимся до принятия Конвенции по морскому праву 1982 г., является Соглашение между Норвегией и бывшим СССР о Временной практической организации рыболовства в прилегающем районе в Баренцевом море, заключенное в 1978 году [10]. Соглашение применялось в отношении района в южной части Баренцева моря, где исключительные экономические зоны Норвегии и СССР совпадали. В пределах этого района двусторонняя норвежско-советская комиссия по рыболовству должна была устанавливать разрешаемые объемы улова, квоты и другие меры регулирования. Каждая сторона имела в этом районе юрисдикцию только в отношении своих собственных рыболовных судов, а также судов третьих государств, которым она выдала лицензию на промысел в пределах своей квоты. Первоначально соглашение было заключено только на один год, но содержало условие о возможности ежегодного продления. Это условие использовалось сторонами непрерывно до вступления в силу в 2011 году договора 2010 года, устанавливающего окончательную морскую границу между Норвегией и Россией. Тогда же Соглашение 1978 года прекратило действие.

В других случаях государства устанавливали совместную зону эксплуатации или управления как форму предварительной договоренности для решения целого ряда различных вопросов. Хорошим примером является соглашение между Барбадосом и Гайаной, заключенное в 2003 году, устанавливающее “зону сотрудничества для осуществления совместной юрисдикции, контроля, управления, развития, разведки и добычи живых и неживых природных ресурсов, а также иных прав и обязанностей, определенных в Конвенции по морскому праву 1982 г.”, на небольшой территории, где их исключительные экономические зоны совпадают, но которая находится за пределами исключительной экономической зоны какого-либо третьего государства [11]. В преамбуле к соглашению признается “значимость и применимость” статьи 74(3) Конвенции по морскому праву 1982 г. В статье 2(1) соглашения говорится, что “стороны определяют, что они могут, по договоренности в более поздний срок, разграничить международную морскую границу между ними”, а статья 1(2) предусматривает, что соглашение не наносит ущерба “последующему разграничению соответствующих морских зон Сторон в соответствии с общепринятыми принципами международного права” и Конвенцией по морскому праву 1982 г.

В свою очередь последствия временной договоренности могут зависеть от того, что в ней непосредственно предусмотрено. Так, например, упомянутая выше договоренность между Австралией и Тимором-Лешти не позволяет сторонам добиваться делимитации их морской границы судом или трибуналом в течение всего периода действия соглашения, установленного на период в 50 лет [8, статьи 4 и 12]. В то же

время, договоренности об установлении временных границ между Алжиром и Тунисом и между Ирландией и Великобританией, о которых так же говорилось выше, предусматривают, что переговоры по определению окончательной границы должны быть продолжены. Такими же будут и последствия договоренности, которая не содержит каких-либо указаний на этот счет, а также в тех случаях, когда временная договоренность обязывает одну или каждую из сторон воздерживаться от обращения в суд или трибунал с целью определения окончательной морской границы, если соглашение не может быть достигнуто по истечении "разумного периода времени", за исключением тех случаев, когда стороны договорились об исключении такой возможности.

Действие временных договоренностей по времени определяется двумя отличительными аспектами - во-первых, когда возникает обязательство предпринимать "все усилия для того, чтобы достигнуть" временную договоренность и, во-вторых, как долго она должна длиться? Конвенция по морскому праву 1982 г. не содержит непосредственные ответы ни на один из этих вопросов.

Что касается первого вопроса, то, как представляется в принципе, обязательство возникает, как только станет очевидным, что соответствующие государства имеют право на морские зоны, которые совпадают или могут совпадать, и возникла необходимость проведения делимитации. На практике вполне возможно, что это обязательство не будет возникать до тех пор, пока, и если только, неспособность сторон легко и быстро достичь соглашения по морской границе становится очевидной (Лагони придерживается другого мнения, утверждая, что обязательство "может возникнуть до того, как заинтересованные государства инициируют переговоры" [17, 357]). Действительно, было бы бессмысленным вступать в переговоры с целью обсуждения возможных временных договоренностей, если достижение окончательного соглашения не вызывает затруднений. Кроме того, если на практике в неразделенных зонах или, по крайней мере, в их спорной части не осуществляется какая-либо деятельность, необходимость поиска регулирующих ее временных механизмов также лишена смысла.

Что касается продолжительности временной договоренности, этот вопрос может быть определен в самом соглашении. Например, договоренность Алжира и Туниса, рассмотренная выше, предусматривала, что она должна оставаться в силе в течение шести лет, по истечении которых стороны обязались согласовать окончательную морскую границу или продлить или пересмотреть соглашение [3, статьи 9 and 10]; в то время как договоренность Нигерии и Сан-Томе и Принсипи должна была действовать в течение 45 лет с пересмотром спустя 30 лет [5, статья 51]. Если договоренность не определяет срок своего действия, представляется возможным считать, особенно с учетом вступительной фразы пункта 3

статей 74 и 83 ("до заключения соглашения"), что она будет действовать до тех пор, пока путем достижения основного соглашения между сторонами или по решению международного суда или арбитража не будет установлена окончательная морская граница [17, 358; 14, 545]. Тем не менее, Лагони считает уместным предположить, что существует и право денонсации или отказа от соглашения, которое подразумевается ее "временным" характером. Этот аргумент основан на применении по аналогии статьи 25(2) Венской конвенции о праве международных договоров [2], в которой предусматривается, что если договор применяется временно до его вступления в силу, такое временное применение в отношении государства прекращается, если это государство уведомит другие государства, между которыми временно применяется договор, о своем намерении не становиться участником договора [17, 358-359]. Сомнительно, что это является достаточно подходящей аналогией. Хотя Комитет Ассоциации международного права по исключительной экономической зоне также придерживается мнения о том, что существует право на денонсацию или отказ, однако это право сразу же в значительной степени ограничивается последующей оговоркой о том, что поскольку "главной целью [временных] договоренностей является регулирование определенных вопросов в отсутствие границы, можно предположить, что в норме их природа не подразумевает такое право на прекращение" [14, 546-547]. Если даже какая-либо из сторон откажется от временной договоренности, обязательство предпринимать все усилия для достижения временной договоренности все равно будет применяться, и, следовательно, можно ожидать, что даже в таком случае эта сторона будет добросовестно предлагать и обсуждать альтернативные механизмы.

## ИСПОЛЬЗОВАННЫЕ ИСТОЧНИКИ

**Международные договора.**

1. Конвенция Организации Объединенных Наций по морскому праву 1982 года (принята 10 декабря 1982 года, вступила в силу 16 ноября 1994 года) // 1833 UNTS, Basic documents No 36.
2. Венская конвенция о праве международных договоров (принята 23 мая 1969 года, вступила в силу 27 января 1980 года) // 155 UNTS, с. 331.
3. Agreement on Provisional Arrangements for the Delimitation of the Maritime Boundaries between the Republic of Tunisia and the People's Democratic Republic of Algeria (11 February 2002) // 2238 UNTS 197.
4. Exchange of Notes dated 18 October 2001 and 31 October 2001 between the Government of Ireland and the Government of the United Kingdom of Great Britain and Northern Ireland constituting an agreement pursuant to Article 83 paragraph 3 of the United Nations Convention on the Law of the Sea 1982 on the provisional delimitation of an area of the continental shelf // 2309 UNTS 21.
5. Treaty between the Federal Republic of Nigeria and the Democratic Republic of Sao Tomé e Principe on the Joint Development of Petroleum and Other Resources, in respect of Areas of the Exclusive Economic Zone of the Two States (принята 21 февраля 2001 года,

вступила в силу 16 января 2003 года) // 50 Law of the Sea Bulletin (далее - LOSB).
6. Timor Sea Treaty (принят 20 мая 2002 года, вступил в силу 2 апреля 2003 года) // 2258 UNTS 43.
7. Agreement relating to the Unitization of the Sunrise and Troubador Fields (принято 6 марта 2003 года, вступило в силу 23 февраля 2007 года) // 2483 UNTS 317.
8. Treaty on Certain Maritime Arrangements in the Timor Sea (принят 12 января 2006 года, вступил в силу 27 июня 2006 года) // 2483 UNTS 359.
9. Agreement concerning Joint Development of the Southern Part of the Continental Shelf Adjacent to the Two Countries (принято 30 января 1974 года, вступило в силу 22 июня 1978 года) // 122B UNTS 113.
10. Agreement between Norway and the Soviet Union on a Temporary Practical Arrangement for Fishing in an Adjacent Area in the Barents Sea with Attached Protocol (11 January 1978) // [1978] *Overenskomster med fremmede Stater* [Norwegian Treaty Series] 436.
11. Exclusive Economic Zone Co-operation Treaty between the State of Barbados and the Republic of Guyana concerning the exercise of jurisdiction in their exclusive economic zones in the area of bilateral overlap within each of their outer limits and beyond the outer limits of the exclusive economic zones of other States (принят 2 декабря 2003 года, вступил в силу 5 мая 2004 года) // 2277 UNTS 201.

**Судебно-арбитражные дела**

12. Award of the Tribunal in the Matter of an Arbitration between Guyana and Suriname (*Arbitration between Guyana and Suriname*) // (2007) XXX United Nations Reports of International Arbitral Awards (RIAA) 1.

**Литература**

13. D Anderson and Y van Logchem, “Rights and Obligations, in Areas of Overlapping Maritime Claims” // S Jayakumar, T Koh and R Beckman (eds), *The South China Sea Disputes and the Law of the Sea* // Edward Elgar 2014.
14. International Law Association, *Report of the Sixty-Third Conference* // Warsaw 1988 // International Law Association 1988.
15. DH Anderson, “Report No 9-5(3)” // C Lathrop (ed), *International Maritime Boundaries*, Vol. VII // Brill Nijhoff 2016
16. C Whomersley, “Current Legal Developments: United Kingdom” // (2015) 30 International Journal of Marine and Coastal Law.
17. R Lagoni, “Interim Measures pending Maritime Delimitation Agreements” // (1984) 78 *American Journal of International Law*.

## DƏNİZ RAYONLARININ MÜBAHİSƏLİ HÜDUDLANDIRILMASI HAQQINDAKI DANIŞIQLARDA DÖVLƏTLƏRİN ÖHDƏLİKLƏRİ

**İ.Ə.RƏCƏBOV**

**XÜLASƏ**

Çoxlu ikitərəfli müqavilələr əsasında məqalədə 1982-ci il dəniz hüququ üzrə Birəşmiş Millətlər Təşkilatının 74 və 83-cü maddələrinə uyğun olaraq müvəqqəti praktik səciyyəli razılaşmaya gəlmək üçün səy göstərilməsinin müxtəlif şəkilləri, habelə onların həyata keçirilməsi üçün edilən səylər nəzərdən keçirilir.

**Açar sözlər:** beynəlxalq hüquq, beynəlxalq dəniz hüququ, dəniz hüququ üzrə konvensiya, Vyana konvensiyası, beynəlxalq müqavilələr, kontinental şelf, müstəsna iqtisadi zona, müvəqqəti tədbirlər.

**OBLIGATION OF STATES TO NEGOTIATE CONTROVERSIAL NON-DELIMITED MARITIME ZONES**

**I.RAJABOV**

**SUMMARY**

With reference to several bilateral treaties, the article analyzes various aspects of the obligation to make every effort to enter into provisional arrangements of a practical nature in accordance with Articles 74 and 83 of the 1982 United Nations Convention on the Law of the Sea, considers purposes, characteristics, forms and content of this obligation, as well as the temporal scope of the respective arrangements.

**Key words**: international law, international maritime law, law of the sea, Vienna Convention, international treaties, continental shelf, exclusive economic zone, provisional arrangements.

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Sosial-siyasi elmlər seriyası 2018*

UOT 343.1

# CİNAYƏT PROSESİNDƏ VƏKİL ARAŞDIRMASININ SUBYEKTİ, TƏMİNAT MEXANİZMİ, MƏQSƏD VƏ VƏZİFƏLƏRİ HAQQINDA MÜLAHİZƏLƏR

**F.Y.XƏLİLOV**
***Bakı Dövlət Universiteti***
***kh_d@mail.ru***

*Qüvvədə olan qanunvericiliyə əsasən, vəkillər göstərdikləri yüksək keyfiyyətli hüquqi yardımla əlaqədar olaraq, özlərinin müstəqil araşdırmalarını aparmaq hüququna malikdirlər. Bununla belə, həmin hüquq cinayət-prosessual hüququn nəzəriyyəsində kifayət qədər tədqiq edilməmişdir. Məqalədə cinayət prosesi elmində baxılan institutla əlaqədar olan boşluğun müəyyən hissəsinin doldurulmasına cəhd göstərilmişdir. Müəllif göstərir ki, vəkil araşdırması aparmaq hüququ yalnız müvafiq mexanizmin mövcudluğu şəraitində realizə edilə bilər. Bu mexanizm özündə ən azı həmin hüquqa cavab verən vəzifə, bu vəzifənin lazımi qaydada yerinə yetirilməməsinə görə məsuliyyət, konkret hüququn bu hüquqdan sui-istifadəni istisna edən realizə vasitələri, həmin hüququn pozulduğu hallarda onun bərpa edilməsi və müdafiə vasitələri kimi elementləri ehtiva etmiş olmalıdır. Müəllif məqalədə vəkil araşdırması aparmaq hüququnun realizə mexanizminin yuxarıda sadalanmış hər bir elementi barədə öz mülahizələrini bildirməyə çalışmışdır.*

**Açar sözlər:** cinayət prosesi, vəkillik fəaliyyəti, müstəqil araşdırma, nəzəri xarakteristika, təhlil, mülahizələr, əsaslandırma.

Vəkil araşdırması institutu müstəqillikdən sonra milli hüquq sisteminə gətirilmiş yeni ideyalardan biridir. Azərbaycan Respublikası vəkilin "müstəqil araşdırma aparmaq" hüququnu normativ qaydada birbaşa şəkildə təsbit etmiş yeganə MDB dövlətidir. Digər MDB dövlətlərində vəkilin belə hüququnun yalnız dolayısı ilə təsbitindən bəhs etmək mümkündür. Azərbaycan Respublikasının "Vəkillər və vəkillik fəaliyyəti haqqında" 28 dekabr 1999-cu il tarixli Qanunun 15-ci maddəsinin II hissəsində vəkilin müstəqil araşdırmalar aparmaq hüququ və onun bəzi vasitələri birbaşa təsbit edilmişdir. Bu ideya Azərbaycan Respublikasının 14 iyul 2000-ci il tarixində qəbul edilmiş, 1 sentyabr 2000-ci il tarixində qüvvəyə minmiş Cinayət-Prosessual Məcəlləsində (bundan sonra – CPM) 92.9.5-ci (məhkəməyədək və ya məhkəmə icraatı zamanı cinayət işinə əlavə və ya məhkəmə iclasında tədqiq edilməsi üçün sübutlar, habelə digər materiallar toplamaq və cinayət prosesini həyata keçirən orqana təqdim etmək hüququ), 92.9.9-cu (müdafiəçinin, şübhəli və ya təqsirləndirilən şəxsin mü-

dafiəsinin həyata keçirilməsi ilə əlaqədar məsələlərin aydınlaşdırılması üçün sübutların toplanması üzrə tədbirlər həyata keçirmək, bu məqsədlə cinayət təqibi xüsusi ittiham qaydasında həyata keçirildiyi halda fiziki və hüquqi şəxslərin razılığı ilə onları sorğu-suala tutmaq, habelə müqavilə əsasında ekspertin rəyini almaq və mütəxəssisin fikrini öyrənmək hüququ), 143.3-cü (Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada cinayət prosesində iştirak etmək üçün buraxılmış müdafiəçi hüquqi yardım göstərilməsi üçün sübutlar təqdim etməyə və məlumat toplamağa, o cümlədən fərdi şəxslərdən izahat almağa, həmçinin müxtəlif təşkilatlardan və birliklərdən arayış, xasiyyətnamə və digər sənədlər tələb etməyə haqlıdır) və s. maddələrində özünün cinayət prosesindəki təzahür formasını tapmışdır.

Bununla belə, vəkil araşdırması institutu cinayət-prosessual hüquqda ən az işlənilmiş problemlərdən biridir. Bu səbəbdən, cinayət-prosessual hüquqda həmin institutun nəzəri xarakteristikası ilə bağlı biliklərə obyektiv ehtiyac duyulur. Odur ki, biz, qeyd edilən ehtiyacın qismən də olsa, ödənilməsi üçün, bu məqalədə cinayət prosesində vəkil araşdırmasının subyekti, təminat mexanizmi, məqsəd və vəzifələri haqqında öz mülahizələrimizi paylaşmaq və onları əsaslandırmağa cəhd etmək istərdik.

"Vəkil araşdırması" terminindən göründüyü kimi, onun subyekti vəkildir – Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının üzvüdür. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunun 9-cu maddəsinin I hissəsinə əsasən, Vəkillər Kollegiyasının üzvü olmayan şəxslər vəkillik fəaliyyəti ilə məşğul ola bilməzlər. Deməli, həmin Qanunun 15-ci maddəsində nəzərdə tutulmuş "müstəqil araşdırma aparmaq" hüququ da Vəkillər Kollegiyasının üzvü olan şəxslərə aiddir. Bu hüquq prosessual statusundan asılı olmayaraq, bütün vəkillərə aid olduğu üçün, cinayət mühakimə icraatında müdafiəçi, nümayəndə və ya hüquqi varis qismində iştirak edən vəkillər cinayət prosesində vəkil araşdırmasının subyektləri hesab edilməlidirlər.

Vəkil köməkçiləri vəkil araşdırması həyata keçirə bilərlərmi? "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunun 8-1-ci maddəsinə görə, vəkilin köməkçisi öz fəaliyyətini vəkilin rəhbərliyi altında və onun tapşırıqlarını yerinə yetirməklə həyata keçirir. Vəkilin köməkçisi müstəqil olaraq vəkillik fəaliyyəti ilə məşğul ola bilməz.

Qanunun müddəasından göründüyü kimi, vəkilin köməkçisi vəkilə məxsus olan "müstəqil araşdırma aparmaq" hüququnun və bu hüququn tərkib hissəsi olan bir sıra digər hüquqların (məsələn, şəxslərdən izahatlar almaq, sorğular vermək və s.) bilavasitə subyekti deyildir, çünki o, vəkillik fəaliyyətinin subyekti deyildir. Vəkil köməkçisinin vəkil araşdırmasına münasibətdə rolu təşkilati və texniki məsələlərin həllində vəkilə yardımla məhdudlaşır. Məsələn, vəkil apardığı araşdırma ilə bağlı öz köməkçisinə hər hansı bir orqana ünvanlanmalı olan sorğunun mətninin hazırlanmasını tapşıra bilər, lakin həmin sorğu mütləq vəkil tərəfindən yoxlanıldıqdan sonra onun öz adından və öz imzası ilə müvafiq ünvana göndərilməlidir ki, gələcəkdə sorğuya alınan cavabdan

sübut kimi istifadə etmək mümkün olsun. Eləcə də vəkil öz köməkçisinə hadisə şahidlərini müəyyən etmək, onları vəkillə söhbətə dəvət etmək tapşırıqları verə bilər, lakin dəvət edilmiş şəxslərdən izahatlar mütləq vəkilin özü tərəfindən alınmalıdır və s.

Əcnəbi vəkillər Azərbaycan Respublikasının ərazisində vəkil araşdırması həyata keçirə bilərlərmi? "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunun əcnəbilər tərəfindən hüquqi yardımın göstərilməsi məsələlərini tənzim edən 26-cı maddəsinin müddəalarına görə, qanunun tələblərinə əsasən, Azərbaycan Respublikası ərazisində əcnəbi vəkillər tərəfindən hüquqi yardım göstərilməsi yalnız əcnəbinin mənsub olduğu dövlətin qanunları və ya beynəlxalq hüquq normalarının tətbiqinə dair verilən məsləhət və rəylərlə məhdudlaşır. Azərbaycan Respublikası ərazisində əcnəbi vəkillər mülki işlər, cinayət işləri, inzibati və iqtisadi mübahisələrə dair işlər, inzibati xətalar haqqında işlər üzrə məhkəmə icraatına Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə müvafiq olaraq qarşılıqlı münasibətlər əsasında buraxılır.

AR CPM-in 3.4-cü maddəsinə görə, xarici dövlətin cinayət-prosessual qanunvericiliyinin normalarının Azərbaycan Respublikasının ərazisində tətbiqinə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduqda və Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyinin vəzifə və prinsiplərinə zidd olmadıqda yol verilir.

Başqa sözlə, xarici dövlətin cinayət-prosessual qanunvericiliyinin normalarının Azərbaycan Respublikasının ərazisində tətbiqi konkret şərtlər daxilində, prinsipcə, yolverilən olduğu üçün icraat iştirakçısı olan və hüquqi yardıma ehtiyac duyan əcnəbinin mənsub olduğu dövlətin qanunlarının tətbiqinə dair vəkil məsləhətinə və ya rəyinə də ehtiyac duyması real görünən situasiyadır.

Bununla belə, qüvvədə olan milli qanunvericilik əcnəbi vəkillərin hüquqi yardımın göstərilməsinə dair fəaliyyətini yalnız əcnəbinin mənsub olduğu dövlətin qanunları və ya beynəlxalq hüquq normalarının tətbiqinə dair verilən məsləhət və rəylərlə məhdudlaşmışdır. Bu isə o deməkdir ki, əcnəbi vəkil Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə müvafiq olaraq Azərbaycan Respublikasında həyata keçirilən cinayət mühakimə icraatına buraxılmış olsa da, o, vəkil araşdırması, yəni sübutların toplanmasına yönəlmiş fəaliyyəti həyata keçirməkdə haqlı olmayacaqdır.

Vəkil araşdırmasından bəhs edərkən onun bir hüquq, yəni davranış imkanı olduğunu nəzərə alaraq, iki əsas məqama: bu hüququn necə təmin edilməli olması və bu hüquqdan sui-istifadənin necə istisna edilməsi məsələlərinə nəzər salmağı vacib hesab edirik.

Davranış imkanı kimi hər bir hüququn təminatı xüsusi mexanizm hesabına baş tutur. Təminat mexanizmi olmayan hüquq bəyanat xarakterli olaraq qalır və onun səmərəli realizəsi mümkün olmur. Başqa sözlə, hüququn təminat mexanizmi onun tam və səmərəli realizəsinə xidmət edir. Fikrimizcə, mərkəzində "hüquq" kateqoriyasının özünün durduğu bu təminat mexanizmini şərti olaraq, sxematik şəkildə aşağıdakı kimi təsəvvür etmək olar: "bu vəzifənin

yerinə yetirilməməsinə görə məsuliyyət ← hüquqa cavab verən vəzifə ← hüquq → hüquqdan sui-istifadəni istisna edən realizə vasitələri → bu vasitələrin qanunsuz və əsassız məhdudlaşdırıldığı hallarda hüququ bərpa-müdafiə vasitələri".

Cinayət prosesində vəkil araşdırması da cinayət mühakimə icraatında müdafiəçi, nümayəndə və ya hüquqi varis qismində iştirak edən vəkillərin hüququ olduğu üçün onun səmərəli realizəsi yalnız bu hüququn yuxarıdakı sxemə cavab verən təminat mexanizminə malik olduğu hallarda mümkündür.

Bu mənada, vəkillərin müstəqil araşdırma aparmaq hüququna həm cinayət prosesini həyata keçirən orqanların, həm də vəkillərin bu hüququn realizəsi ilə əlaqədar müraciət etdiyi idarələrin (təşkilat, müəssisə və s.) vəzifəli şəxslərinin "cavab verən" (korrespondent) vəzifələri [5] də mövcud olmalıdır ki, vəkillər həmin vəzifələrə istinadən öz araşdırmalarını apara bilsinlər. Məsələn, öz araşdırmasını aparan vəkil hər hansı bir idarəyə sorğu ilə müraciət etdikdə, həmin idarənin vəzifəli şəxsi belə sorğuya baxmaq və aidiyyəti üzrə cavablandırmaq vəzifəsi daşımazsa, vəkilin sorğu vermək hüququ öz praktiki əhəmiyyətini itirmiş olacaqdır.

Eyni zamanda, nəzərə almaq lazımdır ki, dövlət orqanının, yaxud digər idarənin (təşkilat, müəssisə və s.) vəzifəli şəxslərinin vəkilin araşdırma aparmaq hüququna korrespondent vəzifəsi özü də bəyanat xarakterli olmamalı və bu vəzifənin lazımi qaydada (vaxtında, tam həcmdə, və s.) yerinə yetirilməməsi üçün real məsuliyyət tədbiri (cəza, tənbeh və s.) nəzərdə tutulmalıdır.

Məsələ ilə bağlı diqqət yetirilməli olan digər məqam vəkil araşdırması hüququnun bu hüquqdan sui-istifadəni istisna edən realizə vasitələri, başqa sözlə, vəkil araşdırmasının prosessual vasitələri ilə bağlıdır.

Cinayət mühakimə icraatı zamanı həyata keçirilən vəkil araşdırmasının keyfiyyəti onun prosessual vasitələrinin dairəsindən, reallığından və səmərəlilik dərəcəsindən birbaşa asılıdır. Vəkil araşdırmasının prosessual vasitələri dedikdə, vəkil üçün məhz cinayət-prosessual qanunvericilikdə təsbit edilmiş və onun normaları ilə tənzim edilən sübut toplama vasitələri başa düşülür. Vəkil araşdırmasının "prosessual vasitələri" kimi bir kateqoriyadan istifadə edilməsi onun "qeyri-prosessual vasitələri"nin də mövcud olub-olmaması sualı yarada bilər. Ehtimal etmək olar ki, vəkil araşdırması zamanı tətbiq edilə biləcək əsas qeyri-prosessual vasitə qismində özəl xəfiyyələrin (detektivlərin) xidmətlərindən istifadə olunmasıdır. Lakin hazırda Azərbaycan Respublikasında detektiv fəaliyyətini tənzim edən sahəvi qanun mövcud olmadığı üçün, biz, nə vəkil araşdırmasında istifadə edilə biləcək qeyri-prosessual vasitə kimi, nə də müstəqil fəaliyyət növü kimi özəl xəfiyyələrin fəaliyyəti ilə cinayət-prosessual fəaliyyətin qarşılıqlı əlaqəsindən mövcud reallıq müstəvisində söhbət apara bilmirik. Müqayisə üçün göstərmək olar ki, Rusiyada "Özəl detektiv və mühafizə fəaliyyəti haqqında" Qanun 11 mart 1992-ci ildə, Latviyada "Detektiv fəaliyyəti haqqında" Qanun 5 iyul 2001-ci ildə, Moldovada "Özəl detektiv və mühafizə fəaliyyəti haqqında" Qanun 4 iyul 2003-cü ildə qəbul edilmişdir.

Bundan başqa, Ukrayna, Qazaxıstan və s. bu kimi dövlətlərdə hazırda özəl detektiv fəaliyyətinin tənzimlənməsinə yönəlmiş sahəvi qanunların layihələri üzərində fəal iş getməkdədir.

Hesab edirik ki, ədalətli məhkəmə araşdırması hüququndan irəli gələn *equality of arms* ideyası, yəni tərəflərin hüquqi imkanlarının bərabərliyi haqqında ideya vəkil araşdırması vasitələrinin sistemini və prosessual formasını müəyyən edən əsas amil kimi nəzərdən keçirilməlidir.

Cinayət prosesində ittiham və müdafiə tərəflərinin, eləcə də ittiham tərəfinə aid olan dövlət orqanları və dövlət orqanı olmayan proses iştirakçılarının hüquqi imkanlarının bərabərliyindən danışarkən müəyyən şərtlilik amilini unutmaq olmaz.

Xüsusilə sübutetmə fəaliyyətində ittiham tərəfindən çıxış edən dövlət orqanlarının hüquqi imkanları ilə (dövlət məcburiyyəti elementi) müdafiə tərəfinin hüquqi imkanlarını eyniləşdirmək mümkün deyil.

Bu o deməkdir ki, cinayət prosesində dövlət orqanları timsalında ittiham tərəfinin və müdafiə tərəfinin malik olduqları sübutetmə vasitələri prosessual formasına görə bir-birindən fərqlənə bilər, hətta fərqlənməlidir, çünki dövlət hüquq-mühafizə funksiyasının subyekti olduğu üçün həll etməli olduğu vəzifələrin öhdəsindən gəlmək üçün dövlətin məcburetmə gücünə əsaslanan prosessual vasitələrdən də istifadə etməyə qadir olmalıdır.

Lakin hüquqi imkanların bərabərliyi ideyası tərəflərin sübutetmə vasitələrinin dərketmə formalarında (qnoseologiya baxımından) hər hansı qeyri-bərabərliyə yol verilməsini istisna edir.

Məsələn, araşdırma predmeti olan cinayət hadisəsi barədə verbal yolla məlumatların alınması vasitəsilə hadisənin ayrı-ayrı hallarının dərk edilməsi imkanı müstəntiq üçün dindirmə istintaq hərəkətinin aparılması (CPM, 85.4.2-ci maddəsi) hüququ, müdafiəçi üçün isə şəxslərdən izahatların alınması (CPM, 143.3-cü maddəsi) prosessual hərəkətinin aparılması hüququ ilə təmin edilir.

Göründüyü kimi, dindirmə və şəxslərdən izahat alma hərəkətlərinin prosessual formaları ciddi fərqlənsə də, qanunvericilik onların dərketmə üsullarını – verbal şəkildə verilən məlumatın qavranılması yolu ilə hadisə barədə biliklər əldə etmək imkanını bərabərləşdirmişdir.

Tərəflərin hüquqi imkanlarının bərabərliyi baxımından bu müddəa, əslində, vəkil araşdırmasının digər realizə vasitələrinə də şamil edilə bilər. Məsələn, cinayət prosesində xüsusi biliklərdən istifadə edilməsi məhz belə vasitələrdən biridir. İttiham tərəfindən çıxış edən dövlət orqanları üçün xüsusi biliklərdən istifadə etməklə cinayət hadisəsinin ayrı-ayrı hallarının dərk edilməsi və sübut edilməsi imkanı işə mütəxəssisin cəlb edilməsi və ekspertizanın təyin edilməsi kimi prosessual hərəkətlərlə təmin edilir. Ədalət naminə qeyd etmək lazımdır ki, formal olaraq, eyni imkan qarşı tərəfə – müdafiə tərəfinə də verilmişdir. Sadəcə olaraq, müdafiə tərəfinin xüsusi biliklərdən istifadə imkanlarının hüquqi tənzimlənməsi sahəsində mövcud olan əhəmiyyətli boşluqlar bu imkanları deklarativ olaraq saxlamışdır.

Vəkil araşdırması hüququndan sui-istifadənin istisna edilməsi, yaxud sui-istifadənin qarşısının alınması məsələsinə gəlincə, qeyd edilməlidir ki, hər bir hüquq kimi, o da müəyyən hədlərə malik olmalıdır.

Bu hüququn müəyyən hədlər çərçivəsində həyata keçirilməsi vəkilin yalnız iş üzrə hüquqi yardımın göstərilməsi üçün zəruri olan halları araşdırması üçün şərait yaratmaqla, onun işə aid olmayan hallara "çıxışını" məhdudlaşdırır və bununla, hüquqdan sui-istifadə yolu ilə ayrı-ayrı şəxslər, faktlar, hadisələr və s. barəsində "tələb olunandan çox" məlumat toplamasının qarşısını alır.

Vəkil araşdırmasının hədləri, hər şeydən əvvəl, cinayət prosesində iştirak edən vəkilin prosessual funksiyasından asılı olaraq göstərilən hüquqi yardımın məqsədləri və həcmi ilə şərtlənir. Bu institut sübutetmə fəaliyyəti ilə əlaqədar olduğu üçün onun hədləri, barəsində sübutların toplanmasına yol verilən halların dairəsi ilə müəyyən edilir.

Barəsində sübutların toplanmasına yol verilən (cinayət təqibi orqanlarına münasibətdə isə, barəsində sübutların toplanması tələb edilən) hallar cinayət prosesində sübutetmə predmetini təşkil edir.

Sübutetmə predmeti iş üzrə sübut edilməli olan halların dairəsini müəyyən edən kateqoriya olub, ümumi, xüsusi və konkret növlərə təsnif edilir. Ümumi sübutetmə predmeti CPM-in 139-cu maddəsində sadalanan hallardan, konkret sübutetmə predmeti CM-in Xüsusi hissəsinin cinayət təqibinə məruz qalan şəxsə istinad edilən maddəsinin dispozisiyasında sadalanan hallardan ibarətdir. Xüsusi sübutetmə predmeti isə yalnız bəzi kateqoriyalı şəxslər, yaxud bəzi xüsusi icraatlar zamanı müəyyən edilməli olan halların dairəsini müəyyən edir. Xüsusi sübutetmə predmetinin özünün də aşağıdakı növləri fərqlənir: yetkinlik yaşına çatmayanların işləri üzrə xüsusi sübutetmə predmeti (CPM-in 429-cu maddəsi); anlaqsız vəziyyətdə cinayət törətmiş şəxslər barəsində icraat zamanı xüsusi sübutetmə predmeti (CPM-in 470-ci maddəsi); narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraat zamanı xüsusi sübutetmə predmeti (CPM-in 467-3-cü maddəsi); hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat zamanı xüsusi sübutetmə predmeti (CPM-in 487-4-cü maddəsi).

Ümumi sübutetmə predmeti bütün işlər üzrə müəyyən edilməli olan halları əhatə etdiyi üçün istənilən iş üzrə öz araşdırmasını aparan vəkil CPM-in 139-cu maddəsində sadalanan hallardan hər hansı biri, yaxud bir neçəsinə aid olan sübutlar toplamaqda haqlıdır. Konkret sübutetmə predmeti araşdırma aparan vəkilin məhz hansı cinayət əməlinin hallarını təsdiq, yaxud təkzib edən sübutlar toplaya biləcəyini müəyyən edir. Xüsusi sübutetmə predmetinə aid olan hallar isə, artıq qeyd edildiyi kimi, yalnız bəzi kateqoriyalı şəxslər, yaxud bəzi xüsusi icraatlar zamanı öz araşdırmasını aparan vəkilin barəsində sübut toplaya biləcəyi halların dairəsini müəyyən edir.

Sübutetmə predmeti, mahiyyətcə, vəkil araşdırmasının həm şəxslərə, həm də faktlara münasibətdə hədlərini müəyyən edir. Vəkil araşdırmasının şəxslərə münasibətdə hədləri "kimlərə aid hallar barədə sübutlar toplana bilər?" sualına,

faktlara münasibətdə hədləri isə "nələrə aid hallar barədə sübutlar toplana bilər?" sualına cavab verir.

Sübutetmə predmetindən kənarda qalan hər hansı bir halın vəkil araşdırması yolu ilə müəyyən edilməsi yolverilləndirmi? Hesab edirik ki, qoyulan sualla bağlı iki müstəsna hal göstərmək olar: subyektin cinayət prosesində iştirakının istisna edilməsi ilə bağlı etirazın əsaslandırılması; sübutun mötəbərliyinin mübahisələndirilməsi.

Qanunvericiliyin sübutetmə predmetinə dair normalarının təhlili belə qənaətə gəlməyə əsas verir ki, vəkil araşdırmasının şəxslərə münasibətdə sübutetmə predmetindən irəli gələn hədləri cinayət təqibinə məruz qalan və cinayətdən zərər çəkmiş şəxsə (konkret hallarda mülki iddiaçı və mülki cavabdehə) aid hallarla məhdudlaşır.

Bununla belə, bəzən elə situasiyalar yaranır ki, cinayət mühakimə icraatının qərəzsiz şəkildə həyata keçirilə bilməsi üçün icraatı aparan şəxslərin özlərinə aid olan faktlara hüquqi qiymət verilməli olur – məsələn, hakimə və s. etiraz edilir və bu etirazın həlli zamanı hakimin şəxsi münasibətləri, fəaliyyəti və s. haqqında hallar dəyərləndirilir.

CPM-in 107.1-ci maddəsinə əsasən, cinayət prosesində müvafiq şəxslərin iştirakına etirazlar əsaslandırılmaqla yazılı formada edilir.

Göründüyü kimi, əgər prosesdə iştirak edən vəkil, məsələn, hakimə etiraz etmək qərarına gələrsə, o, öz etirazını əsaslandırmalı və bunun üçün konkret faktlara (məsələn, hakimin leqal kateqoriyalarla əhatə olunmayan qohumluq münasibətlərinə – qudalıq, övladının nişanlılığı və s.), hətta bəzən müəyyən sənədlərə (məsələn, müqavilə, etibarnamə) və s. istinad etməli olacaqdır.

Deməli, etirazın əsaslı edilə bilməsi üçün vəkildə etirazın məzmununda istinad olunacaq faktlar və s. barədə mötəbər məlumatlar olmalıdır. Dolayısı ilə vəkil belə faktlar barədə məlumat toplamış olmalıdır ki, sonradan onlara istinad edə bilsin.

Bu anlamda, hesab edirik ki, subyektin cinayət prosesində iştirakının istisna edilməsilə bağlı etirazın əsaslandırılması üçün onun barəsində şəxsi həyatın toxunulmazlığını pozmayan, şərəf və ləyaqəti ləkələməyən, onu nüfuzdan salmayan, rüsvayedici xarakter daşımayan və ən əsası, məzmununa görə, subyektin cinayət prosesində iştirakının mümkünsüzlüyünə dəlalət edən məlumatların toplanması yolverilləndir və vəkil araşdırmasının qanuni hüdudlarını pozmur.

Fikrimizcə, sübutun mötəbərliyinin mübahisələndirilməsi hallarında da iş üzrə ifadə vermiş şahid və ya rəy vermiş ekspert barəsində onların təqdim etdikləri sübutların mötəbərliyinə dair şübhə yarada biləcək hallara (məsələn, şahidin psixiatrik dispanserdə qeydiyyatda olması, ekspertin rəy verdiyi sahə üzrə kifayət qədər ixtisaslı olmaması və s.) dəlalət edən məlumatların vəkil tərəfindən toplanması və cinayət prosesini həyata keçirən orqana təqdim etməsi vəkil araşdırmasının qanuni hüdudları çərçivəsində həyata keçirilən fəaliyyət kimi qiymətləndirilməlidir.

Vəkil araşdırmasının hədləri ilə yanaşı, Azərbaycan Respublikasının 30

dekabr 1999-cu ildə qəbul edilmiş, 1 sentyabr 2000-ci ildə qüvvəyə minmiş Cinayət Məcəlləsində mövcud olan 294.2-ci və 294.3-cü maddələr də cinayət prosesində vəkil araşdırması hüququndan sui-istifadənin qarşısını almaq iqtidarında olan hüquqi vasitə kimi nəzərdən keçirilə bilər. Həmin maddələr "sübutları saxtalaşdırma" cinayətinin digər subyektləri ilə yanaşı müdafiəçini də bu cinayətin subyekti kimi nəzərdə tutur və pozitiv məsuliyyət müəyyən etməklə, öz araşdırmasını aparan vəkillər tərəfindən sübutların formalaşdırılması zamanı onları təhrif etməkdən və s. formada saxtalaşdırmaqdan çəkindirir.

Vəkil araşdırmasının konseptual xarakteristikasının tərkib hissəsi kimi onun məqsəd və vəzifələrinə də diqqət yetirməyi məqsədəuyğun hesab edirik. Vəkil araşdırmasının məqsədi ən geniş mənada, müvəkkilə hüquqi yardımın göstərilməsidir. Bu fikri nisbətən konkretləşdirsək, belə bir tezis formulə etmək olar ki, vəkil araşdırmasının məqsədləri konkret halda cinayət prosesində iştirak edən vəkilin statusundan asılı olaraq (müdafiəçi, nümayəndə, hüquqi varis) yerinə yetirdiyi funksiyadan irəli gələn məqsədlərlə üst-üstə düşür. Məsələn, əgər söhbət müdafiəçi-vəkildən gedərsə və onun müdafiə funksiyası həyata keçirərkən məqsədi ittihamın tamamilə təkzib edilməsindən ibarət olarsa, həmin vəkilin həyata keçirəcəyi araşdırma da məhz bu məqsədə xidmət edəcəkdir.

Vəkil araşdırmasının vəzifələrinə də geniş və dar mənalarda baxmaq mümkündür. Belə ki, geniş mənada vəkil araşdırması vəkilin cinayət-prosessual fəaliyyətinin bir hissəsi olduğu üçün onun vəzifələrinə, vəkilin də fəaliyyətini özündə ehtiva edən cinayət mühakimə icraatının ümumi vəzifələri sistemində baxmaq olar.

Belə ki, CPM-in 8-ci maddəsində cinayət mühakimə icraatının cinayət təqibi ilə bağlı bütün halları hərtərəfli, tam və obyektiv araşdırmaq, cinayət törətmiş şəxsləri ifşa və cinayət məsuliyyətinə cəlb etmək, təqsirsiz şəxslərə bəraət vermək məqsədilə ədalət mühakiməsini həyata keçirmək kimi vəzifələri nəzərdə tutulmuşdur. Aşkardır ki, cinayət prosesini həyata keçirən orqanlarla yanaşı, əlavə və bəzi hallarda alternativ sübut bazasının toplanmasını təmin edən vəkil araşdırması institutu cinayət mühakimə icraatının qeyd edilən vəzifələrinin həllində mühüm rol oynaya bilər.

Nisbətən dar mənada isə vəkil araşdırmasının vəzifələri qarşıya qoyulmuş konkret məqsədə nail olmaq üçün həll edilməli olan məsələlərin sistemi kimi başa düşülə bilər. Məsələn, vəkil araşdırması aparmaqda məqsəd ittihamın tam təkzib edilməsindən ibarətdirsə, bu zaman həll edilməli olan vəzifələrə bəraətverici sübutların aşkar edilməsi, ittiham sübutlarını inkar edən, yaxud onlara dair ağlabatan şübhə yaradan halların müəyyən edilməsi, şəxsin təqsirsizliyinə dəlalət edən, yaxud alibisini təsdiq edən alternativ sübutların toplanılmasını, onların cinayət prosesini həyata keçirən orqana təqdim edilməsini aid etmək olar.

Vəkil araşdırması qarşısında obyektiv həqiqətin müəyyən edilməsi vəzifəsi durumu? Müasir dövrdə "həqiqət prinsipi"nin cinayət mühakimə icraatının prinsipləri sisteminə aid olub-olmamasına dair mübahisəyə [4, 111-120;

7, 37-41; 8, 360-365] yer ayırmadan, qeyd etmək istərdik ki, biz, cinayət mühakimə icraatında həqiqətin müəyyən edilməli olması haqqında ideyanı cinayət prosesinin prinsipi hesab edən müəlliflərlə razılaşırıq: "Azərbaycan Respublikasının qüvvədə olan cinayət-prosessual qanunvericiliyində həqiqətin müəyyən edilməsi, birbaşa şəkildə həm prinsip, həm də vəzifə kimi təsbit edilmişdir ki, bu da bizə onun cinayət-prosessual hüququn institutlarının hüquqi tənzimlənməsinə təsir göstərdiyini iddia etməyə imkan verir" [2, 163-169].

F.M.Abbasova haqlı olaraq, qeyd edir ki, obyektiv həqiqətin müəyyən edilməsi tələbi CPM-in 28-ci maddəsindən, yəni cinayət mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi prinsipindən irəli gəlsə də (fikrimizcə, CPM-in cinayət mühakimə icraatının obyektivliyinə dair tələb nəzərdə tutan maddələrinə həm də 8.0.3-cü, 49.4.4-cü, 50.1-ci, 53.4-cü, 84.5.3-cü, 85.2.1-ci, 86.2.1-ci və 85.6.3-cü maddələri aid etmək lazımdır – F.Y. Xəlilov), bu tələb heç də prosesin bütün iştirakçılarına yönəlmir [1, 78].

Azərbaycan Respublikasının Konstitusiyasının 125-ci maddəsinin VII hissəsi məhkəmə icraatından (dolayısı ilə məhkəmədən) həqiqətin müəyyən edilməsini tələb edir, CPM-in 84.5.3, 85.2.1, 85.6.2 və 86.2.1-ci maddələri isə belə deməyə əsas verir ki, cinayət mühakimə icraatının məhkəməyədək mərhələsində ittiham tərəfinin dövlət orqanı olan subyektləri (təhqiqatçı, müstəntiq və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror) də cinayət mühakimə icraatının obyektivliyinin təmin edilməsi üçün məsuliyyət daşıyırlar. Bununla belə, məhkəmədən və ittiham tərəfinin dövlət orqanı olan subyektlərindən fərqli olaraq, müdafiə tərəfi subyektlərindən, o cümlədən, vəkil araşdırması aparan müdafiəçidən, yaxud cinayət prosesində nümayəndə qismində iştirak edən vəkildən cinayət mühakimə icraatının obyektivliyinin təminatı istiqamətində prosessual fəaliyyətin göstərilməsini gözləmək bir o qədər də real, onlardan bu istiqamətdə fəaliyyət göstərmələrini tələb etmək, ümumiyyətlə, mümkün deyildir.

Nəzərə almaq lazımdır ki, müdafiə tərəfi subyektləri, eləcə də ittiham tərəfinin dövlət orqanı olmayan subyektləri (zərər çəkmiş şəxs, mülki iddiaçı) ictimai maraqları deyil, şəxsi maraqları müdafiə edirlər və bu maraqların müdafiə edilməsi, heç də həmişə həqiqətin müəyyən edilməsini tələb etmir.

Əgər konkret iş üzrə hər hansı cinayətin törədilməsində şübhəli bilinən şəxs reallıqda həmin cinayəti törətmiş şəxs olarsa, şübhəsizdir ki, müdafiə tərəfi üçün əsl həqiqətin müəyyən edilməsi maraqlı olmayacaqdır, əksinə, belə halda müdafiə tərəfi üçün əsl həqiqətin müəyyən edilməməsi daha sərfəli olacaqdır.

Lakin bu, heç də o demək deyildir ki, obyektiv həqiqətin müəyyən edilməməsi müdafiə tərəfi üçün həmişə daha arzuediləndir. Belə ki, hansısa bir cinayətdə şübhəli bilinən, yaxud ittiham olunan şəxs reallıqda heç bir cinayət törətməmiş olarsa və əsl həqiqət həmin şəxsin təqsirsiz olmasından ibarət olarsa, bu halda həqiqətin müəyyən edilməsində ən maraqlı tərəf məhz müdafiə tərəfi olacaqdır.

Bu onu göstərir ki, cinayət mühakimə icraatında obyektiv həqiqətin

müəyyən edilməsində müdafiə tərəfi subyektlərinin və ittiham tərəfinin dövlət orqanı olmayan subyektlərinin, eləcə də onların maraqlarının təminatı naminə vəkil araşdırması aparan müdafiəçi və nümayəndələrin roluna birtərəfli yanaşma mümkün deyil və bu zaman müxtəlif amillər nəzərə alınmalıdır.

Belə ki, ilk növbədə, nəzərə alınmalıdır ki, təqsirsizlik prezumpsiyasından irəli gələn sübutetmə vəzifəsinin (*onus probandi*) müdafiə tərəfinin üzərinə qoyulmasının yolverilməzliyinə dair qaydaya müvafiq olaraq, müdafiə tərəfinin subyektləri üzərinə obyektiv həqiqətin müəyyən edilməsi vəzifəsinin də qoyulması yolverilməzdir. Bu anlamda, obyektiv həqiqətin müəyyən edilməsi, həqiqətin müəyyən edilməsinə fəal yardım göstərmək, özünü ifşa etmək və s. bu kimi vəzifələrin müdafiə tərəfi subyektlərinin üzərinə qoyulması təqsirsizlik prezumpsiyası ilə ziddiyyət təşkil edir.

Bununla belə, müdafiə tərəfi subyektləri obyektiv həqiqətin müəyyən edilməsində maraqlı olarlarsa, onlar həqiqətin müəyyən edilməsində fəal şəkildə iştirak etmək imkanlarına malik olmalıdırlar. Bu anlamda, vəkil araşdırması obyektiv həqiqətin müəyyən edilməsinə əhəmiyyətli dərəcədə yardım edə biləcək bir vasitə kimi nəzərdən keçirilə bilər.

Nəhayət, müdafiə tərəfinin fəaliyyəti obyektiv həqiqətin müəyyən edilməsi vəzifəsi üzərində qurulmasa da, müdafiə tərəfi subyektləri obyektiv həqiqətin müəyyən edilməsinə mane olmamaq vəzifəsi daşıyırlar. Qeyd edilən vəzifə müvafiq məsuliyyət formaları ilə təmin edilir. Belə ki, müdafiə tərəfi subyektlərinin obyektiv həqiqətin müəyyən edilməsinə mane olmaq məqsədilə etdiyi hərəkət və hərəkətsizliklər nəticələrinin hüquqi əhəmiyyətindən asılı olaraq cinayət (məsələn, müdafiəçi tərəfindən sübutlar saxtalaşdırılarsa və s.) və ya cinayət-prosessual məsuliyyətə (məsələn, təqsirləndirilən şəxs istintaqdan və ya məhkəmədən gizlənərsə və s.) səbəb ola bilər. Başqa sözlə, müdafiə tərəfinin həqiqəti sübut etmək vəzifəsi daşımaması, onu həqiqətin müəyyən edilməsinə mane olmamaq vəzifəsindən azad etmir [3, 30-35, 38; 6, 135-136].

Bu anlamda, müdafiə tərəfi subyektləri, o cümlədən, vəkil araşdırması aparan müdafiəçi bilavasitə obyektiv həqiqəti müəyyən etmək vəzifəsi daşımasalar da, özlərinin obyektiv həqiqətin müəyyən edilməsinə mane olmamaq vəzifəsini layiqincə yerinə yetirdikləri zaman dolayısı ilə obyektiv həqiqətin müəyyən edilməsi üçün əlverişli şərait yaratmış olurlar.

Belə nəticə çıxarmaq olar ki, qüvvədə olan cinayət-prosessual qanunvericilikdə vəkil araşdırmasının aparılmasına yol verilməklə, müdafiə tərəfi subyektlərinin obyektiv həqiqətin müəyyən edilməsində maraqlı olduğu hallarda, onlara həqiqətin müəyyən edilməsində fəal şəkildə iştirak etmək imkanları verilmişdir. Deməli, müdafiə tərəfi subyektləri, o cümlədən, vəkil araşdırması aparan müdafiəçilər, yalnız öz mülahizələrinə əsasən cinayət mühakimə icraatının obyektivliyinin təminatı istiqamətində fəaliyyət göstərə bilərlər. Fikrimizcə, eyni fikirləri müəyyən qədər xüsusi ittihamlı işlər istisna olmaqla, ittiham tərəfinin dövlət orqanı olmayan subyektlərinə və onların maraqları naminə vəkil araşdırması aparan nümayəndələrin də fəaliyyətinə şamil etmək mümkündür.

## ƏDƏBİYYAT

1. Abbasova F.M. Çəkişmə prinsipi: inkişaf tarixi, müasir problemləri və onların həlli yolları. Bakı: Qanun, 2008, 248 s.
2. Əzimov Z.N. Həqiqət Azərbaycan Respublikasının cinayət prosesinin institutlarına müəyyənedici təsir göstərən konstitusion prinsip kimi // Dövlət idarəçiliyi, 2015, № 3(51), s. 163-169.
3. Бабаева Э.У. Современные проблемы криминалистической теории преодоления противодействия уголовному преследованию. М., 2002, 132 с.
4. Воскресенский Ф.А. Отказ от установления объективной истины как принцип уголовного процесса // Закон, 2015, № 1, с. 111-120.
5. Золотых А.П. Конституционное право человека на жизнь и корреспондирующие ему обязанности государства. Дисс. … к.ю.н. Тюмень, 2008, 189 с.
6. Крапчатова И.Н. Ответственность за преступления, противодействующие осуществлению правосудия и производству предварительного расследования / Развитие законодательства на современном этапе. Материалы VIII Международной научной конференции. Москва, 17 апреля 2008 г., с. 134-138.
7. Тулянский Д.В. Принципы всесторонности, полноты и объективности в качестве средств установления истины в ходе уголовного судопроизводства необходимо восстановить // Следователь, 2013, № 9 (185), с. 37-41.
8. Юровский С.А. Установление объективной истины: принцип современного российского уголовно-процессуального права, или цель присущая российскому уголовному процессу? / Правовая защита частных и публичных интересов. Сборник статей международной научно-практической конференции студентов и молодых ученых, посвященной памяти выдающегося российского адвоката Ф.Н. Плевако (1842-1908), Челябинск, 19-20 апреля 2013 г., с. 360-365.


## СУЖДЕНИЯ О СУБЪЕКТЕ, МЕХАНИЗМЕ ОБЕСПЕЧЕНИЯ, ЦЕЛИ И ЗАДАЧАХ АДВОКАТСКОГО РАССЛЕДОВАНИЯ В УГОЛОВНОМ ПРОЦЕССЕ

**Ф.Я.ХАЛИЛОВ**

### РЕЗЮМЕ

Согласно действующему законодательству, адвокаты имеют право осуществлять свое самостоятельное расследование в связи с оказанием высококвалифицированной юридической помощи. Вместе с тем данное право не было достаточно исследовано в теории уголовно-процессуального права. В статье предпринята попытка восполнить часть пробела в науке уголовного процесса относительно рассматриваемого института. Автор утверждает, что право на адвокатское расследование может быть реализовано только в условиях существования соответствующего механизма, который должен включать в себя как минимум такие элементы как корреспондирующая обязанность данному праву, ответственность за неподлежащее выполнение данной обязанности, средства реализации конкретного права, исключающие возможности злоупотребления правом, и средства восстановления и защиты данного права в случаях нарушения последнего. Далее автор пытается изложить свои суждения относительно каждого из вышеперечисленных элементов механизма реализации права на адвокатское расследование.

**Ключевые слова:** уголовный процесс, адвокатская деятельность, самостоятельное расследование, анализ, суждения, обоснование.

## JUDGMENTS OF THE SUBJECT, MECHANISM OF PROVIDING, PURPOSE AND PROBLEMS OF LAWYER INVESTIGATION IN CRIMINAL PROCEEDINGS

**F.Y.KHALILOV**

**SUMMARY**

According to the current legislation, lawyers have the right to conduct the independent investigation, in connection with rendering highly skilled legal aid. At the same time, this right was not thoroughly investigated in the theory of law of criminal procedure. The article makes an attempt to fill a part of a gap in the science of criminal proceedings concerning the considered institute. The author claims that the right for lawyer investigation can be exercised only in living conditions of the corresponding mechanism which has to include at least such elements as, the corresponding duty to this right, responsibility for unliable performance of this duty, implementers of the concrete right excluding possibilities of abuse of the right, and means of restoration and protection of the granted right in cases of violation of the last. Further, the author tries to state the judgments concerning each of the above-mentioned elements of the mechanism of realization of the right for lawyer investigation.

**Keywords:** criminal proceedings, lawyer activity, independent investigation, analysis, judgments, justification.

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Sosial-siyasi elmlər seriyası 2018*

UOT 343.1

# TRANSMİLLİ VƏ MİLLİ CİNAYƏTKARLIĞIN QLOBALLAŞMASI VAHİD BEYNƏLXALQ CİNAYƏT PROSESSUAL FƏALİYYƏTİN FORMALAŞMASININ ƏSAS ŞƏRTİ KİMİ

**R.H.RÜSTƏMOV**
***Bakı Dövlət Universiteti***
***rauf.rust@gmail.com***

*Məqalədə qloballaşma proseslərinin beynəlxalq və milli cinayət siyasətinin inkişafına və təkminləşməsinə təsiri problemləri tədqiq edilmişdir. Qloballaşma obyektiv, lakin xalqlar və dövlətlər arasında idarə olunan sıx və azad əməkdaşlıq mexanizmlərinin fomalaşması prosesi kimi qiymətləndirilərək, həmin mexanizmlərin eyniləşdirilməsi, əməkdaşlığın isə daha da effektiv səviyyəyə qaldırılması yolları təklif edilir. Məqalədə qeyd edilir ki, bu məqsədlə milli və beynəlxalq hüquq normalarının və prosedurlarının eyniləşdirilməsi, bəzi prosedurların sadələşdirilməsi, yeni beynəlxalq cinayət ədliyyəsi orqanlarının yaradılması qloballaşan milli və transmilli cinayətkarlıqla mübarizədə müsbət rol oynaya bilər.*

**Açar sözlər:** cinayət siyasəti, hüququn qloballaşması, formalaşma, cinayətkarlığın globallaşması, transmilli cinayətkarlıq.

Tədqiqatın aktuallığı ondan ibarətdir ki, Azərbaycan Respublikasının müasir hüquq elmində bir tərəfdən cinayət siyasəti, digər tərəfdən hüququn qloballaşması artıq sabit prosesə çevrilmişdir. Bu həm də onunla müəyyən edilir ki, hüququn dialektikasının müşahidələrində əldə olunan nəticələrin həcmi xeyli genişlənmiş, yeni uğurlar qazanılmışdır. Bununla yanaşı qeyd edilən fenomenlər: dialektik cinayət siyasəti, hüququn qloballaşması və əlaqəli proseslər hələ də yeni olaraq qalmaqdadırlar və inkişaf etməkdədirlər, bu səbəbdən də idrakın obyekti kimi diqqət obyektləri qismində təzahür edilirlər. Əgər buna cinayət siyasətinin formalaşması və inkişafının mövcud qanunauyğunluqları kontekstində baxılarsa, onun xüsusi əhəmiyyət kəsb etməsinin şahidi olarıq. Çünki cinayət siyasəti və hüququn qloballaşması prossesləri bir-birini tamamlayır, qarşılıqlı və müxtəlif təsir obyektlərinə çevirirlər.

Buna görə də hüquq ədəbiyyatına qeyd edilən belə mülahizə ilə biz də razılaşırıq ki, problemin özünün qoyuluşu və diqqətimizin qloballaşma şəraitində cinayət siyasətinin qanunauyğunluqları üzərində cəmləşdirilməsi aktuallıq kəsb edir və müasir elmi-tədqiqatların perspektivləri qismində təsəvvür olunur [9, 86].

Nəzərə almaq zəruridir ki, beynəlxalq cinayətkarlıq üçüncü minilliyin başlanğıcında dünyanın müxtəlif regionlarında cəmiyyətin normal inkişafına mane olan və ümumbəşəri təhlükəsizlik üçün qlobal təhlükə yaradan əsas amillərdən biridir. Bununla əlaqədar olaraq cinayət ədliyyəsi sahəsində müxtəlif ölkələr arasında beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi nəinki arzu olunandır, hətta zəruri və son dərəcə labüddür. Bu cəhətdən problemin beynəlxalq müqayisədə həlli ilə bağlı dövlətlərin səylərini birləşdirmələri, müsbət beynəlxalq və milli təcrübədən istifadə olunması, eləcə də qarşılıqlı təcrübə mübadilələrinin daha da genişləndirilməsi vacibdir və getdikcə aktuallaşır.

Bir cəhəti də göstərmək vacibdir ki, cinayətkarlıq artıq çoxdandır ki, milli çərçivədən, müəyyən dövlətin sərhədlərindən uzaqlara cıxmışdır. Əgər terror aktları və yeni transmilli cinayətləri, həmin cinayətlərin bəzi ölkələrin dövlət siyasətinə çevrilməsini və onlar tərəfindən dəstəklənməsini də buna əlavə etsək, vəziyyətin son dərəcə mürəkkəb olduğunu aydın, bütün çılpaqlığı ilə görmək olar. Hüquq ədəbiyyatında düzgün olaraq qeyd edilir ki, cinayətkarlıq tarixən və sosial baxımdan həmişə dəyişkən təbiətə və xarakterə malik məkanından asılı olmayaraq cinayət-hüquq hadisə olmuşdur. Bu fikir milli və beynəlxalq səviyyədə qəbul olunmaqdadır [1, 3]. O, getdikcə daha təhlükəli və qlobal xarakter alır, texnoloji cəhətdən daima təkminləşən, mütəşəkkil bir ictimai bəlaya çevrilir. Kriminal qruplaşmalar müasir beynəlxalq kommunikasiya vasitələrindən, ən irəliləmiş rabitə üsullarından və nəqliyyat imkanlarından məharətlə istifadə edir, üstəlik də beynəlxalq miqyasda kriminogen vəziyyəti bir qədər də ağırlaşdırır. Məsələn, bir ölkənin ərazisində cinayət törətmək istəyən dəstələr başqa bir ölkənin ərazisində gizlənir. Bununla onlar da ədalət mühakiməsindən boyun qaçıra bilirlər [4, 3]. Fikrimizcə belə vəziyyət yurisdiksiya arası hüquq pozuntularının sayının artması ilə daha da mürəkkəbləşir. Nəticədə cinayətkarlıqla mübarizədə hüquqi tənzimetmənin müxtəlif metodların və mövcud ənənələrinin hərəkətə gətirilməsi lazım gəlir [5, 3, 4].

Qloballaşan, transmilli cinayətkarlığın təkminləşməsi və genişlənməsi şəraitində cinayət ədliyyəsinin bütün sistemi bir sıra yeni mürəkkəbliklərlə üzləşir, bəzi məqamlarda, hətta ziddiyyətlərlə toqquşur. Bu mənada Ryan Mitchellin fikirləri ilə razılaşaraq, dövlətlərarası, milli və beynəlxalq maraqların toqquşması, milli və beynəlxalq qanunvericiliкə ziddiyətləri və s. sıralıya bilərik [10, 445, 464, 469]. Beynəlxalq cinayətkarlıq özünəməxsus mobilliyə malikdir və o, bir çox hallarda aşkar olunmaqdan asanlıqla yayına bilir. Cinayətkarlar isə həbsdən, haqlı cəzadan yaxa qurtarmaq üçün beynəlxalq sərhədlərdən məharətlə istifadə etməyə cəhd göstərirlər və ədalətli məsuliyyətdən bəzən müvəffəqiyyətlə boyun qaçırmağa çalışırlar.

İstənilən ayrıca dövlətin belə yeni təhlükələrlə səmərəli mübarizəsində nəzərə çarpan səyləri dərhal özünü göstərir. Lakin bir sıra ölkələrin hüquq mühafizə orqanları mürəkkəb kriminogen şəraitlərlə məşğul olmağa səy etmir, transmilli təhqiqatlar aparılmır və ümumiyyətlə, cinayət təqibi ilə məşğul olmaqdan yayınırlar. Hətta, demək olar ki, transmilli cinayətkarlığa dəstək verir-

lər. Belə ki, 2015-ciilədək Kolumbiya, cari zamanda Venesuela və başqa ölkələri sadalamaq olar [2, 29, 37]. Göstərmək zəruridir ki, cinayət ədliyyəsi sahəsində nisbi zəif potensiala malik ölkələr üçün meydana çıxan yeni mürəkkəbliklər qarşısıalınmaz hala gətirib çıxara bilər və bilir. Cinayətkarlıqla mübarizədə cinayət ədliyyəsi aşağı potensiala malik olan dövlətlərin bu zəifliyi tədricən beynəlxalq müqayisədə cinayətkarlıqla mübarizənin effektivliyini xeyli zəiflədir. Belə ölkə kimi biz əminliklə Ermənistanı, Əfqanıstanı, Suriyanı və digər ölkələri daxil edə bilərik. Beynəlxalq əməkdaşlığın məsələləri ilə əlaqədar hələ BMT-nin Narkotik Maddələr və Transmilli Cinayətkarlıqla Mübarizə Offisinin 2010-cu il hesabatında bildirilir ki, hazırda bu sahədə milli səviyyədə mübarizə effektli deyil, beynəlxalq birlik cinayət işləri üzrə əməkdaşlığı vacib hesab edir [11, 272, 276]. Biz bura təxirəsalınmaz ifadəsini də əlavə etməyi tövsiyə edirik. Bu da öz növbəsində yeni beynəlxalq standartlara əməl olunmasını tələb etmək məqsədilə milli ədliyyələrin sıx əməkdaşlığını, kompleks prossesual islahatlar aparılmasını və bütövlükdə təhqiqat və cinayət təqibləri sahəsində qarşılıqlı əməkdaşlığın potensialının daha qüdrətli səviyyəyə qaldırılmasını zəruri edir. Məlumatda deyilir ki, bəzi ölkələr üçün özünün cinayət mühakimə icraat çərçivəsində beynəlxalq əməkdaşlıq üçün cinayət ədliyyəsinin xüsusi sistemi və strukturu yaradılmalıdır [11, 1].

Beynəlxalq əməkdaşlıq quru təlimatlar və ya nəzəriyyələr üzrə qurulmur. Əməkdaşlıq qloballaşan transmilli cinayətkarlıqla mübarizənin özünəməxsus planının, perspektivli üsullarının və vasitələrinin, ən yeni mübarizə növlərinin tətbiqini gündəmə gətirir. Ona görə də beynəlxalq əməkdaşlığın dəstəklədiyi əsas mexanizmlərə aşağıdakıları aid etmək olar:

– Beynəlxalq səviyyədə ölkələrin bir-birinə yardım göstərməsi və bunun miqyasının genişləndirilməsi;

– Hüquqi əlaqələrin formalarının təkmiləşdirilməsi və onların inkişafı kontekstində, mövcud maneələri aradan qaldrmaqla, ekstradisiya tədbirindən istifadəyə geniş yer verilməsi, onun mexanizminin sadələşdirilməsi;

– Dövlətlər arasında məhbusların, vətəndaşlığından asılı olmayaraq, qarşılıqlı mübadiləsi / verilməsi /;

– Cinayət işləri üzrə istintaq və ya təhqiqat materiallarının verilməsi;

– Cinayətkar fəaliyyət yolu ilə əldə edilmiş gəlirlərin müsadirə olunması məqsədilə beynəlxalq əməkdaşlıq və bu sahədə beynəlxalq ədliyyə orqanlarının yaradılması;

– Suverenlik prinsipinin təkminləşdirilməsi;

– Korrupsiya əleyhinə BMT-nin Konvensiyasında /2010-cu il tarixli Beynəlxalq Konvensiya/ nəzərdə tutulan aktivlərin qeyri-şərtsiz geri qaytarılması;

– Hüquq-mühafizə orqanlarının beynəlxalq əməkdaşlıq sahəsində tədbirləri daxil olmaqla, bir sıra az formal tədbirlərin ölkələr arasında razılaşdırılması. Məsələn, əməliyyat-axtarış məlumatlarının daha intensiv mübadiləsi, əməkdaşların qarşılıqlı ezamiyyəti və s.

Əməkdaşlığın metod və vasitələrinin qiymətləndirməsi üzrə instrumentariyada adətən beynəlxalq işbirliyində fəal iştiraka səy göstərən ölkələrin toqquşduğu bəzi praktiki məsələlər də vardır. Son zamanlar yaranmış bəzi belə praktiki məsələlərə yeni konvensiyaların tətbiqi zamanı xüsusi diqqət yetirilir. BMT-nin 12 dekabr 2000-ci il tarixli "Mütəşəkkil Transmilli cinayətkarlıq əleyhinə konvensiyasını" buna misal göstərmək olar. Konvensiyanın 1 və 2 maddələrində qeyd olunduğu kimi, onun qəbulunda əsas məqsəd beynəlxalq əməkdaşlığın genislənməsinə kömək göstərməkdən, beynəlxalq ictimaiyyət tərəfindən transmilli cinayətlərin tərifini razılaşdırmaq, cinayət yolu ilə əldə edilmiş pulların yuyulması, ölkə kənarında yerləşdirilməsi, istifadəsilə mübarizənin təşkilindən və s. ibarətdir [12]. Konvensiyada təşkil olunan məsələlər konkret yuristiksiyanın beynəlxalq səviyyədə əməkdaşlıqda potensialının və hazırlıqlarının qiymətləndirilməsinə, habelə onun qarşısına çıxan maneə və mürəkkəblikləri aradan qaldırır.

İkitərəfli regional, regionlararası və beynəlxalq səviyyədə xeyli tərəqqiyə malik olmasına baxmayaraq, ağır beynəlxalq cinayətlərin instintaqı və cinayətlərin təqibinin möhkəmələndirilməsinə hələ də ehtiyac vardır. Təcrübədə xeyli müddət çalışan hüquqşünaslara yaxşı məlumdur ki, bunlara hazırda cinayət işləri üzrə məsələlərdə əsasən korrupsiya inkişaf etmiş müəyyən ölkələrin, öz suverenliyinə istinad etməsi, onların hüquq-mühafizə orqanlarının strukturundakı müxtəliflilik, səlahiyyətverici cinayət qanunvericiliyinin olması, informasiya mübadiləsi üçün zəruri kommunikasiya mübadiləsinin olmaması kimi səbəblər aid edilə bilər. Bu problemlər bəzən yuristiksiyalarda müxtəlif prosessual tələblərin araşdırılması zamanı yaranan çətinliklər və rəqabətlər bəzən dil(də) insan hüquqları, şəxsi həyatın toxunulmazlığı, habelə istirakçı hüquq-mühafizə orqanlarının fəaliyyətinin üst-üstə düşməsindən meydana çıxır.

Hüquq ədəbiyyatında qeyd edildiyi kimi beynəlxalq əməkdaşlığa münasibətdə diqqət tələb edən hüququn aliliyi məsələsi də mövcuddur [3, 13, 14].

Beynəlxalq əməkdaşlığın qarşısında duran maneələrdən biri kimi, hüququn aliliyinin möhkəmlənməsinə istiqamətləndirilən tədbirləri səciyyələndirməyə ehtiyac yoxdur. Ölkələrin hüquqi aliliyinə və insan hüquqlarının müdafiəsinə tərəfdar çıxması nə danışıqların, nə də ticarət mübadilələrinin predmeti ola bilməz [1, 11, 14]. Həqiqətən də insan hüquqları sahəsində hüququn aliliyinin möhkəmləndirilməsi və beynəlxalq hüquq normalarına əməl edilməsi üzrə tədbirlər də qarşılıqlı yardımın və beynəlxalq əməkdaşlığın birbaşa möhkəmləndirilməsi ilə bağlıdır. Ekstradisiya, qarşılıqlı hüquqi yardım və cinayət faktları üzrə təhqiqatların birgə aparılması məsələlərində cinayət ədliyyəsi orqanları və müəssisələri əməkdaşlıq məqsədilə qəbul edilən tədbirlərin, yerinə yetirilən prosessual hərəkətlərin qanuniliyini təmin etmək öhdəliyini üzərinə götürməlidirlər. Bizim fikrimizcə, cari beynəlxalq durum göstərir ki, artıq bu əməkdaşlığa qarşı çıxan və özü beynəlxalq cinayətləri təşkil edib onların törədilməsində iştirak edən ölkələrə qarşı ciddi siyasi, iqtisadi və zərurət olarsa hərbi təsirlər göstərilməlidir. Əks halda bütün sahələrdə davamlı demokratik

inkişaf şübhə altına alınar.

Cinayətkarlıqla mübarizə fəaliyyətində dövlətlərin bir-birinə texniki və texnoloji yardımlar göstərməsi də mühüm inteqrasiyaedici yanaşmalara aiddir. Böyük olmayan ölkələr bəzən çoxsaylı beynəlxalq konvensiyaların yerinə yetirilməsi zamanı müəyyən çətinliklərlə qarşılaşır. Belə şəraitdə onlar ikitərəfli müqavilələrə və sazişlərə meyil göstərərək, onları əməl etməyə məhkumdurlar. Bir çox halda belə dövlətlərin cinayət ədliyyəsinin əsas potensialı və hüquq qaydasına əməl etmək imkanları məhdud olur. Bu sahədə onlara yardım göstərilməsi inteqrasiyalaşdırılmış texniki və maddi yardımın tərkib hissəsi qismində çıxış edir.

Daha geniş kontekstdə beynəlxalq əməkdaşlıq sahəsində texniki yardımın strateji çərçivələri özündə müəyyən aspektlərin dəstəklənməsinə yönələn hərəkətləri ehtiva edə bilər ki, onlara da aşağıdakılar aid oluna bilər:

– qarşılıqlı yardımın dəstəklənməsinə və möhkəmləndirilməsinə yönələn hüquqi çərçivələrin təhlili, təkminləşdirilməsi və möhkəmləndirilməsi. Misal üçün, hüquqi əməkdaşlığın kibərməkana yönəldilməsi;

– hüquqi aktların tələblərinə uyğun olaraq qarşılıqlı hüquqi yardım göstərilməsinin həyata keçirilməsinə istiqamətləndirilən hüquqi çərçivələrin təhlili, möhkəmləndirilməsi və genişləndirilməsi;

– istənilən dövlətlərarası müqavilənin tələblərinə uyğun olaraq ekstradisiyanın həyata keçirilməsinə yönələn hüquqi çərçivələrin təhlili, möhkəmləndirilməsi və genişləndirilməsi;

– hər hansı ikitərəfli müqavilələrin və ya sazişlərin öhdəliklərinə uyğun olaraq hüquq qaydası sahəsində səlahiyyətverici əməkdaşlıq tədbirlərinin yerinə yetirilməsi üçün hüquqi çərçivələrin təhlili və möhkəmləndirilməsi;

– normativ aktlarda nəzərdə tutulmuş qadağan edilən əsas hərəkətlərin qanunvericilik strukturlarına müvafiq surətdə kriminallaşdırılmasının təmin edilməsi məqsədilə cinayət və cinayət-prosessual məcəlləsinin müvafiq normalarının hüquqi çərçivədə təhlili və möhkəmləndirilməsi, zərurət olduqda isə daha çox əməllərə yönəldilməsi;

– müvafiq cinayətkar əməllərin hüququ pozanların verilməsi üçün əsasa xidmət etdiyinin təmin edilməsi məqsədilə cinayət və cinayət-prosessual məcəllənin təhlili və təkminləşdirilməsi;

– beynəlxalq əməkdaşlıq vasitəsilə əldə edilmiş məxfi informasiyanın konfidensiallığının təmin edilməsi məqsədilə cinayət və cinayət-prosessual məcəllənin təhlili və təkminləşdirilməsi;

– milli siyasətin inkişaf etdirilməsi və informasiya mübadiləsinin sadələşdirilməsi və təhlilinə, habelə həmin mübadilə nəticəsində alınmış məxfi informasiyanın yayılmasının qarşısının alınmasına yönələn mexanizmlərin tətbiq edilməsi;

– milli siyasətin inkişaf etdirilməsi və hakimiyyətin mərkəzi orqanlarının əlaqələri və qarşılıqlı təsiri kimi mexanizmlərin hüquq-mühafizə orqanlarının vəzifəli şəxsləri tərəfindən mübadilə edilməsindən ötrü ezam olunma kimi

mexanimzlərin tətbiq edilməsi;

– milli siyasətin inkişaf etdirilməsi və qarşılıqlı beynəlxaq əməkdaşlığa hüquqi yardım göstərilməsi üçün, qarşılıqlı müqavilələrin olmadığı halda belə yardımın edilməsindən ötrü prossessual yeni normaların tətbiq edilməsi;

– qarşılıqlı hüquqi yardımın inkişafı, ondan istifadə və ona reaksiya verməklə xahiş edən dövlətin mövcud orqan və müəssisələrinin müraciətinin təmin edilməsi mexanizmini beynəlxalq çərçivədə və bu sahənin potensialının inkişaf etdirilməsi;

– qarşılıqlı hüquqi yardımın göstərilməsinə, ekstradisiyanın həyata keçirilməsinə aid qanunvericilik tələbləri sahəsində hüquq-mühafizə orqanların və məhkəmələrin vəzifəli şəxslərinin peşə hazırlığının təşkili və inkişaf etdirilməsi;

– zərər çəkən şəxslərin müdafiəsi üzrə beynəlxalq əməkdaşlıq məqsədilə hakimiyyət orqanlarının potensialının artırılması, zərər çəkənlərə vurulmuş ziyanın kompensasiyasının, zərurət yarandıqda onların təhlükəsiz repatriasiyasının təmin edilməsi və s.;

–və nəhayət, transmilli cinayətkarlıqla mübarizə sahəsində geniş, o cümlədən məcburetmə sahəsində, səlahiyyətləri olan cinayət ədliyyə orqanlarının, misal üçün Korrupsiya əleyhinə Beynəlxalq məhkəmənin yaradılması.

Cinayət ədliyyəsi sahəsində beynəlxaq əməkdaşlığın əhəmiyyəti həm Azərbaycan Respublikasının milli maraqları, həm də beynəlxalq cinayətkarlıqla mübarizə sahəsində beynəlxalq əməkdaşlığın mənafeləri ilə müəyyən olunur. Nəzərə almaq lazımdır ki, belə əməkdaşlıqda, demək olar ki, bütün sivil dövlət və cəmiyyətlər maraqlıdır və bu ölkələr bu prosesə tədricən qoşulur. Qeyd etmək lazımdır ki, müasir Azərbaycan bu fəaliyyətdə layiqli yer tutur. Az ölkəyə rast gəlmək olar ki, o, transmilli cinayətlərlə mübarizədə beynəlxalq əməkdaşlığa üstünlük verməsin. Məsələn, işğalçı Ermənistanı belə əməkdaşlıqdan kənada qalan ölkələrin siyahısına tərəddüd etmədən salmaq olar. Bu ölkə üçün heç bir beynəlxalq hüquq norması və prinsipi mövcud deyil.

Beynəlxalq cinayətkarlıqla mübarizədə dövlətlərin əməkdaşlığı məsələləri həm Azərbaycan, həm də müxtəlif xarici ölkələrin tədqiqatçı-alimlərinin diqqətini cəlb edir. Zira, başqa cür mümkün də deyil. Sosial bəla olan cinayətkarlığın kökünü kəsmək qeyri-mümkün olsa da, onun dinamikasını müəyyən dərəcədə aşağı salmaq, onun səbəblərini minimuma endirmək olar. Bu, dünya birliyini düşündürən bugünkü və gələcək illərin qlobal problemlərindən biridir.

Tədqiqatda deyilənləri yekunlaşdıraraq belə nəticəyə gəlmək olar ki, beynəlxalq aləm yerli və transmilli cinayətkarlıq qarşısında gücsüz və aciz deyil. İndiki qloballaşma şəraitində dövlətlərin qarşısında duran ən mühüm və vacib məsələ səyləri birləşdirməkdən, qarşılıqlı hüquqi əlaqə və yardımları möhkəmləndirməkdən, transmilli cinayətlərə dəstək verən qüvvələri izolyasiya edib tədricən neytrallaşdırmaq və beynəlxalq əməkdaşlıq üçün zəruri olan bütün yeni hüquqi, elmi və texnoloji vasitələrdən istifadə etməkdən ibarətdir.

## ƏDƏBİYYAT


1. Alejandro Chehtman - A Theory of International Crimes: Conceptual and Normative Issues, The Oxford Handbook of International Criminal Law, Forthcoming. 20 Pages Posted: 11 Dec 2017, Universidad Torcuato Di Tella - School of Law, Date Written: December 5, 2017. https://papers.ssrn.com/sol3/papers.cfm?abstract_id=3082869
2. Angel Rabasa, Christopher M. Schnaubel etc., Counternetwork: Countering the Expansion of Transnational Criminal Networks, Published by the RAND Corporation, Santa Monica, Calif, 2017, 189 p. https://www.rand.org/content/dam/rand/pubs/research_reports/RR1400/RR1481/RAND_RR1481.pdf
3. Аслан Х. Абашидзе, Ксения Ю. Мельшина – Верховенство права, понимаемое Организацией Объединенных Наций, Вестник ВолГУ, Серия 5, Юриспруденция, т. 15, №4 (33), 2016, с. 10-17 https://cyberleninka.ru/article/v/verhovenstvo-prava-ponimaemoe-organizatsiey-obedinennyh-natsiy
4. Дамирчиев Э.И. Сотрудничество государств – членов Европейского Союза в сфере уголовного судопроизводства. Теоритические и практические аспекты, Автореф. …. дисс. канд. юрид. М.: Наук, 2011, 48 с. http://lawtheses.com/sotrudnichestvo-gosudarstv-chlenov-evropeyskogo-soyuza-v-sfere-ugolovnogo-sudoproizvodstva-teoreticheskie-i-prakticheskie#ixzz5V6oz3UBP
5. Daniel Silverstone – A Response to “The Mobility Criminal Groups”, London Metropolitan University, 2010, 19 p. http://publications.gc.ca/collections/collection_2012/sp-ps/PS14-1-2011-eng.pdf
6. «Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında» Konvensiya, Strasburq, 27 yanvar 1999-cu il. http://antikorrupsiya.gov.az/view.php?lang=az&menu=22
7. Международное сотрудничество: Пособие по оценке систем уголовного правосудия , Управление ООН по наркотикам и преступности, Нью-Йорк, 2010, 37 с. https://www.unodc.org/documents/russia/Reports/10-52547_Assessment_of_criminal_justice_systems_Rus.pdf
8. Осмоналиев К.М. Содержание уголовной политики Кыргызстана и перспективы модернизации уголовно-правовой ее составляющей. М., 2016. file:///C:/Users/rauf/Downloads/soderzhanie-ugolovnoy-politiki-kyrgyzstana-i-perspektivy-modernizatsii-ugolovno-pravovoy-ee-sostavlyayuschey.pdf
9. Пудовочкин Ю.Е. Закономерности формирования и развития российской уголовной политики в условиях глобализации, Журнал Российского права. № 3, М., стр. 82-91, 2017 file:///C:/Users/rauf/Downloads/zakonomernosti-formirovaniya-i-razvitiyarossiyskoy-ugolovnoy-politiki-v-usloviyah-globalizatsii.pdf
10. Ryan Mitchell. Sovereignty and Normative Conflict: International Real Realism as a Theory of Uncertainty, Harvard International Law Journal, February 19, 2018, Vol. 58, Number 2, Spring 2017, pp. 421-483 http://www.harvardilj.org/wp-content/uploads/HLI204_crop.pdf
11. UN Office on Drugs and Crime - The Globalization of Crime, A Transnational Organized Crime Threat Assessment, UNODC, Vienna, 2010, 303 p. http://www.unodc.org/res/cld/bibliography/the-globalization-of-crime-a-transnational-organized-crime-threat-assessment_html/TOCTA_Report_2010_low_res.pdf
12. "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiya, Palermo, 12 dekabr 2000-ci il. http://www.fiu.az/images/documents/az/beynelxalq_senedler/palermo.pdf

## ГЛОБАЛИЗАЦИЯ ТРАНСНАЦИОНАЛЬНОЙ И НАЦИОНАЛЬНОЙ ПРЕСТУПНОСТИ КАК ОСНОВНОЕ УСЛОВИЕ ФОРМИРОВАНИЯ ЕДИНОЙ МЕЖДУНАРОДНОЙ УГОЛОВНО-ПРОЦЕССУАЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ

**Р.Г.РУСТАМОВ**

### РЕЗЮМЕ

В статье рассматриваются основные направления и последствия влияния процессов глобализации на совершенствование и развитие международной и национальной уголовной политики. Понимая под глобализацией права объективный, но управляемый процесс формировании механизмов тесного и свободного сотрудничества народов и государств в сфере борьбы с международной преступностью, автор видит пути повышения эффективности борьбы с преступностью в унификации национальных и международных норм права и процедур, в упрощении форм сотрудничества и формировании новых наднациональных органов юстиции.

**Ключевые слова:** уголовная политика, глобализация права, формирование, преступность, транснациональная преступность.

## GLOBALIZATION OF TRANSNATIONAL AND NATIONAL CRIMINALITY AS A MAIN GROUND FOR THE FORMATION OF THE UNIFIED INTERNATIONAL CRIMINAL PROCEDURE

**R.H.RUSTAMOV**

### SUMMARY

The main directions and implications of globalization to modernization and implementation of national and international criminal policy are studied in the article. Interpreting the globalization of law as an objective and regulated process of forming mechanisms of closed and free cooperation of nations and states on combating of international crime, the author tries to explore ways to raise effectiveness and unification of domestic and interstate legal norms and procedures, simplifying forms of cooperation and establishing supranational justice agencies.

**Key words:** criminal policy, globalization of law, formation, crime, formation, transnational.

**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**

***№4 Sosial-siyasi elmlər seriyası 2018***

**FƏLSƏFƏ**

**UOT 321. 01; 340. 11:1**

# DİN VƏ HÜQUQ: İSLAM DİNİNDƏ HÜQUQUN FƏLSƏFİ TƏHLİLİ

**Ə.N.PAŞAYEVA**
***AMEA-nın Fəlsəfə İnstitutu***
***phashayeva.ph@mail.ru***

*Mədəniyyətin tərkib hissəsi olan dini və hüquqi normativlər bütün dövrlərdə mövcud olmuşdur. İnsan və insanlığı tərənnüm edən və humanistliyi müdafiə edən bu normatilərin tarixi kökləri nəinki islam dövrünə, hətta ondan daha qədim zamanlara aiddir. İnsanın yaranışından və onun yer üzərində hakim olmasından məqsəd insanlığın və mövcud olan bütün dəyərlərin qorunmasıdır. Bu baxımdan islam dini bütün canlılara mənsub olan haqlara (normalara) müxtəlif tərəflərdən və daha dərindən yanaşaraq bu məsələlərə xüsusi diqqət etmişdir.*

*Məqalədə yəhudilik, xristianlıq dinlərində olan hüquqi normativlərə işarə olunmuş və ən əsası isə islam dinində olan hüquqi məsələlər həm islam hüququşünaslarının (fəqih-islam hüquqşünası) və həm də islam və qərb filosoflarının nəzəriyyəsinə əsasən fəlsəfi istiqamətdə təhlil olunmuşdur.*

**Açar sözlər:** Din, İslam dini, Qurani-Kərim, İslam hüququ, Hüququn fəlsəfəsi, İctimaiyyət.

Din insan fitrətinə əsasən yaranmış ilahi qanun və qaydaların məcmuəsidir. İlahi elçilərin və müqəddəs kitabların nazil olmasından məqsəd ictimaiyyət arasında ədalətin bərpa olunmasıdır və bu səbəbdən də insanlar arsında meyar və dəyərləndirməyə ehtiyac olmuşdur. Əsrlərdən bəri bəşəriyyəti qoruyan dini və hüquqi normativlər mədəniyyətin tərkib hissəsi olaraq bütün dövrlərdə özünü göstərir. İnsan ictimai bir varlıq olaraq topluda yaşamağa can atır və əsas məqsədi də odur ki, təkcə atifi duyğularla deyil, ağıl, daxili və zahiri hisslər vasitəsilə İlahi tərəfindən insan üçün mövcud olan gözəllikləri seyr etsin və bunları həyatının mənasına çevirsin.

Din və hüquq arasında olan bağlılıqdan danışarkən islam dinində bütün canlılar üçün müəyyən olunan normativlərə diqqət etmək olduqca zəruridir. Çünki bu normativlər müxtəlif prinsiplər əsasında təhlil olunur. İslam dininə əsasən islam mədəniyyəti tam olaraq dünyəvi və əbədi bir mədəniyyətdir. Elə buna görə də islam insana və insan hüquqlarına müxtəlif tərəflərdən yanaşaraq bu məsələlərə xüsusi diqqət etmişdir. Burada əsas hədəf ədalətili və hüquqi bir quruluşu yaratmaqla ictimai-siyasi tələbləri yerinə yetirməkdir. İslam baxımın-

dan fərdi, ictimai və siyasi hüquq imtiyaz və istedadın məcmuəsidir ki, hər bir şəxs üçün rəsmi olaraq tanınmış və digərlərinin də buna riayət etməsinə təkid olunmuşdur.

**Tədqiqatın hədəfi**

İslam dini hüquqla bağlı olan məsələlərdən**,** xüsusilə insana mənsub olan haqlardan geniş bəhs etmiş və müxtəlif dövrlərdən asılı olmayaraq bütün zamanlarda bu haqların qüvvədə olduğunu təkidlə bildirmişdir. Hazırkı dövrdə mövzunun mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, islamda hüquqi məsələləri fəlsəfi aspektdən təhlil etməyi zəruri hesab etdik. İnsani dəyərləri özündə birləşdirən belə məsələləri tanımaq və tanıtdırmaq həm bu günümüz və həm də gələcəyimiz üçün olduqca zəruridir.

**Dini ayinlərdə hüquqi normativlər**

İstər islamda və istərsə də dünyəvi hüquqda olsun insana və digər canlılara mənsub olan normalardan bəhs edərkən ilk növbədə təbiət, insanın keçmişi və gələcəyi düzgün təhlil olunmalıdır; yəni burada təbiət və insan arasında olan bağlılıq dərindən öyrənilərək həm də dərk olunmalıdır. İnsan elə bir varlıq deyil ki, tənha olaraq qayda-qanunlara və digər qurluşlara bağlılığı olmadan yaşasın. Belə bir varlığı tanımaq üçün təbiidir ki, həmin qaydaları və quruluşları tanımaq və bunların bütün xüsusiyyətlərini bilmək lazımdır, çünki insan varlığının bunlara ehtiyacı vardır. Müqəddəs kitabların birincisi olan "Tövrat"da qanunvericilik, insan varlığının müəyyən hədlər əsasında qorunması və insanla bağlı olan əməllərin dəyərləndirilməsi qanunlar əsasında bəyan olunmuşdur. "Tövrat" təkcə dini kitab deyil, bu həm də bütün canlıların varlığını əvvəllərdən sona qədər normativlər əsasında açıqlayır və bəşəriyyəti bu normativlərə riayət etməyə sövq edir; yəni burada təkcə ilk yaranışdan, əşyadan, mühacirətdən və digər məsələlərdən bəhs olunmur; əgər diqqətlə təhlil etsək görərik ki, burada insanın yaranmasından məqsəd onun yer üzərində bütün canlıların başçısı olmasıdır (1, 1/26, 28). Burada başçı dedikdə, hökmranlıq iddiasından söhbət getmir, bəlkə əsas məqsəd insanlar arasında olan əlaqələrin normalar əsasında tənzimlənməsi və inkişaf etdirilməsidir. Bu normalar bir xalq və bir qrup üçün nəzərdə tutulmamışdır, bunlar insan şəxsiyyətini yüksəlişə doğru aparan bəşəriyyət üçündür ki, bütün insanların da bunda payı vardır. Almaniyanın məşhur sosioloqu Maks Viber müəllifi olduğu "Dini Sosiologiya"[1] əsərində bu məsələyə işarə etmiş və yəhudi dininin prinsiplərini "Qanunların şərhi" adlandırmışdır (2, 29).

Yəhudi dinində mövcud olan mənəvi dəyərlər xristian dinində də özünü göstərir. Hüquqi normalar əsasında xristian dinini təhli etdikdə məlum olur ki, belə mənəvi məsələlər yəhudilikdən xristianlığa irs olaraq keçmişdir. Çünki xristianlıqda Tanrı insanların qanun mənbəyi hesab olunur. Həzrət İsa (Ona salam olsun) "İncil"də (Yeni Əhd) buyurur: "Mən qanunları məhv etmək üçün deyil, bəlkə onları təkmilləşdirmək üçün gəlmişəm" (3, 8, 10). İlahi tərəfindən

---

[1].Maximilian Karl Emil Weber (1864-1920). "Sociology of Religion".

müəyyən olunan normalar təkcə insanlar üçün deyil, bütün canlılar üçün nəzərdə tutulmuşdur. Çünki hər bir canlının özünə xas normaları mövcuddur ki, bunlar mövcud aləmin qorunması və inkişafı üçün nəzərdə tutulmuşdur (4, Book 1. part 1, pp. 1 & 2). Dövrdən asılı olmayaraq, bəzən mövcud qanunlar düzgün öyrənilmədikdə və yerində tətbiq olunmadıqda[1] əks nəticə verir və bunun da nəticəsində insanların dünyagörüşündə din və dinin prinsipləri mənfi xarakter daşıyır. İstər dində və istərsə də dindən kənarda olsun, bütün hallarda insan onun üçün təyin olunan normativlərə tabe olmalıdır.

**İslam hüququnun fəlsəfi təhlili**

İslam dini hüququn fəlsəfi təhlilindən daha çox fiqhi[2] məsələlərə yer verilmişdir və fiqh islam hüququnu öyrənmək üçün ilk başlanğıc hesab olunur. Fiqhin prinsipləri rəsmi bir elm olaraq islam hüquqşünasları[3] tərəfindən tədqiq olunmuşdur. Burada təhlil olunan əsas mövzular ibarətdir: huquq nəzəriyyəsi, gətirilən arqumentlərin metodologiyası, hüquqla bağlı olan mətnlərin şərhi, hüquqi qaydaların elmi sübutları və hüquqla bağlı olan digər mühüm məsələlər təhlil olunur. İslam hüququ dini mətnlərdə müqəddəs, sabit və dəyişməz bir hüquq kimi tanıdılır.

Hüququn fəlsəfəsində təhlil olunan əsas məsələlərdən biri də ictimai dəyişiklik mövzusudur. Burada bir sual yaranır: əgər islam hüququ sabit və dəyişməzdirsə, onda necə ola bilər ki, hüquq nəzəriyyəsində dəyişən ictimai məfhumlarla uyğun olsun? Ümumiyyətlə, sabit olan hüquq dəyişə bilərmi və əgər qeyri-sabitdirsə, onda ictimai zərurəti dəyişməklə və yaşayış vasitələrini qəbul etməklə birlikdə yaşamağın metodlarını göstərə bilərmi? İslam hüququ sabit olmasına baxmayaraq, hüququn fəlsəfi məfhum və nəzəriyyəsini istinad etdiyi biliklərdə göstərmişdir. Bütün dini mətnlərdə islam hüququ ilahi vəhy, ictimai-siyasi, elmi, mədəni və həmçinin adət-ənənə olaraq tanıdılır. Bundan başqa, bir çox özünəxas məsələləri təkcə dini baxımdan deyil, həm də ictimai yönümdə təhlil edir. İslam hüququnun sabit və dəyişməz olduğu dedikdə bu o demək deyildir ki, islam zühür etdikdən sonra bu günə qədər onun müddəaları olduğu kimi mövcuddur, islam dinində elə məsələlər vardır ki, bunlar zaman və dövrə uyğun olaraq izah olunur. Elə buna görə də mövcud məsələlərin bəziləri qəbul olunur, amma bəziləri isə sabit və dəyişmədiyi üçün müzakirə olunmur.

Mövzunun əsas tədqiq mənbəyi "islam" və "hüquq" olduğu üçün təhlilə başlamazdan əvvəl bu terminlərin elmi tərəfləri açıqlanmalıdır. İslam hüququnu təhlil edərkən burada iki məfhumla, yəni "islam" və "hüquq"la üzləşirik. "Hüquq" ərəb sözü olaraq "haqq"ın cəm formasıdır. Haqq sözü isə mövzuda belə izah olunur: "haqq xüsusi bir iqtidar və məqamdır ki, qanunvericilik əsasında o şəxslərə verilir ki, onlar bu qanuna əsasən şəxslərin özləri və mənsub

[1].Çünki bəzi hallarda dini normativlərdən müəyyən şəxsin və qurupun mənafeyinə xidmət olunmasında da istifadə olunur.
[2].Buna şəriət məsələləri və ərəb dilində isə "Usulul-fiqh" (اصول الفقه) deyilir.
[3].İslam hüquqşünasları dini mətnlərdə "fəqih" adlanır.

olduqları mülkiyyət barəsində düzgün qərar çıxartsınlar" (5, 51). Amma məşhur ərəb hüquqşünası, qazi Həsən Keyrin fikrincə: "haqq hər bir ölkənin fiziki və hüquqi şəxsləri üçün nəzərdə tutulan imtiyazı deməkdir" (6, 441). Haqqın mövcudluğu hər hansı bir şəxs və toplu üçün rəsmi olaraq tanınır. Haqq və vəzifə insanın digər məsələlərdən faydalanması üçün bir-birinə bağlı olan bir imtiyazdır. Əgər hər hansı bir haqq şəxs üçün müəyyən olunursa, onda digərlərinin də buna riayət etməsi lazımdır və bu vətəndaş vəzifəsi olaraq müəyyən edilir. Hər bir fərd hüquq daxilində onun üçün nəzərdə tutulan imtiyazları dərk edərək, ictimaiyyətdə bir sıra vəzifə və öhdəliklərə diqqət edir. İcimai əlaqələrdə hüquq öhdəliklər qarşısında olaraq ikitərəfli əlaqəni yerinə yetirir. Bütün canlılar üçün müəyyən edilən haqlar bəşəriyyətin ictimai-siyası və fərdi azadlıqlarını təmin edən qanunları özündə birləşdirir. Bu normalar insanların ictimai-mədəni, iqtisadi-hüquqi, siyasi hüquqi, ümumi və şəxsi azadlıqlarına həsr olunan qanun mənbəyidir.

Əgər hüququ məfhum baxımından təhlil etsək onda hüquq məfhum olaraq iki hissəyə (ictimai və şəxsi)[1] bölünür. İctimai hüquq ədalətin bərpası, maddi və mənəvi dəyərlərin inkişaf etməsi üçün səlahiyyətli şəxs tərəfindən yaradılan qanun və qaydaların məcmuəsidir. Şəxsi hüquq isə imtiyaz və bacarığın toplusudur ki, hər bir fərd üçün nəzərdə tutulmuşdur və islam baxımından digrlərinin də buna riayət etməsi vacib hesab olunur. Amma hüquq elminin hüquqa verdiyi tərifə gəlincə isə ictimaiyyətə və insanların hüquq və vəzifələrinə başçılıq edən qayda və qanunlar nəzərdə tutulur. Bu elm qayda və qanunların təhlilindən, inkişafından və məsələlərin dəyərləndirilmsindən bəhs edir. Hüquq elmi alan şəxs *"hüquşünas"* və islam hüququnda isə bu məqam *"fəqih"* adlanır (7, 561).

İslam hüququndan bəhs edərkən, islam hüquq quruluşlarına xüsusi diqqət olunmalıdır. Çünki islam hüquq quruluşu islam hüququnun özəyini təşkil etməklə, həmçinin islamın bütün ayinlərinə dəlalət edir. Elə buna görə də müsəlmanlar hüquqi quruluşlarda və qanunvericilikdə dinin üstünlüklərindən danışarkən ilk olaraq dinin xüsusiyyətlərindən bəhs etmişlər və bu xüsusiyyətlərin ən əsası ədalətdir.

**İslam hüquq quruluşlarına fəlsəfi baxış**

Dini və İlahi quruluşların sonuncusu islam hüquq quruluşudur ki, Qurani-Kərimə, Sünnəyə və Ağıla istinad edir. Bu quruluşun əsas xüsusiyyətlərindən bəhs edərkən qeyd etmək lazımdır ki, islam hüquq qurulu°u ilk növbədə ***dinə və ruhaniyyətə əsaslanır;*** yəni ilk olaraq qeyd etmək lazımdır ki, islam hüquq quruluşu ilahi və dinidir. Çünki onu İlahi tərəfindən seçilmiş peyğəmbər gətirmişdir nəinki adi rəhbərlər. İslam hüququ dinin mətnlərində və islamın ayinlərində mümüm yer tutur və ondan ayrı deyil; bunu, həmçinin qərb hüquqşünasları da təsdiq edirlər. Fransız hüquqşünası Rena Devid[2] bu barədə yazır:

---

[1].İslam mətnlərində buna "eyni" və "fərdi" hüquq da deyilir.
[2].René David (1906-1990).

“heç bir islamşünas islam hüququndan xəbərsiz deyil. İslam dini yəhudi dinində olduğu kimi qanuna əsaslanan bir dindir”. Sonra davam edərək yazır: “Berq Straserin dediyi kimi, islam hüququ müsəlman ruhunun ifadəsi, islamın ən qəti fikri və həm də onun özəyidir” (8, 2). Rena Devidin demədiyi digər mühüm bir məsələ də ondan ibarətdir ki, bu ilahi və dini hüquq həm də vəhyə əsaslanır. Bu mənada ki, islamın hüquq qaydaları dinə etiqad edən müsəlmanlar tərəfindən deyil, Allah-Taala tərəfindən peyğəmbərlərə nazil olmuşdur. Bunlar Quranda və digər mötəbər mətnlərdə mövcud olan mühüm məsələlərdir ki, islam peyğəmbəri vasitəsilə yayılmışdır. Burada digər bir məsələ isə Rena Devidin xristian hüququ ilə islam hüququnu müqayisə etməsi yuxarıda deyilənləri tamamlayır. “İslam hüququnun, hətta kiçik bir hissəsi islam dinindən ayrı deyil, çünki bunun əsası ilahi vəhyə əsaslanır və dünyada elə bir qüvvə yoxdur ki, onun səlahiyyətini dəyişmək qüdrətinə malik olsun. Hər bir müsəlmanın ictimai həyatda yaşamağı üçün mənsub olduğu islam qaydalarından[1] başqa digər qaydalar mümkün deyil və islam hüququ məhz bu xüsusiyyətlərə görə xristian ictimaiyyətində kilsə hüququ qarşısında yer tutmuşdur. Məlum olduğu kimi kilsə hüququ vəhy vasitəsilə nazil olmamış və bu hüquq xristianların iman və əxlaq prinsiplərini əks etdirir, nəticədə bunlar ilahi kəlam deyil, bəşər düşüncəsinə əsaslanır. Elə buna görə də xristianların müxtəlif kilsə hüquqları uzun əsrlərdə inkişaf etməyə başladı və bu inkişaf davam edir. Amma islam hüququ isə islam dininin bir hissəsini təşkil etməklə həm də islam prinsiplərinə əsaslanır. Hər hansı bir hüquq şəriət qaydalarına uyğun olmasa qəbul edilməzdir” (8, 5). Burada mühüm bir məsələni nəzərdən qaçırmaq olmaz; yəni demək olmaz ki, bu gün istinad edilən hüquq hüquq hesab olunmur, əksinə burada Rena Davidin məqsədi təbii hüquqdur, nəinki pozitiv hüquq. Çünki təbii hüququn mahiyyəti səmavi dinlərə əsaslanır, nəinki sonradan tədqiq olunan (pozitiv) hüquqa və onun prinsiplərinə.

İslam hüquq quruluşunun digər xüsusiyyətlərindən biri də ***reallığa əsaslanan, çox əhatəli və ictimai olmasıdır*** (8, 5). Hüquqi quruluşlar bu reallığa can atsa da amma əsil həqiqətdə buna nail ola bilməmişlər. Ona görə ki, bu quruluşların prinsiplərini irəli sürən alimlər və bunun əsasını qoyan təşkilatçılar insan varlığına diqqət etməmiş və hətta onun varlığını tanımaqda səhvə yol vermişlər. Amma islam hüquq quruluşunda qanunverici Allah-Taaladır ki, insan varlığının bütün kateqoriyaları, onun mərifəti və kainat ilə əlaqəsi barədə tam elmə malikdir. Belə olan halda təbii ki, islam hüquq quruluşu reallığa əsaslanaraq çox əhatəli və həm də ictimai bir quruluş hesab olunacaq; yəni islam hüququ insanların hüquqla bağlı olan əlaqələrini tənzimləyir, ictimai məsələləri diqqət mərkəzində saxlayır və ilahi qanunları insan həyatının bütün sahələrinə həsr edir.

İslam hüquq quruluşunun digər xüsusiyyəti ***tam və kamil*** olmasıdır (8, 7); yəni islam hüququnun real olması onun tam və kamil bir hüquq olmasına

---

[1].Elə bir qaydalar ki, bunların əsasını İlahi vəhy təşkil edir.

dəlalət edir. İslam hüququ təkcə çoxəhatəli və ictimai bir hüquq deyil, bu həm də hərtərəfli və tam bir quruluşdur. İnsan varlığına bağlı olan elə bir məsələ yoxdur ki, islam bu məsələlərə münasibətini bildirməsin və hətta ən kiçik məsələlər belə islam hüququndan kənarda qalmamışdır. Bu quruluşun digər mühüm xüsusiyyətlərdən biri də ***birlik və əməkdaşlığa*** önəm verməsidir. İslam hüququnda birlik və əməkdaşlıq istər hüquqi və istərsə də qeyri-hüquqi olsun müəyyən bir sistemə və quruluşa söykənir və bu sistem və quruluş hər hansı bir ziddiyyətdən kənar bir-biri ilə əməkdaşlıq edir və ən əsası isə bu hərtərəfli əməkdaşlıq reallığa əsaslanır. Çünki islamın hüquq sistemi real birlik və əməkdaşlıq üçün yaranmışdır (8, 8). Digər mühüm bir məsələ ondan ibarətdir ki, islam hüququ və quruluşu insan təbiəti və fitrəti ilə bağlıdır və bu müasir hüquqi qruluşlardan fərqli olaraq iki mühüm sütundan ibarətdir:

1.İslam hüquq quruluşu mahiyyət etibarilə dünyəvi quruluş deyil, bəlkə bu quruluşun əsasını ilahi və müqəddəs dəyərlər, yəni insanla bağlı olan müqəddəs əməllər təşkil edir. İslam təkcə dini ayinlərdən və şəriət məsələlərindən bəhs etmir, islam ictimaiyyətdə insanların bir-birlərilə münasibətlərini, onların davranış qaydalarını, ümumiyyətlə, əxlaqın formalaşmasında mühüm tənzimləyici vasitə olan qanunlar məcmuəsindən bəhs edir.

2.İslam hüquq quruluşu digər müasir hüquqi quruluşlardan fərqli olaraq ümumi və xüsusi şöbələrə bölünmür. Çünki bu quruluşun qanunları Qurani-Kərimin ayələrinə əsasən təsbit olunur ki, bütün zamanlarda və məkanlarda bəşəriyyətə xitab olunmuşdur. Başqa sözlə, bu bir qanun qöstəricisidir ki, təkcə ictimayyətə və ya bir toplantıya aid deyil, bu, hətta tək bir şəxsə də şamil olunur: *"Biz insanı dəyərləndirdik"* (9. Əl-İsra, ayə 70). Bu onu göstərir ki, islamda, ancaq bir qanun mövcuddur və bu həmin qanun göstəricisidir ki, dinindən və şəxsi etiqadından asılı olmayaraq bütün bəşəriyyətə aiddir.

İslam hüququnda hüquqi normalar geniş və ətraflı şəkildə təhlil olunur. Bunlar ibarətdir: "əhdə vəfa etmək", "xüsusı qanun çərçivəsində məsləhətləşmələr", "yaşamaq haqqı", "azadlıq", "bərabərlik", "ədalət", "ədalətə uyğun istəyin təmin olunması", "su-istifadə qarşısında haqqın qorunması", "işgəncədən qorunmaq","şərəf və ləyaqətin qorunması", "sığınacaq haqqı", "ictimai həyatda fəaliyyət hüququ", "fikir, iman və söz azadlığı", "din azadlığı", "iqtisadi hüququn qorunması", "ailə qurmaq hüququ", "təlim və tərbiyə hüququ", "şəxsi həyatın gorunma haqqı", "yaşayış yerini seçmək və azadlıq hüququna malik olmaq haqqı" və digər normaları misal göstərmək olar. Göstərilən hüquqi əsaslar yaş həcmindən, tutduğu mövqeyindən, həmcinin tibbi şəraitindən asılı olmayaraq bütün insanlara şamil olunur (10, 457) və məhz bu qanunlar əsasında hökm irəli sürülür və nəticə alınır.

**İslam hüququnda insan haqlarının hədəfinə fəlsəfi baxış**

İslam hüququnda insan haqlarının hədəfindən danışarkən Qurani-Kərimə müraciət etmək olduqca zəruridir, çünki islam hüquq quruluşu məhz müqəddəs kitabda öz əksini tapmışdır və həmçinin hüquqla bağlı olan bütün ayələrində hüququn hədfini başlıca amil hesab edir. Allah-Taalanın bəşər övladına buyur-

duqları nəsihətlər içərisində insana verilən haqq xüsusi yer tutur. İnsana verilən haqq dedikdə, yəni bu haqlar insana bağlıdır və onunla birlikdə yaranmışdır. İnsan yarandığı vaxtdan ona xas olan istəklər, tələblər (haqlar) onunla birlikdədir. Mütləq Varlıq kimliyindən və hansı millətə mənsub olmağından asılı olmayaraq hər bir insanın haqqına riayət olunmasını təkid etmişdir: ***"Elə ki, insanlar arasında qərar qəbul etdiniz, ədalətə riayət edin"*** (9. Ən-Nisə, ayə 58).

İslam hüququnda insan haqlarının hədəfindən danışarkən ədalət hissinə xüsusi diqqət etmək lazımdır. Ədalət hissi insan təfəkküründə insana xas olan haqların əsasını təşkil edir və bu hiss haqqın yerinə yetirilməsində mühüm hədəflərdən biri hesab olunur. Bu hədəf insana xas olan azadlığı və digər haqları qorumağa səy göstərir. Əlbəttə, burada ictimai hüquq da mühüm amildir, çünki ictimai hüquq fərdi hüquq qarşısında olmaqla ümumi mənafeyi və dövlət hüququnu hüququn hədəflərindən biri hesab edir. Quran təkcə ədalətdən bəhs etmir və həm də onun yerinə yetirilməsinə təkid edir. Ədalət hissinin təkcə əməllə deyil, həm də insan ruhu ilə bağlı olduğu göstərilir. Quran nəsihətlərində ədalətin bütün hallarda riayət olunmasına təkid edir: ***"Əgər hər hansı bir məsələ barəsində fikir yürüdürsünüzsə, hətta qohum-əqrabanız olsa belə ədalətli qərar çıxarın"*** (9. Əl-Ənam, ayə 152).

İslamda insan haqlarının hədəfini təkcə ədalətlə məhdudlaşdırmaq olmaz, çünki ayələrin mənasını təhlil edərkən məlum olur ki, insan iki hissədən: ruh və cismdən ibarətdir. Hüququn əsas məsələlərindən danışarkən, yəni insanın təbiətə inamı və bağlılığı, insan dünyadan getdikdən sonara başqa bir aləmin varlığına inam (axirət aləminə), insanın Tanrı və özü ilə əlaqəsi, insanın digərləri ilə əlaqəsi, fərd və ictimaiyyətin özəyi və bu kimi digər məsələlər hüququn əsas qayəsi hesab olunmaqla hədəfin yaranmasına ehtiyac olduğunu göstərir. Bu məsələlərdən hər birinin özünəxas hədəfi vardır və bu hədəflər hüquqi normativlərdə mövcuddur. İslam baxımından ədalət nəfsə bağlı olan bir vəziyyətdir ki, insan bunun vasitəsilə əxlaqa zidd olan əməllərdən uzaqlaşır və əxlaqa xas olan yüksək keyfiyyətlərə sahib olur. İslam hüququnun hədəfi təkcə ictimai rifah halının yaxşılaşması və ədalətin yerinə yetirilməsi deyil, bəlkə əsas hədəf ondan ibarətdir ki, insan əməldə ədalətə riayət etməklə ən üstün məqama nail olsun. Burada üstün məqam dedikdə, yəni haqqa riayət etməklə insan ruhunun nurlu olması nəzərdə tutulur. Əlbəttə, bunun başqa bir mənası da ola bilər, amma insan ruhunun nurlanması məhz əxlaqi dəyərlərə əməl etdikdən sonra mümkündür. İnsan hər hansı bir əməlin müsbət tərəflərini gördükdə məlumdur ki, həm cismən və həm də ruhən bundan şad və rahat olur. Normal insan etdiyi hər hansı bir əməlinə görə (istər bu əməl yaxşı və istərsə də pis olsun) həmin anda da olmasa sonradan onun barəsində düşünür və görəndə ki, pis bir iş tutub bunu büruzə verməsə də daxilən narahat olur. Amma yaxşı əməl sahibi əməlinin müsbət olduğunu duyduqca həm cismi və həm də ruhu rahatlaşır və etdiyi bu əməlin müqabilində vicdanı qarşısında daha da yüksəlir. İslam hüququnun üstünlüyü və əsas hədəfi ondadır ki, insana həqiqəti və onun kimliyini tanıtdırır, həmçinin ruh və cism arasında qırılmaz əlaqə yaradır. İslam

mütəfəkkiri Muhəmməd Hüseyin Təbatəbai yazır: "insan daxilində olan bəzi qüsurlar onun həqiqəti dərk etməyə ehtiyacı olduğunu göstərir. Həqiqətən bu çatışmazlıqların təsiri insan varlığının zəif tərəflərini təşkil edir və bu zəif tərəflər gərək iradə əsasında insanın üstün keyfiyyətlərə çatması ilə əvəz olunsun" (11, 16). Burada digər mühüm bir məsələ ondan ibarətdir ki, hüquqla bağlı olan əsərlərdə və hüquqşünasların gəldiyi nəticədə fərdi azadlıq və fərdin mənafeyi hüququn hədəfi hesab olunur. Onların nəzərində hökumət hər hansı bir şəxsin güvəndiyi qurumdur; hökumət insan azadlığını təmin etməlidir; hökumət müəyyən hədd daxilində insanın digərləri ilə fəaliyyətinin genişlənməsinə şərait yaratmalıdır və ictimai fəaliyyəti məhdudlaşdıran problemlər aradan qaldırılmalıdır (12, 368).

Ümumiyyətlə, hüququn hədəfi və məqsədi istər islamda olsun və istərsə də müasir hüquqda insan varlığını dəryərləndirməkdir. İnsan varlığının dəyərləndirilməsi dini mətnlərdə geniş təhlil olunsa da qərb mütəfəkkirlərinin də bu barədə çox maraqlı fikirləri mövcuddur. Hüquq nəzəriyəçiləri hüququn fəlsəfəsində və digər elmlərdə hədəfin mühüm yeri olduğunu yazmışlar. Bunların arasında məşhur hüquqşünaslar bu məsələyə xüsusi diqqət etmiş və hədəfsiz hüququn mövcudluğuna şübhə ilə yanaşmışlar. Onların fikrincə, "hüquq hər hansı bir əməli araşdıranda və nizam-intizam tələblərini irəli sürdükdə hədəfə söykənir" (13, 462-463). Digər mənbədə isə yazılır ki, "haqqın cövhərini məhz hüququn hədəfində axtarmaq lazımdır" (12, 116).

Burada mühüm bir məsələyə diqqət etmək lazımdır. Yuxarıda qeyd olundu ki, hüququn hədəfini təkcə ədalətlə məhdudlaşdırmaq olmaz. Əlbəttə, hüququn hədəfini təkcə ədalətlə deyil, hətta hüquqla da məhdudlaşdırmaq olmaz, çünki dövlətin tənzimlədiyi hüquq və ona daxil olan qaydaların yaranması və necəliyi daha çox təsirə malik olmaqla dövlət və hüququn rəhbəri və yolgöstəricisidir. Hüquqi hədəfin üstünlüyü ondadır ki, həm hüququn və həm də dövlətin istiqamətvericisi omaqla, həm də bunlara rəhbərliyi öhdəsinə götürür. Elə buna görə də hüququn hədəfini müəyyən etmədən hüququn tələblərini tanımaq qeyri-mümkündür. Amma təəssüflər olsun ki, hüququn mahiyyətini və onun prinsiplərini əsaslandıran belə bir mövzuya diqqət olunmur. Daha dəqiq desək, hüquqla bağlı olan bir çox dəyərli əsərlərdə hüququn prinsiplərindən danışılır amma hüquq nəzəriyyəsinin əsil mövzusu olan *hüququn hədəfi* kənarda qalır. Əlbəttə, burada təkcə hüququn hədəfi deməklə məsələ həllini tapmır, yəni bu mövzu, mövzu olaraq dərindən təhlil olunmalıdır. Mövzunun diqqət çəkməməsi bəlkə də hüquqşünasların daha çox praktiki məsələlərin təhlilinə diqqət etmələridir, nəinki hüququn fəlsəfi tərəflərinə. Filosoflar hər hansı bir məsələnin kökün araşdırır və bu mövzu da (hüququn hədəfi) birbaşa olaraq hüququn daxilinə nüfuz etdiyi üçün filosofları daha çox düşündürmüşdür.

**Nəticə**

İslam dinində hüququn fəlsəfi təhlilindən bəs edərkən belə nəticəyə gəlmək olar ki, ümumiyyətlə, bütün dinlərdə varlıqlara mənsub olan haqlar bəşər həyatının formalaşmasında və ictimai inkişafında mühüm şərtlərdən biri

hesab olunur. Elə buna görə də din və hüquq arasında olan ayrılıq yolverilməzdir, çünki bunların ikisinin də hədfi eynidir. İlahi tərəfindən bütün canlılar üçün yaradılan haqlar insana real həyatın qayda-qanunlarına yiyələnməkdə yardım edir, mənəvi dəyərləri və keyfiyyətləri anladır, insana azad düşüncəni, yüksək mədəniyyətə, elmə sahib olmağı aşılayır və ən əsası isə insanı yaşadığı dövr üçün şəxsiyyət kimi hazırlayır. İslam hüququna əsasən haqqa riayət etmək mənfi amillərin və insanlığa zidd olan məsələlərin qarşısını alır, insanlar arasında münasibətləri tənzimləyir və bunların həlli yollarını göstərir, ən əsası isə bütün bəşəriyyəti doğru, vahid birliyə sövq edir. Dini normativlərdən məqsəd təkcə o deyil ki, insanlar layiq olduğu haqqa sahib olsunlar, bəlkə əsas məqsəd ondan ibarətdir ki, bəşəriyyətə mənsub olan hüquqi normalar mövcud aləmdə hakim olsun. Bu normativlərin üstünlüyü ondadır ki, təkcə bunları deməklə kifayətlənmir, bunlara riayət olunmasını təkid edir. İslam hüququnun əsas hədəfi insana lazım olan yaşayış qaydalarını göstərmək, bunlara həm sözdə və həm də əməldə riayət olunmasına səy göstərməkdir. İslam dinində mövcud olan normativlər və bu normativləri əhatə edən məsələlər bəşəriyyətin dəyərləndirilməsi üçündür və ən əsası isə sabit və dəyişməz ayələrə müraciət etməklə ictimaiyyətdə insan varlığını inkişaf etdirmək və insan simvolunu yaratmaqdır.

## ƏDƏBİYYAT


***İngilis dilində***

1.(1).Ancient Hebrew Torah. (The Holy Scriptures). America. Lakeside Press, Chicago, 1917.
2.(4).Charles de Secondat, Baron de Montesquieu. The Spirit of Law. Translated from the French, by Thomas Nugent, New York, 1900.
3.(3).Friedrich, Carl Joachim. The Philosophy of Law in Historical Perspective. The University of Chicago Press, Chicago, 1969.

***Ərəb və Fars dillərində***

4.(13).Klaude Du Pasquier. Ümumi nəzəriyyə və hüquq fəlsəfəsinin müqəddiməsi. Fransız dilindən fars dilinə tərcümə edən: Əli Muhəmməd Təbatəbai. Naşir: "Buzərcumhuru", Tehran, 1332.
5.(7).Fərəcullah Xudapərəsti. Maarifləndirmə lüğəti. Müasir mədəniyyət nəşiyyatı, İkinci nəşr, Tehran, 1388.
6.(6).Həsən Keyir. Qanunların başlanğıcı. İskəndəriyyənin maarifləndirmə mərkəzi, beşinci nəşr (tarixsiz).
7.(9). Qurani-Kərim. (Ayələrin tərcüməsi müəllifə məxsusdur).
8.(5).Məhəmməd Hüseyin Sakit. Hüquq elmi. Məşhəd 1371.
9.(8).Mustafa Daneşpəju və Qudrətullah Xusruşahi. İslam hüquq quruluşu. Tehran, 1388.
10.(10).Müstafa Muhəqqeq Damad. Din, Fəlsəfə və Qanun. Tehran, 1378.
11.(12).Nasir Katuzyan. Hüququn fəlsəfəsi. Naşir: Səhmdar şirkəti. Tehran, 1388.
12.(2).Sakit Məhəmməd Hüseyn. Hüququn fəsəfəsinə tarixi baxış. Naşir: Müasir dünya, Tehran, 1370.
13.(11).Seyyid Muhəmməd Hüseyin Təbatəbai (Əllamə Təbatəbai). Əl-Mizan (Qurani-Kərimin təfsiri). İsmail mətbuat mərkəzi. Qum, 1386.

## РЕЛИГИЯ И ПРАВА: ФИЛОСОФСКИЙ АНАЛИЗ ВОПРОСОВ ПРАВА В ИСЛАМСКОЙ РЕЛИГИИ

**А.Н.ПАШАЕВА**

**РЕЗЮМЕ**

Во все времена существовали нормативы религии и права, которые являются составной частью культуры. Исторические корни данных нормативов, воспевающих человека и человечество и защищающих гуманизм, относятся не к исламскому периоду, но к более древним временам. Целью возникновения человечества и его власти на земле является защита всех существующих ценностей. С этой точки зрения исламская религия обратила особое внимание на данные вопросы, подходя к присущиму всему живому правам (нормам) с разных сторон и более углубленно.

В статье отмечаются нормативы права в иудаизме, христианстве и, что самое важное, правовые вопросы в исламской религии анализированы в философском направлении в теориях как исламских правоведов (факих-исламское юрист), так и исламских и западных философов.

**Ключевые слова:** религия, исламская религия, Коран, исламское право, философия права, общественность.

## RELIGION AND LAW: PHILOSOPHICAL ANALYSIS OF LAW IN ISLAM RELIGION

**A.N.PASHAYEVA**

**SUMMARY**

An integrated part of culture religious and legal norms have existed for all times. The historical roots of these norms glorified human and humanity and defended humanism belonging not only to Islamic era but also ancient times. The purpose of man's existence and domination over the earth is the protection of humanity and the existent values. In this regard, Islam religion pays particular attention to rights (norms) belonging to all living things from different sides and deeper approach.

In the article, we denoted legal norms in Judaism, Christianity, and the legal issues of Islam have been philosophically analyzed according to the theory of Islam lawyers (fagih) and Islam and Western philosophers.

**Key words:** Religion, Islam religion, The Holy Quran, Islamic right, Philosophy of Law, Community.

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Sosial-siyasi elmlər seriyası 2018*

**UOT 339.9**

# İNKLÜZİV İNKİŞAF PARAMETRLƏRİN TƏHLİLİ

**S.M.HÜSEYNOVA**
***Bakı Dövlət Universiteti***
***sarahuseynova@gmail.com***

*Məqalədə inklüziv inkişaf parametrləri təhlil olunub və hər bir parametrin ayrı- ayrılıqda ölkənin inklüziv inkişaf indeksinə təsiri şərh olunub. Bu indikatorların müqayisəli təhlili verilmiş, onların öyrənilməsində ekonometrik yanaşmaların vacibliyi qeyd olunmuş, proqnoz – analitik hesablanma sistemindən istifadə etməklə dayanıqlı iqtisadi inkişafın təmin olunması şərtləri göstərilmişdir.*

**Açar sözlər:** inklüziv inkişaf indeksi, iqtisadi artım, dayanıqlı inkişaf, parametr

İnklüziv inkişaf davamlı iqtisadi inkişafın elementi hesab edilir.İnklüziv inkişaf ölkənin həm iqtisadi sahələrini, həm də sosial sahələrini, habelə cəmiyyətin inkişafının bütün sahələrini əhatə edir. İnklüziv inkişafın parametrlərinin müsbət artımı ölkənin bütün sahələrində nəzərə çarpan olur.

Ölkənin inklüziv inkişafının səviyyəsi xüsusi əmsal əsasında müəyyən edilir. Bu əmsal inkişaf etmiş və keçid iqtisadiyyatına malik ölkələr üçün ayrılıqda hesablanır. Bu indeksin hesablanması zamanı yalnız adambaşına düşən gəlirin artımı deyil, həmçinin ölkədə həyat səviyyəsi, yoxsulluqla mübarizənin səmərəliliyi, əhalinin müxtəlif təbəqələri arasında gəlirlərin bölünməsi xüsusiyyətini xarakterizə edən 12 digər parametrlər nəzərə alınır.

İnklüziv inkişaf indeksinin hesablanması zamanı nəzərə alınan parametrlərə, həmçinin davamlı inkişaf indikatorları da daxildir. Bunlara əhalinin şəxsi əmanətlərinin səviyyəsi, qlobal iqlim dəyişikliklərinə təsirlər, ölkənin demoqrafik siyasətinin xüsusiyyəti, xarici borcun həcmi və s. aiddir.

Əgər inklüziv inkişaf təmin olunmursa, onda ölkənin iqtisadi artımı, habelə ÜDM-in artımı azalacaq. İnklüziv inkişaf parametrlərinin aşağı düşməsi ölkə iqtisadiyyatının diversifikasiyasında çatışmazlığın nəzərə çarpması və ölkənın rasional investisiya mühitində təhlükələrin yaranmasını özündə əks etdirir. Buna əsasən, demək olar ki, inklüziv inkişaf indeksi investisiya mühitinin təhlilində əsas göstərici kimi qiymətləndirilir.

Dayanıqlı iqtisadi inkişafı xarakterizə edən göstəricilər aşağıdakılardır: Sosial-iqtisadi inkişaf; Dayanıqlı istehlak və istehsal; Sosial tendensiyalar;

Demoqrafik dəyişikliklər; Səhiyyə; İqlim dəyişikliyi və enerji; Nəqliyyatın dayanıqlı inkişafı; Təbii resurslar; Qlobal tərəfdaşlıq; Səmərəli idarəetmə göstəriciləri. Qeyd olunan göstəricilər ölkənin inklüziv inkişafının parametrlərinə aiddir və bu parametrləri ayrı-ayrılıqda təhlil edək.

İnklüziv inkişaf indeksi olan insan kapitalı ölkədə insan inkişafındakı müsbət dəyişikliklərin təmin olunmasında müstəsna əhəmiyyətə malikdir. Münasib iş yeri, yetərli əməkhaqqı, mövcud işin itirilməməsi, fiziki təhlükəsizlik və sosial müdafiə başda olmaqla bir sıra amilləri özündə ehtiva edir.

Xarici ədəbiyyatlarda iqtisadçılar inklüzivlik anlayışını geniş şəkildə izah edirlər. Müxtəlif ölkələrin iqtisadi inkişaf təcrübəsi davamlı və stabil iqtisadi artımın əsasən qeyd edilən keyfiyyət amilləri ilə əlaqədar olduğunu göstərirlər. İqtisadi artımı yüksəldən amillər cəmiyyət ilə əlaqəli olmalıdır. Bu baxımdan insan kapitalının davamlı inkişafı, məhsuldarlıq səviyyəsinin yüksəldilməsi, yüksək əlavə dəyərli məhsul istehsalı, ixtisaslaşma, yeni texnologiyalardan yararlanma, iqtisadiyyatın innovasiya qabiliyyətinin inkişafı kimi faktorlar ön plana çıxmışdır [3, 116-117].

Neft ixracı potensiallı ölkələrin iqtisadiyyatının davamlı inkişafının təmin edilməsi, makroiqtisadi sabitliyin qorunub saxlanılması, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sahələrinin və regionların inkişafının sürətləndirilməsi, özəl bölmənin inkişafı üçün azad rəqabət və əlverişli investisiya mühitinin yaradılması istiqamətində görülən işlər inklüziv inkişaf indeksinin artmasına səbəb olmuşdur [5, 87-92].

İnklüziv inkişaf indeksində qeyri-neft sektorunun inkişafı sənayenin innovativ modernləşdirilməsi, ərzaq təhlükəsizliyinin qorunması ölkənin həm sosial, həm də iqtisadi inkişafına təsir edir. Sənaye siyasətinin əsas məqsədlərinin reallaşdırıması ölkədə sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi, qeyri-neft sənayesinin gücləndirilməsinə təkan verir.

Ölkədə ixrac potensialının artırılması, enerjidən səmərəli istifadə, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi, elmitutumlu və innovativ istehsalın genişləndirilməsi və yeni istehsal sahələri üçün ixtisaslı kadrların hazırlanması iqtisadi artım parametrlərinin qiymətləndirilməsində müsbət tendensiyalara səbəb olur [9, 24-30].

Sənaye siyasətinin inkişafı istehsalın və ixracın diversifikasiyasının sürətləndirilməsi istiqamətlərində sistemli və ardıcıl tədbirlərin həyata keçirilməsini şərtləndirir.

İnklüziv inkişafın əsas şərtlərindən biri də əhalinin sağlam həyat tərzidir. Əhalinin qidalanma və başlıca gəlir mənbələrindən birini təşkil edən kənd təsərrüfatı məhsullarının yetərli miqdarda və yüksək keyfiyyətdə istehsal edilməsi insanların sağlamlığı və rifahı üzərində müsbət təsirlər yaradaraq insan inkişafına yol açır. Dünya əhalisinin son 50 ildə və gələcəkdə sürətlə artımı nəzərə alındığı zaman ərzaq təhlükəsizliyi problemi ilə mübarizə ön plana çıxmaqdadır.

Demoqrafiq siyasət inklüziv inkişaf indeksinə daxil olan parametrlərdən

biridir və davamlı inkişafın təhlilində dominant faktor kimi qiymətləndirilir. Ölkədə demoqrafik vəziyyətin yaxşılaşdırılması, əhalinin orta ömürlülüyünün artırılması və digər demoqrafik məsələlərin tənzimlənməsi təşkil edir.

Ölkədə demoqrafik siyasət əhali artımının təmin edilməsinə yönəlmiş iqtisadi, sosial və hüquqi tədbirlər sistemindən ibarətdir. Ailə-nikah, doğum, ölüm, əhalinin sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi, əməkqabiliyyətli əhalinin məşğulluğu və həyat səviyyəsinin yaxşılaşdırılması, miqrasiyası və s. bu kimi prosesləri özündə birləşdirən demoqrafik siyasətdə başlıca məqsəd, demoqrafik hadisələrə təsir göstərən ən mühüm amilləri nəzərə alaraq, cəmiyyətin və onun hər bir üzvünün mənafeyinə uyğun olan, əhalinin normal təkrar istehsalı prosesini təmin edən şəraitin yaradılmasına nail olmaqdır [4, 116-117]. Bu şərait təmin edilmədikdə ölkədən insan axını sürətlənir. Məsələn, son illərdə Ukraynada orta hesabla 1.5 milyon əhali tərk edib, onlar güzəranlarının yaxşılaşdırılması üçün Avropa ölkələrinə miqrasiya olunurlar.

Ölkənin İqtisadi inkişafı onun iqtisadiyyatı və istehsal qüvvələrinin artımı, təhsil, elm və mədəniyyətin, insanların həyat səviyyəsinin müntəzəm olaraq keyfiyyət və struktur baxımından müsbət istiqamətdə dəyişməsi ilə xarakterizə olunan iqtisadi prosesdir. İqtisadi inkişaf, həm də ictimai əlaqələrin inkişafını nəzərdə tutur və buna görə də tarixən formalaşmış texnoloji və maddi nemətlərin bölgüsünün müxtəlif sistemlərində bir-birindən fərqlənir [5, 12-16].

Ölkədə dayanıqlı iqtisadi inkişafın təmin edilməsinə təsir edən inklüziv parametrlər sistemində təhsil sahəsinin və səhiyyənin inklüzivlik parametrləri mühüm yer tutur.

Təhsilin inklüzivliyi bütün təhsil sahəsində maddi-texniki bazanın gücləndirilməsi, tədris şəraitinin yaxşılaşdırılması, təhsil sahəsində informasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi və məktəb kitabxanalarının fəaliyyətinin təkmilləşdirilməsi əsas prioritet istiqamətlər olmalıdır. Yüksək ixtisaslı kadrların hazırlanması, insan kapitalının inkişafı, təhsil sahəsinin gələcək proqressiv inkişafıdır.

Təhsilin dayanıqlı inkişafı təhsil sahəsində maliyyələşdirmənin dayanıqlı və adekvat olmasını təmin edən, səmərəli və nəticəyönümlü yeni modelinin qurulması ölkənin sosial mühitinin inkişafına istiqamətlənir. Təhsil müəssələrində peşəkarlığın inkişafında beynəlxalq təhsil sistemi üzrə inkişaf etmiş ölkələrin təhsil sisteminə uyğun yeni modellərin qurulması əsas götürülür.

Səhiyyə sahəsində inklüzivlik ilkin səhiyyə xidmətlərinin gücləndirilməsi, əhalinin sağlamlığının monitorinqinin genişləndirilməsi məqsədilə məlumat informasiya sisteminin təkmilləşdirilməsi, tibbi sığorta sisteminin yaradılması, səhiyyənin maliyyələşdirilməsi sahəsində islahatların aparılması, tibbi təhsilin islahatı və dövlət sanitariya-epidemioloji nəzarətinin təkmilləşdirilməsi və fövqəladə vəziyyətlərə qarşı hazırlığın gücləndirilməsindən ibarətdir.

Səhiyyə göstəricilərinə əhalinin çinsi üzrə ömür uzunluğu, əhalinin cinsi üzrə xroniki xəstəliklərdən ölum halları, əhalinin cins və yaş qrupları üzrə özünə qəsd hallarının sayı, gəlirlərin səviyyəsi üzrə tibbi müayinə və müalicəyə

olan tələbatın ödənilməsi, havanın bərk maddə tullantıları ilə çirklənməsinin şəhər əhalisinə təsiri, istehsalatda bədbəxt hadisələr aid edilir [10, 5-10].

Nəqliyyat sahəsində inklüzivlik nəqliyyat sektorunun inkişafı, ölkə üzrə nəqliyyat-kommunikasiya trafikinin və əsas nəqliyyat vasitələrinin dünya standartlarına uyğun modernləşdirilməsi və müasirləşdirilməsi əsasında milli nəqliyyat-yol sisteminin dünya kommunikasiya məkanına inteqrasiyasıdır. Ölkə ərazisində, xüsusilə limanlarda xüsusi iqtisadi zonaların yaradılması , beynəlxalq dəmiryol layihələrinin həyata keçirilməsi iqtisadi artımı inkişaf etdirən sahələrdir.

Nəqliyyat göstəricilərinə yükdaşımaların həcminin ÜDM-ə nisbəti, sərnişin daşınmasının həcminin ÜDM-ə nisbəti, nəqliyyat növləri üzrə enerji istehlakı və s. aid edilir.

Ölkədə investisiya mühitinin yaxşılaşdırılması, ilk növbədə birbaşa xarici investisiya layihələrinin inkisaf etdirilməsi əsas inklüziv inkişaf indeksinə təsir edən parametrdir. Yüksək texnologiyaların ölkəyə gətirilərək, uyğun müəssisələrin qurulması təşviq olunmalıdır. Məsələn, Azərbaycan Respublikası üçün investisiyaların böyük qismi neft sahəsinə yönəldilməklə yanaşı, qeyri-neft sahələrinə edilən kapital qoyuluşu da, inkilüziv inkişaf indeksini yüksəldir. Sərbəst ticarət bölgələrinin yaradılması qısa müddətdə milli iqtisadiyyat üçün gəlir gətirir. Bunun üçün xarici iqtisadi əlaqələrin inkişaf etdirilməsi də lazımlıdır. Ölkənin xarici iqtisadi əlaqələrinin əhəmiyyətli istiqamətlərindən biri yerli iqtisadi inteqrasiya qruplarına qatılmasıdır. Birgə müəssisələrin qurulması ölkənin inkişafına köməkçi olur, iqtisadi inkişafı sürətləndirir.

Səmərəli idarəetmə göstəriciləri də inklüziv inkişaf indeksinə təsir edən parametrdir. Dövlət idarəçiliyi, o cümlədən səmərəli dövlət idarəçiliyi cəmiyyətin aparıcı qüvvələrinin daim diqqətini cəlb etmişdir. Digər idarəetmə formalarından fərqli olaraq, dövlət idarəçiliyi dövlət hakimiyyəti və orqanlarının köməyilə həyata keçirilir.

Səmərəli idarəetmə göstəriciləri kimi büdcə kəsiri, fiziki şəxslərin elektron hökumətdən istifadəsi, ekoloji, əmək və sosial ödəmələrin ümumi ödəmələrin həcmində payı, vətəndaşların dövlət idarəetmə institutlarına etimad səviyyəsi dinamik təhlil olunmaqla, yeni idarəedici qərarların qəbul edilməsini şərtləndirir.

Dövlət idarəçiliyinin həyata keçirilməsində mərkəzi yerdə onun daxili və xarici siyasəti dayanır. Bu baxımdan, dövlət idaərçiliyi problemi daha mürəkkəb xarakter daşıyır. İnsan maraqlarının hər şeydən öndə dayandığı demokratik cəmiyyətdə səmərəli dövlət idarəçiliyi problemi daha vacib məsələ kimi qarşıda dayanır.

Rus tədqiqatçılarından Atamançuk Q.V., Menninq E., Buqanova E.O., V.Q.Aseev dövlət idarəetməsinin səmərəliliyinə dair maraqlı tədqiqatlar həyata keçirmişlər. Q.V.Atamançukun elmi işlərində dövlət idarəetməsinin əsas prinsiplərinin və dövlət qulluqçusunun peşəkarlıq dərəcəsinin, bilik səviyyəsinin, psixoloji durumunun bu sahənin səmərəli idarəolunmasına təsiri geniş şəkildə

araşdırılmışdır.

Bundan əlavə dövlət idarəetməsində səmərəliliyin artırılması prosesinə bir texnoloji proses kimi yanaşılmasına S.L.Rubenşteynin əsərlərində böyük diqqət ayrılmışdır. Müəllifin fikirlərinə görə dövlət idarəçiliyinin həyata keçirilməsində prioritet rolu siyasi rəhbərlik və sosial qrupların və vətəndaşların ictimai maraqlarının ümumiləşdirilmiş ifadəsi olan siyasət oynayır. Bu baxımdan, dövlət idarəçiliyinin səmərəliliyi kriteriyalarının müəyyənləşdirilməsi siyasi subyektin fəaliyyətinin idarəedici elementini ifadə edir. Bu da təbii ki, özündə müəyyən siyasi aspektləri əks etdirir.

İqlim dəyişikliyi parametri inklüziv inkişaf indeksinə təsir göstərir. Qlobal iqlim dəyişikliklərinə təsirlərin azaldılması hazırda bəşəriyyət qarşısında duran vacib məsələlərdəndir. Bununla bağlı olaraq, inklüziv inkişaf indeksi hesablanarkən istehsal olunmuş bir vahid ÜDM-ə görə atmosferə istixana qazları tullantısının intensivliyi nəzərə alınır [7, 27-35].

Davamlı İnkişafın məqsədi qlobal iqlim dəyişikliklərinə təsirlərin azaldılması üzrə tədbirlərin zəruriliyini önə çəkir. Davamlı inklüziv inkişaf proseslərinin idarə edilməsinin innovativliyi və səmərəliliyi bu göstəriciyə əsasən qiymətləndirilir.

Təbii resurslar olmadan məhsul və xidmətlərin istehsalı mümkün deyil, deməli, istehsal və istehlak nəticə etibarilə resursların azalmasına, tullantıların əmələ gəlməsinə və daim artmasına gətirib çıxarır.

Təbii resurslar sinfinə biomüxtəliflik, quşların sayının dəyişmə indeksi, yerüstü və yeraltı suların ümumi su ehtiyyatlarında payı, şəhərlər üzrə çirkab suların təmizlənmə səviyyəsi, çayların oksigenə olan biokimyəvi tələbatı, təhlükəsiz bioloji zonalardan kənarda yerləşən ehtiyyatlardan balıq ovu, balıqçılıq donanmasının həcmi aid edilir [9, 100-121].

İqtisadi inkişaf iqtisadi artımdan daha geniş məvhum olmaq etibarilə özündə həm də sosial ekoloji mənəvi və s. kimi digər amilləri də birləşdirir. Amma birmənalı olaraq qəbul etmək olar ki, ölkədə iqtisadi inkişafa nail olmağın ən mühüm şərti ilk növbədə iqtisadi artımın davamlılığının təmin edilməsidir. Qeyd edək ki, istənilən iqtisadi artım uzunmüddətli iqtisadi inkişafı təmin edə bilməz və bu məqsədlə dinamik tarazlı iqtisadi artımın əldə edilməsi olduqca vacibdir.

İnklüziv parametrləri təhlil etmək üçün ilk növbədə İnklüziv inkişafın qiymətləndirilməsi üçün beynəlxalq qurumlar tərəfindən xüsusi indeks hesabanır. Həmin indeksin qiymətləndirilməsi zamanı kompleks parametrlərdən istifadə edilir. Bu parametrlər həm iqtisadi, həm də sosial parametrlərdir. İnklüziv inkişafın qiymətləndirilməsi üçün iqtisadi artım və adambaşına ÜDM-in qiymətləndirilməsi əsasında inkişafın xarakteri, məşğulluq, sağlamlıq və gözlənilən ömür müddəti səviyyəsi nəzərdən keçirilir.

Xarici borc göstəriciləri də ölkənin inklüziv inkişaf indeksinə təsir edir. İqtisadi göstərici kimi ÜDM-in ümumi həcmində xarici borcun payını xarakterizə edən ölçü vahidi çıxış edir.

Sosial inkişaf parametri kimi əhali və ev təsərrüfatlarının gəlirlərinin dinamikası kimi göstəricilərdən istifadə edilir. Bu zaman əhali gəlirlərinin dəyişmə dinamikasının qiymətləndirilməsi üçün gəlirlərin orta göstəriciləri deyil, median gəlirlərin dəyişimi xarakterizə olunur. Median gəlirlər əhalinin real gəlirlərinin vəziyyətini onların orta göstəricilərindən daha aydın əks etdirir [2, 8-10].

Yoxsulluq həddinin dəyişməsi göstəriciləri, həmçinin əhali arasında gəlirlərin bölünməsi xarakteristikası da inklüziv inkişaf indeksinin hesablanması zamanı nəzərə alınan indikatorlardır. Sonuncu indikatorun kəmiyyət göstəricisi kimi Cini indeksindən istifadə edilir.

İnklüziv inkişaf indeksinin hesablanması zamanı əhalinin asılılıq səviyyəsi kimi demoqrafik göstəriciyə də müraciət edilir. Eyni zamanda qeyd olunan indeksin hesablanması üçün qlobal iqlim dəyişiklikləri kimi problem də diqqətdən kənarda qalmır [8, 10-16].

Yuxarıda göstərilənləri nəzərə alaraq belə bir nəticəyə gəlmək olar ki, inklüziv inkişafın parametrlərinin indeksini hesablayarkən ölkənin həm iqtisadi, həm də sosial indikatorlarını analiz etmək və müqayisəli təhlilini şərh etmək əsas məsələlərdən biridir. Həmçinin göstərilən indikatorlar ölkənin dayanıqlı inkişafını xarakterizə edən parametrlər olduğundan, parametrlərin artıb və azalmasını müqayisəli təhlilini aparmaq üçün ekonometrik modellər qurmaqla proqnoz-analitik şərhlər vermək lazımdır.

## ƏDƏBİYYAT


1. Алакбаров У.К. Формирование в Азербайджанской Республике кадрового потенциала для инновативного управления процессами устойчивого развития: процесс и результаты. Журнал «Проблемы управления». Минск.: Академии управления при Президенте Республики Беларусь, 2017, № 4 (66), с. 19-23.
2. Экология и экономика природопользования. Учебник для ВУЗов, Под ред. проф. Е.Б.Грушева, проф. Б.Н.Лопатина. 2-е изд., перераб. I доп. М.: ЮНИТИ-ДАНА, Единство, 2003, 519 с
3. Полтерович В. Гипотеза об инновационной паузе и стратегия модернизации // Вопросы экономики, 2009, №6, с. 4–22
4. Пахомова Н.В. Рихтер К.К., Малышков Инклюсивный устойчивый рост: приоритеты, индикаторы, международный опыт, потенциал согласования с моделью реиндус. с. 10.
5. Макконнелл К.Р., БРЮС. Л. 14 издание. ЭКОНОМИКС. М.: Инфа-М, 2005
6. Мировая миграция в цифрах. Совместный доклад Департамента по экономическим и социальным вопросам ООН (ДЭСВ) и ОЭСР для Диалога высокого уровня по миграции и развитию ООН, 3-4 октября 2013 г. // https://www.oecd.org/els/mig/RUSSIAN.pdf
7. Спенс М. 2013. Следующая конвергенция. Будущее экономического роста в мире, живущем на разных скоростях. М.: Изд-во Института Гайдара. 336 с.
8. Inclusive Green Growth: The Pathway to Sustainable Development. The World Bank. Washington, D.C. 2012. URL: https:// openknowledge.worldbank.org/bitstream/
(дата обращения: 17.06.2014).
9. "Gender Disproportion and Society Integration", Anita Kleinberga Secretariat of Special Assignment Minister for Society İntegration Latvia.

## АНАЛИЗ ПАРАМЕТРОВ РАЗВИТИЯ ИНКЛЮЗИВНОСТИ

**С.М.ГУСЕЙНОВА**

**РЕЗЮМЕ**

В статье анализируются инклюзивные параметры роста и интерпретируется для каждого параметра, который будет индивидуально отражаться на инклюзивных индексах роста страны. Приводится сравнительный анализ этих показателей, показана важность эконометрических подходов к их исследованию и показаны условия для устойчивого экономического развития с использованием прогнозно-аналитических расчетов.

**Ключевые слова:** инклюзивный индекс развития, экономический рост, устойчивое развитие, параметр.

## ANALYSIS OF INCLUSIVE DEVELOPMENT PARAMETERS

**S.M.HUSEYNOVA**

**SUMMARY**

In the article, inclusive growth parameters are analyzed and interpreted for each parameter, which will be individually reflected in inclusive growth indices of the country. A comparative analysis of these indicators is presented, the importance of econometric approaches to their study is shown and the conditions for sustainable economic development are shown using predictive-analytical calculations.

**Keywords:** inclusive development index, economic growth, sustainable development, parameter.

**UOT 130.1**

# TARİX FƏLSƏFƏSİ VƏ HUMANİTAR ELMLƏRİN FƏLSƏFİ ƏSASLARININ TƏŞƏKKÜLÜ

**Z.Q.MƏMMƏDƏLİYEV**
***Azərbaycan Dövlət İqtisad Universiteti***
***zakirm57@mail.ru***

*Humanitar-elmi biliyin təbiətinə dair ilk fəlsəfi konsepsiyanın öz ifadəsini Maarifçiliyin tarix fəlsəfəsi zəminində formalaşmış naturalist paradiqmada tapdığı əsaslandırılır. XIX əsrin ikinci yarısında maarifçilərin rasionalist tarix fəlsəfəsinin neokantçılar və "həyat" fəlsəfəsi tərəfindən tənqidi humanitar elmlərə naturalist-pozitivist yanaşmanın yararsızlığını dərk etmək üçün əlverişli zəmin kimi dəyərləndirilir. Universal təkamül konsepsiyasından imtina edilməsi humanitar elmlərə qeyri-klassik tarix fəlsəfəsi kontekstində meydana çıxmış yanaşmaların səciyyəvi xüsusiyyəti hesab edilir.*

**Açar sözlər:** tarix fəlsəfəsi, naturalist məktəblər, "həyat" fəlsəfəsi, neokantçılar, universal təkamül konsepsiyası, hermenevtika.

Humanitar elmlərin fəlsəfi əsasları haqqında ilk təsəvvürlər Yeni dövrün tarix fəlsəfəsi zəminində təşəkkül tapmışdır. Tarix fəlsəfəsinin əhatə dairəsini təşkil edən problematika Qədim yunan-roma fəlsəfəsinə (antik fəlsəfəyə) tamamilə yad idi, belə ki, bizim üçün səciyyəvi olan tarix anlayışı antik mədəniyyətə tanış deyildi. "Tarixin atası" Herodot üçün tarix müxtəlif xalqların adət-ənənələrini, məişətini və məşğuliyyətini təsvir edən, bir-biri ilə heç bir daxili əlaqəsi olmayan hekayətlər toplusu idi. Tarixə bütün bəşəriyyəti əhatə edən vahid bir *proses* kimi yanaşma antik mədəniyyətə tamamilə yad olan bir dünyagörüşünün məhsuludur. Bu dünyagörüşünün əsasları eramızın ilk əsrlərində xristian monoteizmi zəminində formalaşmağa başladı.

Tarixi şüurun mövcudluğu üçün ilkin şərt keçmiş, indi və gələcək arasındakı keyfiyyət fərqinin dərk edilməsidir. Xristianlıq Allah-oğulun insanda (İisus Xristosun simasında) təcəssüm etməsini o vaxta qədər baş vermiş bütün hadisələrdən mahiyyətcə fərqləndirir; bu hadisənin baş verməsilə zaman bir-birindən keyfiyyətcə fərqlənən iki hissəyə parçalanır: bu hadisədən keçmişdə baş verənlər və sonra, gələcəkdə baş verəcək hadisələr. Beləliklə, Allahın insanda təcəssümü zaman oxunda fundamental bir hadisə kimi anlaşılır və özünün dərk edilməsi üçün insan nəslinin bütün keçmişinin tarixi baxımdan nəzərdən keçirilməsini tələb edir.

Digər tərəfdən, varlığa keçmişdən gələcəyə doğru istiqamətlənmiş tarixi proses kimi yanaşmanın formalaşmasına xristianlıqda dünyanın sonu haqqında esxatoloji təsəvvürlərin geniş yayılması da böyük təsir göstərmişdir. Xristianların İsa peyğəmbərin ikinci dəfə zühur edərək, haqqın divanını quracağı məşhər (qiyamət) gününü gərgin bir intizar içində gözləməsi zamanın gedişini bəşəriyyətin ali məqsədinə yetişməyə yönəlmiş proses kimi qavramaq üçün əlverişli zəmin yaratdı. Beləliklə, xristian dini dünyagörüşü çərçivəsində yüksələn xətt üzrə keçmişdən gələcəyə doğru istiqamətlənmiş zaman haqında yeni təsəvvürlərin meydana çıxması insan və cəmiyyət həyatına tarixi proses kimi yanaşmanın təşəkkül tapmasında həlledici rol oynadı [3]. Tarix fəlsəfəsi, ilk dəfə olaraq, məhz bu yanaşma çərçivəsində formalaşdı. Onun ilk nümunəsini erkən orta əsrlərin görkəmli xristian ilahiyyatçısı və dini fəlsəfənin yaradıcılarından biri olan Avreli Avqustin irəli sürdü.

Lakin bu dövrdə tarixə keçmişdən gələcəyə doğru istiqamətlənmiş proses kimi yanaşmanın, dini zəmində olsa belə, konseptual əsasları təşəkkül tapsa da, tarix haqqında bu yeni təsəvvürlərin insanların şüurunda kök salması üçün orta əsrlər feodal cəmiyyətinin mənəvi-intellektual və təsərrüfat-iqtisadi fəaliyyət formaları əlverişli deyildi. Orta əsrlər cəmiyyəti ənənələrə möhkəm tellərlə bağlı olan bir cəmiyyət idi. Ənənələrin cəmiyyətin mənəvi və maddi həyatı üzərindəki sərt hökmranlığı yeniliklərin meydana çıxması və dəyişkənlik meyllərinin dərinləşərək, davamlı prosesə çevrilməsinə imkan vermirdi. Digər tərəfdən, orta əsrlər aqrar cəmiyyətinin təsərrüfat-iqtisadi fəaliyyət formaları inkişaf ideyasını və onun əhəmiyyətini anlamaq üçün əlverişli deyildi: bu cəmiyyətdə inkişafa və ictimai-iqtisadi fəaliyyət tempinin yüksəlməsinə sosial tələbat, sadəcə olaraq, mövcud deyildi. Mədəni və sosial-iqtisadi həyat sferalarında dəyişikliklərin son dərəcə ləng baş verməsi sosial gerçəkliyə bir proses kimi yanaşan təsəvvürlərin geniş yayılmasına mane olurdu.

İntibah dövründən başlayaraq, bu sahədə vəziyyət kökündən dəyişməyə başladı. XV-XVI əsrlərdən başlayaraq, Avropada sənətkarlığın və ticarətin inkişafı, eləcə də kapitalist münasibətlərinin tədricən təşəkkül tapması iri şəhərlərin meydana çıxmasına səbəb oldu. Orta əsrlər aqrar cəmiyyətinin zamanın gedişinə etinasız münasibətindən fərqli olaraq, iri şəhərlərdə sosial-iqtisadi və mədəni həyat templəri kəskin şəkildə yüksəlməyə başladı. Dəyişkənlik və inkişaf ideyaları şüurlara getdikcə daha çox nüfuz edir, bu isə öz növbəsində orta əsrlərdə dini dünyagörüşü zəminində formalaşmış tarixi proses haqqında təsəvvürlərin geniş yayılması üçün əlverişli sosiomədəni mühit yaradırdı. Cəmiyyətin mənəvi-intellektual və sosial-iqtisadi həyat sferalarında baş verən köklü dəyişikliklər öz nəticələrini çox gözlətmədi: XVII əsrdən başlayaraq, Avropada kilsənin göstərişlərinə deyil, rasional düşüncəyə istiqamət götürmüş dünyəvi cəmiyyət formalaşmağa başladı.

Rasional-elmi düşüncəyə istinad edən dünyəvi cəmiyyətin meydana çıxması orta əsrlərdə dini dünyagörüşü zəminində formalaşmış tarix fəlsəfəsinin məzmununda əsaslı dəyişikliklər yaratdı. Yeni dövrün tarix fəlsəfəsinin

nümayəndələri dini tarix fəlsəfəsinin bəşəriyyətin tarixinə istiqamətlənmiş proses kimi yanaşmasını mənimsəsə də, bu prosesin mahiyyəti haqqında öz sələflərindən tamamilə fərqli ideyalar irəli sürdülər. Bu fərq ilk növbədə onların müasiri olduğu cəmiyyətin dünyəvi xarakteri və rasional düşüncə zəminində meydana çıxmış elmlərin dövrün dünyagörüşünə ciddi təsiri ilə şərtlənirdi. Yeni dövrün tarix fəlsəfəsi bəşəriyyətin tarixini və təkamül xüsusiyyətlərini dinə istinadən deyil, o dövrün elmi nəzəriyyələrinə əsaslanaraq, təbii səbəblərlə izah etməyə çalışırdı. Elmin cəlbedici nailiyyətləri XVIII əsrdə Avropada insan zəkasının sərhədsiz inkişaf potensialı haqqında Maarifçilik ideologiyasının təşəkkül tapmasına səbəb oldu.

Maarifçilər əmin idi ki, mədəni və sosial gerçəkliyin inkişafı ağılın, onun daşıyıcıları olan elmin və maarifin tərəqqisi ilə şərtlənir. Maarifçilik ideyalarından çıxış edən tarix fəlsəfəsi üçün tarixi prosesin daim yüksələn xətt üzrə baş verən inkişafda olduğunu hökm edən tərəqqi konsepsiyası səciyyəvi idi. Yeni dövrün tarix fəlsəfəsinin nümayəndələri əmin idilər ki, bütün bəşəriyyət üçün ümumi olan tarixi tərəqqi prosesinin gerçək həyatda rastlaşdığı çətinlikər insanların bu sahədə biliklərinin qıtlığından, bu sonuncu isə öz növbəsində humanitar elmlərin son dərəcə zəif inkişaf etməsindən irəli gəlir. Mədəni-tarixi tərəqqinin qarşılaşdığı ziddiyyətləri aradan qaldırmaq üçün humanitar elmlərin inkişafını qabaqcıl təbiət elmlərinin fəth etdikləri zirvəyə çatdırmaq lazımdır. Bu məqsədlə humanitar elmlər təbiət elmlərinin metodologiyasını mənimsəməklə və onların aşkar etdiyi nəzəri prinsiplərə söykənməklə özlərinin elmi strukturunu formalaşdırmalıdır. Maarifçiliyin tarix fəlsəfəsini qabarıq şəkildə ifadə edən Kondorse əmin idi ki, təbiət elmləri insanların təbii tələbatlarını ödəməyə xidmət edən bacarıqlarını təkmilləşdirməyə səbəb olduğu kimi, bizim təbiətşünaslığın metodologiyasını mənimsəmiş “əxlaqi və siyasi elmlərdən” də “bizim hisslərimizi və fəaliyyətimizi istiqamətləndirən motivlərə” müsbət təsir edəcəyini gözləməyə haqqımız vardır [8, 245-246]. Kondorse bəşəriyyətin tərəqqisi haqqında maarifçilik ideyalarını təbiət elmlərinin aşkar tərəqqisinə istinad edərək əsaslandırmağa çalışırdı. Y.Habermas bu cür cəhdlərin zəkanı “öz daxili məntiqi üzrə inkişaf edən bir qüvvə” kimi anlayan təsəvvürlərdən qaynaqlandığını qeyd edir [10, 151].

Beləliklə, Maarifçiliyin tarix fəlsəfəsi təbiətşünaslığı humanitar elmlərin inkişafı üçün örnək olan bir model kimi görürdü.

Təbiət elmlərindən hansının bir model kimi qəbul edilməsindən asılı olaraq, XVIII-XIX əsrlərin tarix fəlsəfəsində bir sıra naturalist məktəblər meydana çıxdı. Ən geniş yayılmış məktəblərdən biri Nyutonun yaratdığı klassik mexanikanı humanitar elmlər üçün model hesab edən mexaniki məktəb idi. Bu məktəbin nümayəndələri insan və cəmiyyət haqqında elmləri Nyuton mexanikasının anlayış və prinsiplərindən çıxış etməklə yaratmağı təklif edirdilər. Coğrafi determinizm məktəbi müvafiq cəmiyyətdə cərəyan edən sosial-siyasi və mədəni proseslərin mahiyyətini anlamaq üçün təbii-coğrafi mühitin xüsusiyyətlərinə müraciət etməyi və bu zaman coğrafiya elmini bir örnək olaraq qəbul

etməyi zəruri hesab edirdilər. Naturalist məktəblərin böyük bir qrupu humanitar elmlərin nəzəri-metodoloji əsaslarını biologiyanın verdiyi biliklərə istinad etməklə formalaşdırmağın daha məqsədəuyğun olduğunu iddia edirdilər.

Naturalist məktəblər humanitar elmlərin nəzəri və metodoloji əsaslarını elmi zəmin üzərinə köçürmək istəsələr də, onların rəhbər tutduqları "elm" anlayışı təbiət elmləri zəminində formalaşmış və sosial-humanitar gerçəkliyə adekvat olmayan təsəvvürlərə söykənirdi. Naturalist məktəblərin yol verdiyi bu ciddi səhvin mənbəyi sosial-tarixi gerçəkiliyin varlığın təbiətdən mahiyyətcə fərqli bir forması olduğunun dərk edilməməsi ilə bağlı idi. Bu fərqin dərindən dərk edilməsi XIX əsrin ikinci yarısında "həyat" fəlsəfəsi və neokantçılıq zəminində yeni tarix fəlsəfəsinin təşəkkül tapması sayəsində mümkün oldu.

"Həyat" fəlsəfəsinin təmsilçiləri sosial-tarixi gerçəkliyi canlılar (bioloji) aləminin mahiyətini ifadə edən həyatın sosimədəni təzahür forması hesab edirdilər. V.Diltey cəmiyyəti və tarixi gerçəkliyi həyatın sosial və mədəni-tarixi strukturlar formasında davamı kimi mənimsəyərək, onun təbiətini də bu zəmində anlamağa çalışırdı. O, pozitivizmin elmlərin metodoloji yekcinsliyini hökm edən və mahiyyətcə naturalist məzmun daşıyan ideyalarını rədd edərək, onları təbiət haqqında və ruh haqqında elmlər olmaqla iki yerə bölürdü. Insanların bütün fəaliyyət formaları şüurlu səciyyə daşıdığına və qarşılarına qoyduqları məqsədlərdən irəli gəldiyinə görə V.Diltey hesab edirdi ki, sosial-tarixi gerçəklik öz mahiyyəti etibarı ilə insana münasibətdə xarici bir şey deyil, onun bütöv bir tam olan fərdi psixoloji həyatı ilə birbaşa bağlıdır. Əslində sosial-tarixi və mənəvi həyatın bütün formaları insanın daxili mənəvi-psixoloji həyatının obyektivləşmiş ifadələrindən başqa bir şey deyil. Sosial həyatın məzmununu təşkil edənləri insan dəfələrlə daxilən yaşamışdır və buna görə də sosial-tarixi gerçəklik mahiyyətcə ona yad deyildir.

Ruh haqqında elmlərin verdiyi biliklərin əsl mənbəyini rasional-məntiqi təfəkkür deyil, insanın birbaşa daxili yaşantıları təşkil etdiyinə görə onlar səhihdirlər və həqiqəti ifadə edirlər. İnsanın mənəvi dünyasını təşkil edən daxili yaşanmalarını rasional-məntiqi formullarda ifadə etmək mümkünsüz olduğuna görə humanitar-elmi bilik, təbii-elmi bilikdən fərqli olaraq, mahiyyətcə irrasionaldır. Humanitar-elmi idrakın fərqləndirici xüsusiyyətlərini ifadə etmək üçün Diltey "anlama" terminini daxil edir. Bu termin vasitəsilə o, iki fərqli idrak növü arasındakı prinsipial fərqi səciyyələndirir: "Təbiəti biz izah edirik, mənəvi həyatı isə anlayırıq" [5, *8*].

V.Diltey humanitar elmlərlə təbiət elmləri arasındakı fərqləri ilk növbədə onların predmetləri arasındakı prinsipial fərqlərdən çıxış edərək, anlamağa çalışırdı. Neokantçıların Baden məktəbinin əsas təmsiçiləri olan V.Vindelband və H.Rikkert isə elmi idrakın bu iki müxtəlif növü arasındakı fərqləri, başlıca olaraq, onların rəhbər tutduqları metodlara istinad edərək, izah edirdilər. Onlar XIX əsrin ikinci yarısından etibarən pozitivizmin yayılması ilə dövrün fəlsəfəsinin və dünyagörüşünün yenidən təbiətşünaslığın təsiri altına düşməsini təəsüflə qeyd edərək, pozitivizmin istinad etdiyi naturalist metodologiyanı

kəskin şəkildə tənqid edirdilər. Neokantçılar naturalizmin "mədəniyyət haqqında (humanitar) elmlər" üçün yararsızlığını əsaslandıraraq, bu elmlərin spesifik predmetinə və daxili fəaliyyət mexanizmlərinə adekvat olan bir metodologiyanı ona qarşı qoymağa çalışırdılar.

V.Vindelband və H.Rikkertə görə təbiət elmləri ilə humanitar elmlər arasındakı fərqləri onların tədqiqat obyektləri arasındakı fərqlə izah etmək olmaz, belə ki, bu fərq sadəcə olaraq mövcud deyil – onların hər ikisinin obyektini eyni bir gerçəklik təşkil edir: "Təbiət və tarix, – deyə Rikkert yazır, – iki fərqli reallıq deyil, iki müxtəlif baxış bucağından nəzərdən keçirilən eyni bir gerçəklikdir" [9, 92]. Bu elmlər arasındakı prinsipial fərqlər onların rəhbər tutduqları idraki maraqlar və məqsədlərdən irəli gəlir. Maraqlar və məqsədlər arasındakı fərqlər öz aşkar ifadəsini həmin elmlərin istinad etdikləri fərqli metodologiyalarda tapır. Təbiətşünasın maraqları gerçəkliyin həmişə fərdi (individual) olan predmet və hadisələri üçün ümumi olanları tapıb ayıraraq, onları vahid bir anlayış altında birləşdirməyə, məqsədləri isə təbiət qanunlarını mümkün qədər dəqiq şəkildə ifadə etməyə yönəlmişdir. Ümumini əsas götürdüyünə görə təbiət elmləri Vindelbandın "nomotetik" adlandırdığı ümumiləşdirici metodologiyaya istinad edir. Lakin tamamilə fərqli metodologiyaya əsaslanan başqa tip elmlər də mövcuddur. Neokantçılar bu elmləri ümumi ad altında "tarix" və ya "mədəniyyət haqqında elmlər" kimi səciyyələndirirdi. Vindelband və Rikkertin fikrincə "tarixçinin" maraqları gerçəkliyin fərdi, təkrarlanmayan və buna görə də ümumi anlayış altında birləşdirilməsi mümkün olmayan məqamlarını seçib ayıraraq, təsvir etməyə yönəlmişdir. Buna görə də o, Vindelbandın "ideoqrafik" metodlar adlandırdığı fərdiləşdirici metodologiyadan istifadə edir [4].

Həm "həyat" fəlsəfəsi, həm də neokantçılar biliyin elmilik meyarını onların ümuməhəmiyyətlilik (ümumqəbuledilənlik) və mühümlük kimi anladıqları obyektivlikdə görürdülər. V.Dilteyə görə təbiətşünaslıqda bu meyar təfəkkürün immanent mexanizmlərinin biliyə verdiyi nəzəri forma vasitəsilə təmin olunur. Bu mexanizmlər insanların subyektiv səciyyə daşıyan fərdi-psixoloji xüsusiyyətlərindən asılı olmadığına görə obyektivdirlər. Neokantçılar isə hesab edirdilər ki, təbii-elmi biliyin obyektivliyi təbiətşünaslığın istinad etdiyi nomotetik (ümumiləşdirici) metodlar vasitəsilə əldə edilir. Lakin humanitar elmlərə gəldikdə həm həyat fəlsəfəsi, həm də neokantçılar ciddi problemlə üzləşirlər. Dilteye görə humanitar-elmi biliyin mənbəyini son nəticədə insanın daxili psixoloji yaşantıları təşkil esə də, hər bir insan vahid bəşəriyyətə və tarixə mənsub olduğuna görə onun mənəvi aləmindən qaynaqlanan humanitar bilik obyektiv səciyyə daşıyır. Lakin insanların psixoloji yaşantıları həmişə subyektivdir, onda bu subyetiv yaşantılar əsasında obyektiv bilik necə yaranır? Dilteyin fəlsəfəsində bu problem həll edilməmiş qalır. Digər tərəfdən, Dilteyə görə mahiyyətcə insanın fərdi-psixoloji yaşantılarının təzahürləri olan sosiomədəni gerçəkilyi təşkil edən saysız-hesabsız hadisəlr arasından mühüm olanı humanitar elmlər necə seçib ayırır? Bu sual da onun fəlsəfəsində açıq qalır.

Neokantçılar bu problemlərin həllinə daha əsaslı şəkildə yanaşmağa çalı-

şırdılar. Humanitar elmlərdə obyektivlik problemi neokantçıların mərkəzi problemi olan "mədəniyyət haqqında elmlərin" (humanitar elmlərin) mümkünlüyü məsələsinin üzvi tərkib hissəsidir. Qeyd etdiyimiz kimi, neokantçılara görə elmlərin mövcudluğu onları doğuran maraqlar və məqsədlərlə şərtlənir. Humanitar elmləri doğuran maraq və məqsədlər gerçəkliyn fərdi və təkrarlanmayan məqamlarını seçib ayırmağa yönəlmişdir. Bəs bu maraq və məqsədlər özü nələrlə şərtlənir? Neokantçılar güman edirlər ki, maraq və məqsədlər gerçəkliyin, o cümlədən, insanın fövqündə duran, onun qarşısında məqsədlər qoyaraq, fəaliyyətə təhrik edən ali bir reallığın – dəyərlər sferasının tərkib hissələridir. Dəyərlər sferası mütləq reallıqdır, yəni o, əbədidir, zamanca başlanğıcı və sonu yoxdur. Dəyərlər aləmi insanın qarşısında onun fəaliyyətinin bütün sahələrində yerinə yetirməli olduğu tələblər qoyur. Elmi fəaliyyət qarşısında qoyulan tələb həqiqi biliklər verməkdir. Həqiqət dəyərlər aləmi tərəfindən elmi fəaliyyət qarşısında qoyulan tələb olduğuna görə onun məzmunu insanlardan asılı deyil və buna görə də o, obyektiv səciyyə daşıyır. Məhz həqiqətə can atmaq tələbi humanitar-elmi biliyin obyektivliyini təmin edir.

Lakin neokantçıların fəlsəfəsi üçün fundamental əhəmiyyətə malik olan "dəyərlər aləmi" təlimi hələ Aristotel tərəfindən müəllimi Platonun yaratdığı "ideyalar aləmi" haqqındakı təlimə qarşı irəli sürdüyü məşhur iradlar qarşısında aciz qalır. Neokantçılara görə dəyərlərin insanın fəaliyyəti ilə gerçəklikdə reallaşması nəticəsində "mədəni nemətlər" təşəkkül taparaq, mədəniyyət dünyasını yaradır. Humanitar elmlər sosiomədəni gerçəkilyi təşkil edən saysız-hesabsız hadisələr arasından, məhz, dəyərləri özündə təcəssüm etdirib reallaşdıranları mühüm olan kimi seçib ayıraraq, onu elmi biliyin məzmununda əks etdirirlər. Lakin dəyərlərin reallaşması onların gerçəkliyə nüfuz edərək, onunla qovuşması baş vermədən qeyri-mümkündür. Neokantçılar isə əmindirlər ki, dəyərlər gerçəkliyin fövqündə olan transsendent aləmə məxsusdur. Deməli, bu aləmlə gerçəklik arasında hər hansı bir əlaqənin mövcud olması mümkünsüzdür. Onda bəs dəyərlərlə gerçəklik necə qovuşur? Neokantçılar üçün bu, həllolunmaz problemdir: humanitar elmlərin mövcudluğu üçün dəyərlərin gerçəkliyə qovuşması şərt olsa da, Rikkert etiraf edir ki, "onların [necə] qovuşması əbədi müşkül məsələ olaraq qalır" [1, 249].

Digər tərəfdən, neokantçıların təbiətşünaslıq üçün yalnız ümumi olanın, humanitar elmlər üçün isə fərdi və təkrarsız olanın elmi əhəmiyyətə malik olmasına dair əsas prinsipi elmi nəzəriyyələrin real məzmunu ilə heç də həmişə uyğun gəlmir. Nəinki mədəni və sosial-tarixi hadisələr, təbiətdə baş verənlər də konkret təzahür xüsusiyyətlərinə görə fərdi və unikaldır. Təbiət elmlərinin predmetini, başlıca olaraq, təbiətdə hökm sürən qanunların təşkil etməsi konkret-fərdi hadisələrin təbiətşünaslıq üçün elmi əhəmiyyət kəsb etmədiyi anlamına gəlmir. Qanunları kəşf edib öyrənməklə bərabər onun əsas vəzifələrindən biri konkret-fərdi hadisənin səbəblərini və mahiyyətini məhz həmin qanunlar əsasında elmi şəkildə izah etməkdir. Eləcə də humanitar elmlər diqqəti konkret-tarixi faktın unikallığı üzərində cəmləşdirsə də, o həmin faktı ümum-

nəzəri anlayış və prinsiplərə istinad edərək, şərh etməkdən çəkinmir. Məsələn, tarixçi “inqilab” kimi ümumi nəzəri anlayışa söykənərək, 1789-cu ildə Fransada baş verən məlum unikal hadisələri məhz inqilab kimi səciyyələndirir. Deməli, təbiətşünas kimi tarixçi də fərdi və təkrarsız olanları onlar üçün ümumi olan bir anlayış altında birləşdirir.

Neokantçılıq və “həyat” fəlsəfəsindən qaynaqlanan tarix fəlsəfəsi humanitar elmlərin fəlsəfi əsaslarının işlənib hazılanması problemini həll edə bilməsələr də, onun əvəzsiz xidməti, ilk dəfə olaraq, bu problemi ciddi fəlsəfi zəmin üzərində qoymağa müvəffəq olmasındadır. Məhz XIX əsrin ikinci yarısında meydana çıxmış tarix fəlsəfəsi sayəsində Maarifçiliyin tarix fəlsəfəsi zəminində formalaşmış universal tərəqqi konsepsiyasının tarixşünaslıq və sosial elmlər üçün yararsız olduğunu aşkara çıxarmaq mümkün oldu. XX əsrin birinci yarısında meydana gələrək inkişaf edən “lokal sivilizasiyalar” kosepsiyası XIX əsrdə olduqca böyük nüfuz qazanmış universal təkamül ideyalarının ciddi şəkildə əsaslandırılmış tənqidini verərək, humanitar elmlərin fəlsəfi-metodoloji problemlərinin daha dərindən mənimsənilməsi üçün zəmin hazırladılar.

Universal təkamül ideyaları zəminində XIX əsrin ortalarında meydana çıxmış fəlsəfi təlimlərdən biri də marksist fəlsəfə idi. Keçmiş sovet məkanında marksizm elmin və xüsusən humanitar elmlərin yeganə mümkün olan fəlsəfi-metodoloji əsası hesab edilirdi. Universal təkamül konsepsiyasından çıxış edərək, marksizm bütün bəşəriyyəti əhatə edən vahid bir tarixi prosesin varlığını hökm edir və onu ictimai-iqtisadi formasiyaların bir-birini əvəz etmə ardıcıllığı kimi dərk edirdi. Hər bir sonra gələn formasiya vahid və universal tərəqqi prosesinin inkişafca daha yüksək olan pilləsi hesab olunurdu. Qərb mədəniyyətinin tarixinə az-çox uyğun gələn bu sxem bütün bəşəriyyətin tarixinə şamil edilirdi, halbuki digər xalqların əksəriyyətinin tarixini bu sxemə yerləşdirmək açıq-aşkar mümkün deyildi. Digər tərəfdən, tarixi prosesin daim yüksələn xətt üzrə baş verən tərəqqi prosesi kimi qələmə verilməsi müxtəlif xalqların tarixi ilə uyğunsuzluq təşkil edirdi. Müxtəlif humanitar və sosial elmlər – tarix, siyasi iqtisad, arxeologiya, etnoqrafiya, pedaqogika, ədəbiyyatşünaslıq, sonralar sosiologiya və s. məhz bu metodoloji sxem əsasında şərh edilirdi.

Humanitar elmlərin spesifik metodoloji arsenalının zənginləşməsində “yeni hegelçilik” məktəbinin görkəmli nümayəndələrindən olan, XX əsrin birinci yarısında fəaliyyət göstərmiş ingilis filiosofu R.Kollinqvudun işləyib hazırladığı tarix fəlsəfəsi böyük rol oynadı. Kollinqvuda görə tarixçi anlamalıdır ki, tarixi hadisə həmişə insan fəaliyyətidir və tarixçinin də məqsədi bu fəaliyyəti törədənlərin fikirlərini dərk etməkdir. Lakin tarixçi keçmiş fikri həmişə öz bilikləri kontekstində canlandırır, buna görə də ona tənqidi yanaşaraq dəyərləndirir. Kollinqvudun bu ideyaları tarixşünaslıq üçün mühüm əhəmiyyət kəsb edən tənqidi təhlil və interpretasiya metodlarının qərarlaşması üçün fəlsəfi zəmin hazırladı. Tarixi bilik, Kollinqvudun fikrincə, “tarixçinin təfəkküründə tarixini öyrəndiyi fikrin canlandırılmasıdır” [7, *386*]. Fikirlər isə həmişə inkişafda olduğuna görə (əks halda onların tarixi olmazdı) o, tarixi

yanaşmanı (tarixilik prinsipini) vacib bir metodoloji prinsip kimi dəyərləndirirdi. Kollinqvudun tarix fəlsəfəsi zəminində əsaslandırdığı mühüm metodoloji prinsiplərdən biri də onun "metodoloji individualizm" adlandırdığı konkretlik prinsipidir. Humanitar elmlər üçün sosial-tarixi proseslərin daxili məntiqini anlamaq hər nə qədər böyük elmi dəyər kəsb etsə də, təbiətşünasdan fərqli olraq, humanitar-elmi təmsil edən hər bir tədqiqatçı üçün "konkret situasiyanın konkret təhlili" də bir o qədər zəruridir.

Humanitar elmlərin fəlsəfi əsaslarının və metodoloji prinsiplərinin formalaşmasında ciddi əhəmiyyəti olan tədqiqat istiqamətlərindən biri də tarixən protestantizm zəminində dini mətnlərin təfsiri sənəti kimi təşəkkül tapmış *hermenevtika* olmuşdur. Hermenevtikanın müstəqil fənn kimi qərarlaşmasında XVIII əsrin axırları — XIX əsrin birinci yarısında fəaliyyət göstərmiş alman filosofu və ilahiyyatçısı F.Şleyermaxer həlledici rol oynamışdır. Şleyermaxer hesab edirdi ki, mətn nəinki onun daxil olduğu əsər əsasında, eyni zamanda həmin əsəri doğuran mənəvi yaradıcılıq situasiyası zəminində dərk edilə bilər. Bu baxımdan V.Diltey Şleyermaxerin yanaşmasını inkişaf etdirərək, daha uzağa getdi: o, "hermenevtik dairə" anlayışını məhdud dini konteksdən çıxararaq, onu olduqca geniş sosial və mədəni-tarixi kontekstə daxil etdi. O, keşmişdən günümüzə gəlib çatmış təkcə tarixi-bədii əsərlərə və dini yazılara deyil, bütün maddi və mənəvi mədəniyyət nümunələrinə öz şərhini tələb edən mətnlər kimi yanaşırdı. Bu mətnlər hamısı insanın ruhi-mənəvi həyat tarixinin hissələridir və yalnız həmin tarix kontekstində dərk edilə bilər.

Hermenevtikanın humanitar elmlərin məhz fəlsəfi əsası kimi nəzərdən keçirilməsi XX əsrin görkəmli alman filosofu H.Qadamerin adı ilə bağlıdır. O, Dilteyin tarix fəlsəfəsindən qaynaqlanan ənənəni davam etdirərək sübut edirdi ki, təbiət elmləri həqiqətin yeganə daşıyıcıları deyildir. Elmi həqiqət gerçəkliyin idraki mənimsənilməsi zəminində təşəkkül tapan "elmi təcrübənin" məhsuludur. Lakin gerçəkliyin insan tərəfindən mənimsənilməsi təkcə "elmi təcrübə" ilə məhdudlaşmır; elmi təcrübə ilə yanaşı gerçəkliyin ən ümumi mənimsənilmə formaları "tarixin təcrübəsi", "incəsənətin təcrübəsi" və "fəlsəfənin təcrübəsidir". Bu axırıncıların hər biri həqiqətin reallaşma formalarıdır və onların heç birində həqiqət elmi-metodoloji qaydalarla əldə edilmir [2, 39]. Qadamerə görə hermenevtikanın başlıca məqsədi həqiqətin elmi metodologiyanın fəaliyyəti dairəsindən kənara çıxan aşkarlanması təcrübəsini üzə çıxarmaqdır. Humanitar elmlər üçün bu təcrübə "tarixin təcrübəsi", "incəsənətin təcrübəsi" və "fəlsəfənin təcrübəsi" ilə daxili əlaqədədir.

Qadamer gerçəkliyin universal mənimsənilmə formalarını ("təcrübəsini") Dilteyin tarix fəlsəfəsindən mənimsədiyi "anlama" termini ilə ifadə edir. Gerçəkliyin idraki mənimsənilməsi "anlamanın" məzmununun yalnız bir hissəsini təşkil edir. Mədəni irsi anlama yalnız onun müasirliyin mənəvi təcrübəsi ilə qarşılaşdırılması yolu ilə mümkündür. Bu qarşılaşmada tədqiqatçı müasirliyin mədəni-intellektual nailiyyətləri səviyyəsindən mətni sorğu-suala çəkir və

mətndə öz suallarına cavablar axtarır. Tədqiqatçıların yaşadıqları dövrlərin mədəni-intellektual təcrübələri həmişə müxtəlif olduğuna görə onların eyni bir mətnə (mədəni-tarixi irsə) ünvanladıqları suallar və təbii ki, cavablar da fərqli olur. Beləliklə, verilən suallar və alınan cavablar hər dəfə mətnin yeni mənasını formalaşdırır. Mətnlə bu sonsuz dialoq prosesini hermenevtikanın fundamental xüsusiyyəti kimi səciyyələndirərək, Qadamer bu xüsusiyyətinə görə fəlsəfi hermenevtikanı sual və cavab məntiqi adlandırırdı.

**ƏDƏBİYYAT**


1. Бакрадзе К.С. Избранные философские труды: В 4 т., т.3. Тбилиси: Тбилисский ун-т, 1973, 392 с.
2. Гадамер Г.-Х. Истина и метод: Основы философской герменевтики / Пер. с нем. М.: Прогресс, 1988, 704 с.
3. Гуревич А.Я. Категории средневековой культуры. М.: Искусство, 1972, 320 с.
4. Виндельбанд В. Избранное. Дух и история. М.: Юрист, 1995, 687 с.
5. Дильтей В. Описательная психология. СПб.: Алетейя, 1996, 160 с.
6. Дильтей В. Наброски к критике исторического разума // Вопросы философии, 1988, № 4, с.135 – 152.
7. Коллингвуд Р.Дж. Идея истории. Автобиография. М.: Наука, 1980, 488 с.
8. Кондорсе Ж. А. Эскиз исторической картины прогресса человеческого разума. М.: Соцэкономгиз, 1936, 265 с.
9. Риккерт Г. Науки о природе и науки о культуре. М.: Республика, 1995, 128 с.
10. Habermas J. The Theory of Communicative Action. v. 1. Reason and the Rationalization of Society. Boston: Beacon Press, 1984, p. 465.


## ФИЛОСОФИЯ ИСТОРИИ И СТАНОВЛЕНИЕ ФИЛОСОФСКИХ ОСНОВАНИЙ ГУМАНИТАРНЫХ НАУК

**З.Г.МАМЕДАЛИЕВ**

**РЕЗЮМЕ**

Обосновывается тезис о том, что первая философская концепция о природе гуманитарно-научного знания нашла свое отражение в натуралистической парадигме, формировавшейся на базе философии истории Просвещения. Критика во второй половине XIX века философией «жизни» и неокантианством рационалистической философии истории просветителей характеризуется как создание благоприятной почвы для осознания непригодности натуралистическо-позитивистского подхода к гуманитарным наукам. Полагается, что оспаривание концепции универсального эволюционизма составляет характерную черту подходов к гуманитарным наукам, появившихся в контексте неклассической философии истории.

**Ключевые слова:** философия истории, натуралистические школы, философия «жизни», неокантианство, универсальный эволюционизм, герменевтика.

**PHILOSOPHY OF HISTORY AND FORMATION OF THE PHILOSOPHICAL FOUNDATIONS OF THE HUMANITIES**

**Z.G.MAMMADALIEV**

**SUMMARY**

It is substantiated in the thesis that the first philosophical concept of the nature of humanitarian knowledge is reflected in the naturalistic paradigm that was formed on the basis of the philosophy of history of the Enlightenment. The criticism in the second half of the 19th century by philosophy of “life” and neo-Kantianism of the rationalistic philosophy of history of the enlighteners is characterized as creation of the favorable circumstances for awareness of unsuitability of the naturalistic and positivistic approaches to the humanities. It is supposed that challenging the concept of universal evolutionism is characteristic for the approaches to the humanities that emerged in the context of non-classical philosophy of history.

**Keywords:** philosophy of history, naturalistic schools, philosophy of "life", neo-Kantianism, universal evolutionism, hermeneutics.

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Sosial-siyasi elmlər seriyası 2018*

## İQTİSADİYYAT

**UDK 339.187.62**
**JEL: E62**

# LİZİNQ XİDMƏTLƏRİ BAZARININ İNKİŞAFI-İNNOVATİV TEXNOLOGİYALARIN SÜRƏTLƏNDİRİLMƏSİ AMİLİ KİMİ

**Z.H.ZEYNALOV**
***Azərbaycan Dövlət İqtisad Universiteti***
***zakir_zeynalov@unec.edu.az***

*Məqalədə lizinq bazarının inkişafının iki istiqaməti nəzərdən keçirilir. Bir tərəfdən lizinq vasitəsilə istehsal vasitələrinin yenilənməsi hesabına kiçik və orta sahibkarlıqda müasir texnoloji proseslərin təşkili təmin olunur. Digər tərəfdən isə lizinq bazarının əsas maliyyə təminatçısı qismində kommersiya bankları çıxış edir.*

*Tədqiqat işində iqtisadiyyatda lizinqdən məhdud istifadəyə təsir edən amillər, innovasiya məhsullarının həcmi, maliyyə mənbələri üzrə texnoloji innovasiyalara çəkilən xərclər və xərclərdə istiqamətlərin payı, bankların lizinq bazarında iştirakı məsələləri təhlil edilmişdir.*

**Açar sözlər**: innovasiya məhsulunun həcmi, lizinq bazarı, lizinq əməliyyatları, iqtisadi amillər, istehsal amilləri

Beynəlxalq təcrübə göstərir ki, kifayət qədər səmərəli metodlardan biri də lizinqdir. Bu universal investisiya aləti dövlət maliyyə vəsaitlərinin məlum məhdudiyyəti fonunda iqtisadiyyatın inkişaf etdirilməsi və yerli sahibkarlığın dəstəklənməsi üçün böyük həcmdə xüsusi resursları əlavə olaraq cəlb etməyə imkan verir. Məhz lizinq istehsalın, investisiyaların və texniki cəhətdən yenidən silahlanmanın stimullaşdırılması üçün güclü impulsdur və müəssisəyə kəskin maliyyə gərginliyi olmadan əsas fondlarını sürətlə modernləşdirməyə və yüksək keyfiyyətli, müasir məhsul buraxmağa imkan verir. Bazar şəraitində lizinqin əhəmiyyəti danılmazdır, buna görə də təsadüfi deyil ki, iqtisadi ədəbiyyatda ona çoxsaylı rəmzi adlar verilmişdir: "investisiyaların cəlb edilməsinin yeganə perspektiv forması", "istehsalın yenilənməsinin ən effektiv investisiya resursu", "ən sərfəli sövdələşmə", "investisiya fəaliyyətində risklərin azaldılması üsulu" və s.

Qeyd etmək lazımdır ki, Azərbaycanda lizinqə aid məsələlər üzərində son dərəcə az işlənib və iqtisad elmində o, az öyrənilib, konstruktivliyi ilə seçilmir. Bir sözlə, lizinq bazar kateqoriyası olaraq nə nəzəri, nə də praktik

aspektdə hələ tam tədqiq olunmamışdır ki, bu da onun potensialının tam istifadə olunması üçün əhəmiyyətli maneədir. Bütün bunlar, öz növbəsində, bu problemin müxtəlif aspektlərinin hərtərəfli öyrənilməsinin aktuallığını müəyyən edir.

Lizinq bazarlarının inkişafı iki məqsədi nəzərdə tutur. Bir tərəfdən lizinq vasitəsilə istehsal vasitələrinin yenilənməsi hesabına kiçik və orta sahibkarlıqda müasir texnoloji proseslərin təşkili təmin olunur. Digər tərəfdən isə lizinq bazarının əsas maliyyə təminatçısı qismində kommersiya bankları çıxış edir. Lizinq bazarının inkişafı emal sənayesinin aparıcı rola malik olmasını və innovativ əsaslı istehsal prosesinin formalaşdırılmasında mühüm əhəmiyyət kəsb edəcək. Lakin lizinqdən zəif istifadə istehsalda innovasiyalardan aktiv istifadəni məhdudlaşdırır. Bu baxımdan lizinq xidmətləri bazarının inkişafına dövlət dəstəyinin istiqamətlərini müəyyən etmək üçün bu xidmətlərdən istifadəni məhdudlaşdıran faktorlar müəyyən edilməlidir.

Bütövlükdə lizinq xidmətlərindən məhdud istifadə, eləcə də onun spesifikası bank tərəfindən həyata keçirilən lizinq əməliyyatlarından da aydın görünür. Azərbaycanda zəif də olsa, bankların lizinq əməliyyatları üzrə təcrübələri formalaşmışdır, lakin heç də bütün banklar və ya lizinqin təklif olunan şərtləri lizinqalanlar üçün effektiv deyildir. Bu səbəbdən tədqiqat işində bankların lizinq əməliyyatlarının intensivləşdirməsi, kreditlə müqayisədə bu instrumentin rəqabət imkanlarının artırılması təhlil edilir və bankların lizinq əməliyyatlarının aktivləşdirilməsi üzrə təkliflər verilir. Təqdiqat işinin belə bir strukturda verilməsi bir tərəfdən işin tətbiqi, digər tərəfdən isə bu xidmət bazarının canlandırılması üzrə tövsiyələrin formalaşdırılması məqsədilə əlaqədardır. Tədqiqatın nəticələrindən konkret bank fəaliyyətinin bu istiqamətinin aktivləşdirilməsi zamanı istifadə oluna bilər.

Lizinqin əsasən avadanlıq, maşın və mexanizmlərin əldə edilməsini təmin etdiyini nəzərə alaraq ilk növbədə istehsalda innovasiyaların cari səviyyəsi və onu məhdudlaşdıran faktorlar qiymətləndirilməlidir. ADSK-nın məlumatlarına görə innovasiya proseslərinə müəssisələr tərəfindən çəkilən xərclər aşağı olaraq qalır. Belə ki, 2006-2016-cı illərdə emal sənayesi üzrə məhsul buraxılışının orta hesabla 0.3%-i qədər innovasiyaya xərc çəkilmişdir.

Bununla yanaşı, nəticə olaraq istehsalın özünün də strukturunda məhsul innovasiyalarının payı artır. Məlum olduğu kimi məhsul innovasiyası yeni məhsul növünün yaradılmasını nəzərdə tutur [1, 198]. Bu isə istehsalda yeni texnologiyaların tətbiqini zəruri edir. Lakin lizinqdən məhdud istifadə yeni məhsul növünün yaradılmasına deyil, birdəfəlik və qeyri-produktiv məhsul formalarının yaradılmasına gətirib çıxarır. Bunu proses innovasiyalarının payının azalması da təsdiq edir.

Qrafik 1

**Emal sənayesində texnoloji innovasiyalara çəkilən xərclər,mln.Azn**




**Mənbə:** ADSK-nın məlumatları əsasında hesablama

Qrafikdən göründüyü kimi, innovasiyalara çəkilən xərclər qeyri-bərabər olmaqla yanaşı, məhsul innovasiyaları üstünlük təşkil edir. Araşdırmalar göstərir ki, son dövrlər proses innovasiyalarında müşahdiə edilən artım isə permanent xarakter daşıyır.

Bu proses özünün istehsal edilmiş innovasiya məhsullarının həcmində də göstərir. Belə ki, baxılan 2007-2016-cı illərdə yeni tətbiq olunmuş məhsulların orta illik həcmi 11 mln.manatdan çox deyildir.

Qrafik 2

**Yenilik səviyyəsinə görə innovasiya məhsulunun həcmi, mln manat**




**Mənbə:** ADSK-nın məlumatları əsasında hesablama

Eyni zamanda belə növ məhsul istehsalı emal sənayesinin baxılan 17 sahəsində təsadüfi xarakter daşıması müəyyən olunmuşdur. Bu, həm də iqtisadiyyatda birdəfəlik texnologiyaların tətbiq prosesinin getməsini göstərir. Çünki, təkmilləşdirilmiş məshulun həcmi azalan dinamikaya malikdir ki, bu da istehsalın texnoloji-laborator bazasının zəif olması və təkmilləşmə sahəsində

yeni avadanlıq cəlbi imkanlarının mövcud olmaması ilə bağlıdır.

İqtisadiyyatda lizinqdən məhdud istifadəni texnoloji innovasiyaların tətbiqinə çəkilən xərclərin maliyyələşmə mənbələri də təsdiq edir.

Cədvəl 1

**Maliyyə mənbələri üzrə texnoloji innovasiyalara çəkilən xərclər (mln.Azn)**

| | 2005-2010 | 2011-2014 | 2015-2016 |
|---|---|---|---|
| **Bütün sənaye** | **27.9** | **19.1** | **31.6** |
| *müəssisələrin vəsaiti hesabına* | 7.3 | 16.4 | 24.5 |
| *dövlət büdcəsi* | 19.3 | 4.6 | - |
| *büdcədən kənar fondlar* | 3.7 | 0.0 | - |
| *Sair* | 5.9 | 0.5 | 1.1 |
| **Emal sənayesi** | **13.1** | **14.7** | **30.1** |
| *müəssisələrin vəsaiti hesabına* | 6.8 | 12.1 | 23.1 |
| *dövlət büdcəsi* | - | 4.6 | - |
| *büdcədən kənar fondlar* | 3.7 | 0.0 | 0.0 |
| *Sair* | 4.5 | 0.5 | 1.1 |

**Mənbə:** ADSK-nın məlumatları əsasında hesablama

ADSK-nın məlumatlarına görə sənaye üzrə texnoloji innovasiyalar əsasən müəssisələrin şəxsi vəsaitləri hesabına maliyyələşir. Lakin burada mədənçıxarma sənayesi mühüm paya malikdir. Eyni zamanda bu cür hal emal sənayesi üçün də xarakterikdir. Şəxsi vəsaitdən sonra digər mənbə kimi dövlət büdcəsi və büdcədənkənar fondlar çıxış edir. Lizinq və digər mənbələr isə yox səviyyəsindədir[1]. Digər əksər sahələrdə isə ümumiyyətlə son 10 ildə texnoloji innovasiyalara heç bir xərc çəkilməmişdir.

Lizinq bazarının zəif inkişaf etdiyi və maliyyələşmə mənbələrinin məhdud olduğu şəraitdə müəssisələr tərəfindən çəkilən xərc istiqamətləri də mühüm maraq kəsb edir. ADSK-ın məlumatları əsasında aparılan hesablamalara görə, 2016-cı ildə yeni texnologiyaların alınmasına daha çox üstünlük verirlər.

Cədvəl 2

**Texnoloji innovasiyalara çəkilən xərclərdə istiqamətlərin payı, %[2]**

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|
| yeni məhsulların, xidmətlərin, proseslərin tətbiqi və işlənməsi | 31% | 11% | 7% | 10% | 48% | 33% | 20% |
| texnoloji innovasiyalar ilə əlaqədar maşın və avadanlığın alınması | 62% | 80% | 61% | 32% | 19% | 39% | 7% |
| yeni texnologiyaların alınması | - | - | - | 19% | 0% | 9% | 57% |
| proqram vəsaitlərinin alınması | | | | 9% | 1% | 2% | 4% |
| digər | 6.6% | 8.4% | 32.4% | 30.4% | 32.3% | 16.2% | 11.4% |

**Mənbə:** ADSK-nın məlumatları əsasında hesablama

[1]2015-2016-cı illərdə isə neftin qiymətinin azalması və bununla əlaqədar olaraq büdcənin investisiya xərclərinin sekvestri müəssisələrin investisiya fəaliyyətinə də ciddi təsir göstərmişdir.

[2]Emal sənayesinin timsalında

Bundan fərqli olaraq əvvəlki dövrlərdə yeni məhsul və xidmətlərin tətbiqi prosesi üstünlük təşkil etmişdir. Araşdırmalar göstərir ki, bu, emal sənayesinin bir sıra sahəsində yığma üsulunun üstünlük təşkil etməsi ilə əlaqədar olmuşdur. Xüsusilə maşınqayırma sənayesində müşahidə olunan istehsal prosesi bunu əyani təsdiq edir.

İdxaldan yüksək asılılıq lizinq bazarının formalaşmasında başlıca məhdudiyyət olmuşdur. Lakin istehsalda lizinqlə yanaşı innovasiyanın tətbiqinin özünü də məhdudlaşdıran amillər mövcuddur. Bura həm iqtisadi, həm istehsal və həm də digər faktorların məhdudlaşdırıcı təsirlərini aid etmək olar.

Lizinqdən istifadənin genişləndirilməsində bankların roluna baxaq. Belə ki, təhlillər göstərir ki, ölkədə lizinqin inkişafı üçün vacib faktorlardan biri ilkin mərhələdə dövlət dəstəyinin göstərilməsidir. Dövlət dəstəyi lizinq xidmətləri bazarının dayanıqlı inkişafı üçün ilkin mühitin yaradılmasını təmin etməlidir. Dövlət dəstəyi ilk növbədə lizinqin qeyri-neft sektorunda artımın sürətləndirilməsi, eləcə də ölkədə maliyyə xidmətləri supermarketinin formalaşdırılması baxımından zəruridir. Xüsusilə böhran dövrlərində lizinq instrumenti iqtisadiyyatda investisiyaya tələbin təmin edilməsinə təsir imkanına malikdir. Qeyri-neft sektorunun strukturunu formalaşdıran sahələrində (hasilat sənayesi, metallurgiya, nəqliyyat) lizinq əməliyyatlarının həcminin və masştabının artması həmin sahələrin texnoloji inkişafını təmin etməklə yanaşı, innovativ texnologiyaya keçidə imkan verir. Bu proses həm də iqtisadiyyatın strukturundakı disproporsiyanın aradan qaldırılmasına imkan verir.

Bununla yanaşı lizinq vasitəsilə qeyri-neft sektorunun texnoloji səviyyəsinin artırılması kiçik və orta sahibkarlığın yeni və çeşidli məhsul təklifini artırmağa imkan verir. Digər maliyyələşmə mexanizmləri ilə müqayisədə əsas kapitala investisiya qoyuluşunda lizinqin üstünlük təşkil etməsi və ya ona əlçatanlığın təmini istehsal vasitələrinə tələbi artırır. Nəticədə maultiplikativ təsir hesabına istehsal və infrastruktur sahələrdə məhsullara tələb yüksəlir.

Göründüyü kimi, lizinq xidmətləri bazarının intensivləşdirilməsi iqtisadi artıma həm birbaşa, həm də dolayı təsir edə bilər. Birbaşa effektiv qeyri-neft sektorunun vergi daxilolmalarında payının artması, dolayı təsir isə məhsul və xidmətlərin rəqabət qabiliyyətinin artması, nəticədə ümumilikdə ölkədə ixracın diversifikasiyası və ixracyönlü qeyri-neft sektorunun dəstəklənməsinə təsir göstərir.

Ölkədə bank-maliyyə sektorunun əsas xüsusiyyəti ondan ibarətdir ki, resursdan və xarici şoklardan sistemin asılığı mövcud olmuşdur. İqtisadiyyatın yaxşı dövrləri hesab olunan 2003-2014-cü illərdə iqtisadiyyatın maliyyələşməsində büdcə ilə yanaşı bu sektor da aktiv iştirak etmişdir. Bunun nəticəsi olaraq təkcə 2003-2014-cü illərdə maliyyə dərinliyi 77%-ə çatmış[1] və kredit portfeli 30 dəfə artmışdı [2]. 2008-2015-ci illərdə banklar[2] 72 mlrd. manat kredit vermişdir.

2014-cü ildən neftin qiymətinin kəskin azalması nəticəsində makroiqti-

---

[1]aktivlər/qeyri-neft ÜDM-i
[2]Beynəlxalq Bank nəzərə alınmadan

sadi şəraitin dəyişməsi, devalivasiya və işgüzar aktivliyin zəifləməsi kredit portfelinin keyfiyyətini pisləşdirdi və itkilərə səbəb oldu. Eyni zamanda xarici bazarlara çıxış imkanları pisləşdi, daxili yığım mənbələri isə daraldı. Devalivasiya nəticəsində bankların təkcə valyuta mövqeyindən itkisi 600 mln. manat təşkil etdi[1].

Bu proses 2010-2014-cü illərdə bank sistemində hərarətlənmənin qarşısının alınması və kapitallaşma istiqamətində requlyativ tədbirlər gördü. Belə ki, banklar üzrə:

- kredit portfelinin artımı məhdudlaşdırıldı;
- ehtiyatlanma və risk qiymətləndirilməsi tələbləri sərtləşdirildi;
- dayanıqlı gəliri olmayan borcalanların kreditləşməsi məhdudlaşdırıldı;
- 2012-ci ildə kapital tələbi 5 dəfə artırılaraq 50 mln. manata çatdırıldı;

2015-ci ildən başlayaraq sektorun restrukturizasiyası, likvidliyin tənzimlənməsi və problemli aktivlərin həlli istiqamətində işlər görüldü:

- banklara likvidlik dəstəyi göstərildi;
- kreditlərin restrukturizasiyasına imkan verən tənzimləmə apardı;
- 3 il (2016-2018-ci illər) müddətinə əmanətlər tam sığortalandı;
- 2015-ci ildə ödəniş qabiliyyətini itirmiş 8 bankın lisenziyası (dövlətə xərc yaratmadan) ləğv edildi.

Lakin təhlillər göstərir ki, bank sektorunun restrukturizasiyası tədbirləri sistemin maliyyə dayanıqlığı və vasitəçilik funksiyalarını bərpa etməyib. Bununla yanaşı bankların kredit aktivliyi aşağı düşür. 2017-ci ildə kredit portfeli 12% (2016-ci ildə 27%, 4 mlrd. manat) azalaraq 8 mlrd.manat təşkil edir. Eyni zamanda kredit portfelinin keyfiyyəti riskli səviyyədədir. Maliyyə Bazarlarına Nəzarət Palatasının məlumatına əsasən qeyri-işlək kreditlər portfelin 17%-ni təşkil edir.

Bank resurslarının əsas maliyyələşmə mənbələrindən olan fiziki şəxslərin müddətli əmanətləri azalır. 2016-ci ildə azalma 23%, 2017-ci ildə isə 10% olmuşdur (01 sentyabr 2017-ci il - 5.1 mlrd.manat). MBNP-nin məlumatına əsasən təkcə 2017-ci ildə banklar 775 mln. manat kapital cəlb etmişdir. Bunun 600 mln. manatı Beynəlxalq Bankın payına düşür [3]. Özəl bankların isə həm daxili, həm də xarici mənbələrdən (xarici investisiyalar vasitəsilə) kapital cəlb etmək imkanları isə demək olar ki, aşağı səviyyədədir. Sektor davamlı təzyiq (ehtiyatlanma, zərər, kapital itkiləri) altında investisiya cəlbediciliyini itirir.

İqtisadiyyatda struktur resessiyasının hökm sürdüyü şəraitdə bank sektorunda izafi likvidlik müşahidə olunur. Banklar aktiv kredit fəaliyyətindən çəkinir. Kredit portfelinin daralmasının davam etməsi bankların maliyyə dayanıqlığına da ciddi risklər yaradır. Banklar gəlir əldə etmək və kapital "generasiyası" imkanlarını itirirlər.

Təbii ki, qeyd edilən problemlərin həlli bankların lizinq fəaliyyətinin aktivləşdirilməsi üzrə heç də bütün problemləri həll etmir. Bu, sadəcə lizinq

[1]Bankların statistik məlumatları əsasında müəllif tərəfindən hesablama

əməliyyatlarının həyata keçirilməsi üçün baza şəraiti təmin edə bilər, yəni bu zaman bankların lizinqə marağı və tələbi arta bilər. Lizinq xidmətlərinin maliyyələşməsində bankların iştirak formasını xüsusi qeyd etmək lazımdır. Belə ki, bu proses istehsalçı, istehlakçı, xidmət sektoru və bank sferasını vahid kompleks formasında birləşməsini təmin edə bilər. Bütövlükdə bankların lizinq əməliyyatında iştirakına dair prinsipial məqamları aşağıdakı sxemdəki kimi təsvir etmək olar. Qeyd edək ki, bu sxem bankların lizinq fəaliyyətinin modifikasiya olunmuş formasıdır.

Sxem 1

**Bankların lizinq bazarında iştirakı**




Verilmiş sxemin əsas fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, banklar da daxil olmaqla digər maliyyə institutları özləri müstəqil formada lizinq əməliyyatının iştirakıçısı kimi çıxış edirlər. Sxemə əsasən lizinq üzrə ödənişlər tam, qismən və ya kompensasiya formasında həyata keçirilməsi iştirakçıların qarşılıqlı əlaqəsinin effektivliyi baxımından səmərəli olardı. Belə ki, bu, istehsalçı ilə lizinqverən və onu maliyyələşdirən maliyyə institutlarının fəaliyyətini stimullaşdıra bilər. Eyni zamanda sxemdə istehsalçı, istehlakçı və maliyyə qurumlarının vahid şəbəkədə cəmlənməsi təmin olunur.

Banklarda lizinq xidmətlərinin bu formada inkişaf etdirilməsi dövlət tərəfindən birbaşa və ya müxtəlif güzəştlər tətbiq etməklə dəstəklənə bilər. Lizinq xidmətləri bazarının canlanmasına dövlət dəstəyi ümumilikdə strateji dövr üçün ictimai məqsədlərin realizasiyasında innovativ imkanlar hesab oluna

bilər. Bankların lizinq fəaliyyətinə dövlət dəstəyi isə xarici təcrübə nəzərə alınmaqla aşağıdakı formaları əhatə etməlidir:

- Bankların innovativ məhsul və xidmətləri həyata keçirməsi üçün vəsaitlərin akkumulyasiyasının stimullaşdırılması;
- Lizinq əməliyyatları üzrə strateji istiqamətlərin müəyyən edilməsi, lizinq fəaliyyətinin koordinasiyası;
- İnnovasiya yönlü lizinq xidmətlərinin kompleks inkişafının stimullaşdırılması;
- Lizinq fəaliyyətini tənzimləyən təkmil normativ-hüquqi bazanın yaradılması;
- Lizinq bazarının inkişafının infrastruktur elementlərinin formalaşdırılması və institusional inkişafının təmin edilməsi.

Təhlillər göstərir ki, qabaqcıl ölkələrin təcrübəsində lizinqin inkişafı məqsədilə həyata keçirilən tədbirlər iqtisadi inkişafın elm tutumluluğunun artırılması və texnoloji əsaslı və rəqabət qabiliyyətli istehsal sferasının formalaşmasında mühüm rol oynamışdır. Azərbaycanda isə 2016-cı ildə qəbul edilmiş Milli iqtisadiyyat və iqtisadiyyatın əsas istiqamətləri üzrə strateji yol xəritəsində lizinqin inkişaf məqsədləri nəzərdə tutulsa da, hazırda bu istiqamətdə kompleks yanaşmanın tətbiqi tələb olunur.

Lizinqin inkişaf təcrübələri nəzərə alınmaqla dövlətin bankların lizinq fəaliyyətinə dəstəyini birbaşa və dolayı olmaqla iki istiqamətdə həyata keçirilə bilər. Birbaşa dəstək zamanı dövlət prioritet sahələrə lizinq verilməsinin maliyyələşməsində iştirakı, birgə layihələrin həyata keçirilməsi və eləcə də bank sektoru üzrə texnoloji yeniliklərin dəstəklənməsi üzrə proqramın işlənib hazırlanmasını təmin edə bilər. Bu mahiyyətcə dövlət tərəfindən bankların lizinq fəaliyyətinin administrativ və məqsədyönlü formada tənzimlənməsidir.

İqtisadiyyatın inkişaf məqsədləri nəzərə alınmaqla texnoloji proseslərə əsaslanan lizinq müqavilələrinin maliyyələşdirilməsi zamanı dövlətlə yanaşı banklar tərəfindən də güzəştli kreditlərin verilməsi nəzərdə tutulmalıdır. Bu həm də bankların innovasiyaların iqtisadiyyatda tətbiqinin sürətləndirilməsi baxımından da zəruridir. Müqavilə üzrə qarşılıqlı öhdəliklərdə isə dövlət təminatının nəzərdə tutulması lizinqə çıxışı asanlaşdıra bilər.

Bankların lizinq fəaliyyətinə dolayı dövlət dəstəyi isə bir tərəfdən lizinq bazarının canlandırılması, digər tərəfdən isə innovasiya əsaslı iqtisadiyyata keçid üçün əlverişli mühitin yaradılmasını nəzərdə tutmalıdır. Ölkə təcrübələri nəzərə alınmaqla lizinqə dövlət dəstəyinin məzmunu, strukturu və formaları müxtəlif ola bilər. Bura vergi güzəştləri, lizinqə kredit ayıran banklara imtiyazlar və s. aiddir. Bütövlükdə bankların lizinq fəaliyyətinə dövlət dəstəyi qanunvericilik bazasının təkmilləşdirilməsi, maliyyə-kredit və stimullaşdırıcı formaları əhatə etməlidir.

Belə ki, ölkədə lizinqin inkişaf etdirilməsi üçün ilk növbədə onun qanunvericilik bazası təkmilləşdirilməli, beynəlxalq tələblərə uyğunlaşdırılmalıdır.

Qeyd edək ki, 1994-cü ildə «Lizinq fəaliyyəti haqqında» Qanun qəbul edilmis, 2000-ci ildə qüvvəyə minmis Mülki Məcəllənin ayrıca bölməsi lizinq münasibətlərinin tənzimlənməsinə həsr edilmisdir. 2003-cü ildə Mülki Məcəlləyə bir sıra əlavə və dəyişikliklər edilmiş və bu sənədin təsdiqi haqqında ölkə Prezidentinin müvafiq Fərmanında İqtisadiyyat Nazirliyinə lizinq xidmətlərinin stimullasdırılması ilə bağlı təkliflərin hazırlanması tapşırılmışdır. Bu tapşırıgın icrası olaraq Vergi Məcəlləsinə lizinq obyekti olan əmlakın sürətli amortizasiyası, habelə lizinq əməliyyatlarının əlavə dəyər vergisindən azad edilməsi ilə bağlı dəyişikliklər edilmişdir.

Azərbaycan iqtisadiyyatında lizinq xidmətlərindən geniş istifadə etmək məqsədilə qanunvericiliyin təkmilləşdirilməsi üzrə aşagıdakı tədbirlərin görülməsi məqsədə uygundur:

- Lizinq münasibətlərinin iştirakçılarına müəyyən güzəştlərin verilməsi. Bununla bağlı Azərbaycan Respublikasının Vergi Məcəlləsinə, «Sosial Sığorta haqqında» və «Dövlət rüsumu haqqında» Azərbaycan Respublikasının Qanunlarına, habelə məcburi ödəmələri müəyyənləşdirən digər normativ-hüquqi sənədlərə müvafiq dəyişiklik və əlavələrin edilməsi;
- Lizinq müqaviləsinin nümunəvi formasının təsdiqi barədə müvafiq normativ hüquqi aktın qəbul edilməsi;
- Lizinq obyektinin dövlət qeydiyyatı ilə bağlı sadələşdirilmiş mexanizmin tətbiq edilməsi;
- Lizinqin tənzimlənməsi ilə məşğul olan səxslər üçün müvafiq seminar, treninq və digər tədbirlərin keçirilməsi;
- Lizinq münasibətlərini tənzimləyən normativ-hüquqi aktlar toplusunun hazırlanması və onun sahibkarlara çatdırılması.

Qərb ölkələrində lizinqin inkişafına lizinq əməliyyatlarında iştirak edən banklar üçün tətbiq edilən vergi güzəştləri mühüm rol oynamışdır. Belə ki, vergi güzəştləri lizinq üzrə xərcləri aşağı salmağa imkan vermişdir. Lizinq əməliyyatının isə daha aşağı dəyərə malik olması lizinqalanlar üçün borc yükünü azaldır və nəticədə müvafiq layihələrin reallaşdırılmasını təmin edir. Bu mənada Azərbaycan ərazisində fəaliyyət göstərən qanunvericilik aktları kifayət dərəcədə təkmilləşdirilmişdir. Belə ki, mövcud hüquqi normalar və qanunlar lizinq əməliyyatları üzrə prosedurları sadələşdirməyə imkan verir, həmçinin lizinqalan və digər iştirakçılar arasında etibarlı bir təminatçı kimi çıxış edir. Lizinq prosesində təminat mühüm rola malik olduğu üçün göstərilən problemi aradan qaldırılır. Çünki kreditor təminata görə mülkiyyət hüququnu özündə saxlayır. Təminata görə ödənilən pula görə bankın müstəsna hüquqa malik olması isə lizinq əməliyyatının keyfiyyətcə yaxsılaşdırılmasına gətirib çıxara və investisiya layihələrinin reallaşmasına imkan verə bilər.

Hazırda lizinq sektoru bu sahənin xidmətlərindən məhdud istifadə ilə xarakterizə olunur. Həmçinin lizinq müstəqil bir sektor kimi bank-maliyyə sferası ilə zəif əlaqəyə malikdir, bu səbəbdən kapitalın istehsal sferalarına daxil olması da məhdud səviyyədədir. Azərbaycanda banklar lizinq xidməti üzrə ge-

niş təcrübəyə malik olsa da, onlar tərəfindən həyata keçirilən lizinq əməliyyatları aşağı səviyyədə olduğu üçün lizinqin təklif olunan şərtləri lizinqalanlar üçün effektiv deyildir. Bu səbəbdən kredit əməliyyatları ilə müqayisədə bu maliyyə alətinin rəqabət imkanları aşağı olaraq qalır.

## ƏDƏBİYYAT


1.Цыганов А. М. Инновационный лизинг. М.: МГИМО-Университет, 2013, 198 s.
2. https://www.fimsa.az/az/statistika.
3. https://ibar.az/az/about-bank/disclosure-of-information/diger-hesabatlar/#information.
4. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı: Qanun, 2005, 352 s.
5. "Lizinq xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1994.
6. ADSK-nın statistik məlumatlar toplusu. Bakı, 2016.
7. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi, 2016.


## РАЗВИТИЕ РЫНКА ЛИЗИНГОВЫХ УСЛУГ – КАК ФАКТОР УСКОРЕНИЯ ИННОВАЦИОННЫХ ТЕХНОЛОГИЙ


**З.Г.ЗЕЙНАЛОВ**


## РЕЗЮМЕ


В статье рассматриваются два аспекта развития рынка лизинга. С одной стороны, модернизация малого и среднего бизнеса путем модернизации производственных мощностей обеспечивается за счет лизинга, с другой - коммерческие банки являются основными поставщиками финансовой поддержки на рынке лизинга.

В исследовании были проанализированы факторы, влияющие на ограниченное использование лизинга в экономике, объем инновационных продуктов, затраты на технологические инновации по источникам финансирования, доля направлений в затратах, участие банков на рынке лизинга.



**Ключевые слова:** объем инновационных продукций, лизинговый рынок, лизинговые операции, экономические факторы, производственные факторы.


## DEVELOPMENT OF THE LEASING MARKET AS A FACTOR IN ACCELERATING INNOVATIVE TECHNOLOGIES


**Z.H.ZEYNALOV**


## SUMMARY


The article discusses two aspects of the development of the leasing market. On the one hand, the modernization of small and medium businesses through the modernization of production facilities is provided through leasing, on the other - commercial banks are the main suppliers of financial support in the leasing market.

The study analyzed the factors affecting the limited use of leasing in the economy, the volume of innovative products, the cost of technological innovation by source of funding, the share of areas in costs, and the participation of banks in the leasing market.



**Key words:** volume of innovative products, leasing market, leasing operations, economic factors, production factors.

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Sosial-siyasi elmlər seriyası 2018*

## PEDAQOGİKA

**UOT 376.1-056.37(075.8)**

# YARDIMÇI MƏKTƏBLƏRDƏ FONETİK ANLAYIŞLARININ MƏNİMSƏNİLMƏSİ ÜZRƏ İŞİN TƏŞKİLİ

**A.Ə.MƏMMƏDOVA**
***Bakı Dövlət Universiteti***
***afa_mammadova@mail.ru***

*Bu məqalədə fonetik anlayışların mənimsənilməsi işinə dair yardımçı məktəblərdə ana dilində təlimin sistematik olaraq spesifikasından bəhs olunur. Yardımçı məktəblərdə ana dili proqramının tədrisi elementar-pratik xarakter daşıyır. Əsas məqsədlərdən biri, həmin məktəblərdə proqramın düzgün istiqamətləndirilməsinə həsr olunur. Ana dilində proqram yardımçı məktəblərdə şagirdlərin ümumi və nitq inkişafının çatışmazlıqlarının korreksiyasına yönəlmişdir.*

**Acar sözlər:** yardımçı məktəb, fonetik anlayışlar, ana dilinin tədrisi, qavrama qabiliyyəti, düzgün və şüurlu oxuma, xüsusiyyətlərin formalaşdırılması.

Fonetik anlayışların mənimsənilməsi yardımçı məktəbdən başlanır. Bu proses uşaqlarda daha tez başlayır, hələ məktəbə getməmişdən. Yardımçı məktəblərdə ana dilinin tədrisi elementar – pratik xarakter daşıyır və aşağıdakı əsas məqsədlərin həllinə istiqamətlənmişdir.

Şagirdlərə qavrama qabiliyyətinə uyğun olan mətni düzgün və şüurlu oxumağı öyrətmək;

Öz fikrini şifahi və yazılı formada düzgün və ardıcıl çatdırmağı öyrətmək;

Şagirdlərin ümumi inkişaf səviyyəsini yüksəltmək;

Uşaqların mənəvi xüsusiyyətlərini formalaşdırmaq;

Yardımçı məktəbdə ana dilinin tədrisinin xüsusi və ən əsas vəzifəsi, intellektual inkişafda problemləri olan uşaqların nitqinin və təfəkkürünün korreksiyasıdır. Ana dili proqramı aşağıdakı bölmələri özündə cəmləşdirir: ətraf aləmdəki əşya və hadisələrlə tanışlıq əsasında nitq inkişafı (1-5) siniflər; savad təlimi (1-ci) sinif; oxu və nitq inkişafı (2-9) siniflər, qrammatika, yazı qaydaları və nitq inkişafı (2-9) siniflər. Bu bölmələri birləşdirən əsas prinsip, nitqin inkişaf etdirilməsi prinsipidir. İntellektual problemləri olan uşaqların əksəriyyəti öz normal yaşıdlarından xeyli gec danışırlar. Məktəbəqədər dövrdə, bu uşaqların nitqi olduqca zəif inkişaf edir. Psixi proseslərin mükəmməl ol-

maması yardımçı məktəb şagirdlərinin nitqinin formalaşması prosesini də çətinləşdirir. Bunun nəticəsində onlar məktəb təlimi ərəfəsində dil sahəsində bilik və vərdişlərin kifayət qədər müvəffəqiyyətlə əldə edilməsini təmin edən nitq inkişafına malik olmurlar. Yardımçı məktəblərdə ana dili təlimi sisteminin spesifikası intellektual çatışmazlığı olan şagirdlərin nitq inkişafının özünə-məxsusluğundan irəli gəlir. Ətrafdakı əşya və hadisələr haqda təsəvvürlərin genişlənməsi və dəqiqləşməsi ilə əlaqədar şagirdlərin söz ehtiyatı da artır: sözlərin mənasını diferensasiya edən yeni, uyğun gələn terminlər daxil edilir: məsələn, (saplaq – budaq, cücərti - gövdə, ot – kol - ağac), uşaqlar daha düzgün və dəqiq söz birləşmələrindən istifadə etməyə başlayırlar. Ətraf aləmdə baş verənlərin bilavasitə müşahidəsi və bu müşahidələr əsasında söhbətlərin şifahi nitqdə istifadəsi hesabına lüğət aktivləşir.

Şifahi danışıq nitqi fəaliyyətin çox mürəkkəb bir növüdür. Həmin növ özundə: sual – cavab, dialoq, əşya və hadisələr, uşağın hərəkəti və təəssüratları və s. təsvirini cəmləşdirir.

Əsas təlim metodu söhbətdir. Söhbətlər əşyavi – praktik dərslərdə ətraf aləmdəki əşya və hadisələrlə tanışlıq prosesində, ekskursiyalarda təbiətdəki mövsümi dəyişiklikləri, insanların və heyvanların həyatındakı dəyişiklikləri müşahidə edərkən, kinofilm və diafilmlərin, əşyavi və süjetli şəkillərin baxışı zamanı təşkil olunur.

Söhbətin əsas komponenti şagirdlərin özlərinin şifahi nitqidir. Müəllim uşaqların nitq fəaliyyətinə rəhbərlik edir, onları istiqamətləndirir, fəallaşdırır, səhvlərini düzəldir, diqqətini müəyyən əşya və hadisələrdə cəmləşdirməyə, düzgün müşahidə etmək və gördükləri arasında əlaqə yaratmaqla, öz fikrini ifadə etmək, münasibətini şifahi nitqlə bildirməkdə kömək edir. Sualları cavablandırarkən uşaqlarda cümlə qurmaq vərdişi möhkəmlənir. Əşya və hadisələri təsvir edərkən, gördükləri haqda nəql edərkən, onlarda ardıcıl, rəvan nəqletmə bacarığı formalaşır (1,74).

Dərslərin düzgün təşkili, spesifik təlim metod və priyomlarından istifadə, şagirdlərin nitqinin və eləcə də təfəkkürünün inkişafına kömək edir.

Yardımçı məktəblərdə savad təlimi 1-ci siniflərdə, bütün il böyu həyata keçirilir. Təlim analitik – sintetik metodla keçirilir.

Proqram iki hissədən ibarətdir: əlifbayaqədərki dövr və əlifba dövrü.

Əlifbaya qədər dövr 1-ci rübün təxminən 1-ci ayını təşkil edir. Sinifdəki uşaq kontingentinin intellektual səviyyəsinin çox aşağı olduğu halda, bu müddət ərzində bir ay yarım və ya iki aya kimi uzadıla bilər (uyğun olaraq, savad təlimi dövrü 2-ci sinifdə başa çatır).

Əlifbaya qədər dövrün əsas məqsədi – şagirdləri ilkin yazı və oxu vərdişlərini əldə etməyə hazırlamaq; təlimə, təhsilə maraq yaratmaq; uşaqların hər birinin ümumi və nitq inkişafının xüsusiyyətlərini üzə çıxarmaqdır. Bu dövrdə uşaqların eşitmə və görmə hissiyyatının möhkəmləndirilməsi, ümumi nitqin fəaliyyətini, tələffüzün dəqiqləşdirilməsi, əllərin xırda motorikasının, fəzada istiqamətlənmə bacarığının və s. formalaşdırılması üzərində iş başlanır.

Təlim ətrafındakı əşya və hadisələrlə tanışlıq prosesində, didaktik oyun və məşğələlər zamanı həyata keçirilir.

Savad təlimi dərslərində nitq inkişafına çox mühüm yer verilir. Uşaqlar müsahibini dinləmək, başa düşmək vərdişinə yiyələnir, sadə tapşırıqları (dur, otur, apar, gətir,qoy, lövhəyə gəl) yerinə yetirməyi öyrənirlər.

Savad dərslərində nitqin inkişafı, həm də düzgün tələffüz və artikulyasiya, nitqin müvafiq tempinin və ritminin formalaşmasını nəzərdə tutur. Bu da öz növbəsində nitqin ifadəliyini artırır. Həmin istiqamətdə, əsas iş növlərinə söhbət, müəllimin səsindən qısa şeirlərin, tapmacaların, yanıltmaların, kiçik səhnəciklərin əzbərlənməsinə aid etmək olar.

Nitqin tələffüz hissəsinin mükəmmələşdirilməsi üçün dil, dodaqlar, damaq və yanaqlar üçün artikulyasiya hərəkətləri vasitəsilə həyata keçirilir. Bu artikuliyasiya gimnastika dərslərindəki kiçik fasilələr zamanı həyata keçirilir. Tələffüzündə hər hansı qüsuru olan uşaqlar əlavə korreksion loqopedik məşələlərə cəlb olunurlar.

Eşitmə hissiyatının inkişaf etdirilməsinin və nitq səslərinin qəbul edilib düzgün ayırd edilməsinin əlifbaya qədərki dövrdə böyük əhəmiyyəti vardır. Uşaqlar (cümlə, söz, sözün hissələri, heca, səs) anlayışları ilə bu dövrdə tanış olurlar. Onlar müəllimin tapşırığı və sualları əsasında şəkillərdən istifadə edəək, mövzuya görə cümlə qurmağı öyrənirlər, cümlələri sözlərə, sözləri hecalara bölməyə başlayırlar, sözlərin başlanğıcında səsləri ayırd edirlər (2, 2).

Uşaqlar həndəsə fiqurlarını rənginə və ölçüsünə görə fərqləndirməyi öyrənib, rəngli kağız parçalarından müxtəlif kombinasiyalarda aplikasiyalar qururlar. Bu isə öz növbəsində, onlarda fəzada yerləşmə anlayışlarını (sağda, solda, yuxarıda, aşağıda və s.) formalaşdırmış olur. Bu dövrdə uşaqların yazıya hazırlığı üzərində çox böyük iş aparılır. Onlar qələm və karandaşdan istifadə etməklə, trafaretlə və traferetsiz şəkil çəkmək, rəngləmək, ştrixləmək vərdişləri əldə edirlər. Hərflərin obrazlı və ya adi elementlərini xatırladan sadə ornamentlərdən çəkməyi öyrənirlər.

Əlifbayaqədərki dövrün axırına yaxın şagirdlər 2 – 3 sözdən ibarət cümləri hissələrə ayırmağa, ikihecalı sözləri hecalara ayırmağı, keçid səsləri sözlərin əvvəlindən seçməyə, qrafik vərdişlərə yiyələnmə bacarmağını öyrənirlər. Təlim prosesində şagirdin ümumi və nitq inkişafının səviyyəsi müəyyən olunur, korreksiya işinin düzgün qurulması üçün nəzərə alınması zəruri olan spesifik çətinliklər üzə çıxarılır.

*Əlifba dövrü.* Bu dövrdə şagirdlərdən oxu və yazı texnikasını mənimsənilməsi üçün vacib olan səs – hərf təhlili və sintezi formalaşdırılır. Yardımçı məktəblərdə səs, hərf və heca strukturlarının öyrədilməsi ardıcıllığı, ümumtəhsil məktəblərindən fərqlənir. Bu struktur, əqli catışmazlığı olan uşaqların qavrama qabiliyyətinə uyğunlaşdırılıb onların təhliletmə və sintetik fəaliyyətinin xüsusiyyətləri nəzərə alınaraq həyata keçirilir. Uşaqların səsin mənimsənilməsi, onların nitqdən təcrid edilməsini, ayrıca düzgün və aydın tələffüzünü, oxşar səslərdən diferensasiya olunması nəzərdə tutulur. Hərflər həmin ardıcıl-

lıqla öyrədilir: hərfin ümumi formasının qavranılması, yazılışın tərkibinin öyrənilməsi (elementlərə və bu elementlərin bir-birinə nisbətən yerləşməsi), bundan qabaq öyrənilən digər hərflərlə müqayisəsi və uyğunlaşdırılması da çox vacibdir. Səslərin hecalarda birləşməsi, hecaların əmələ gəlməsi, oxunması ardıcıl olaraq həyata keçirilir. Əvvəl qapalı (am, um) daha sonra isə açıq hecalar (ma, mu) oxunur. Heca strukturunun mənimsənilməsindən sonra sözlərin oxunması həyata keçirilir. Əlifbanı oxuyarkən, mətnin qavranılmasını artırmaq üçün illüstrasiya materiallarından geniş istifadə olunmalıdır.

Əsas metod kimi təhlildən sonra, oxu metoduna müraciət olunmalıdır. Yazı təlimi zamanı uşaqlara hərflərin düzgün yazılışını, onların hecalarda və sözlərdə digər hərflərlə birləşmə qaydasını öyrətmək lazımdır.

Yardımçı məktəblərin I siniflərində savad təlimi zamanı əyani vəsaitdən geniş istifadə olunur. Bunlar yazı lövhəsində və fərdi kəsmə əlifba kassasından (hərflər getdikcə doldurulmalıdır), heca və sözlərin tərtibi üçün lövhələrdən, heca cədvəllərindən və s. ibarətdir (3, 10).

*Oxu.* Yardımçı məktəblərdə oxu təliminin əsas məqsədi bunlardır: uşaqlara, onların qavraması daxilində mətni ucadan və səssiz oxumağı, oxuduğunu dərk edərək qavramağı öyrətmək. İbtidai siniflərin sonuna yaxın (2 – 4) siniflərdə yardımçı məktəb şagirdlərində düzgün, sürətli, şüurlu və ifadəli oxu bacarığı formalaşır. Bu bacarıqlar (5 – 6) siniflərdə daha mürəkkəb məzmunlu bədii əsərlər misalında mükəmməlləşməsini görmək olar. Oxu üçün şifahi xalq ədəbiyyatı materialından, Azərbaycanın klassik və müasir ədəbiyyatı, XIX – XX əsr xarici ədəbiyyatın nümunələrindən götürülür. Bütün bu materiallar intellektual çatışmazlığı olan uşaqların qavramasına uyğun seçilməlidir. Oxu təlimi müddətində şagirdlərdə oxuduqları mətnin məzmununu sərbəst təhlil etmək bacarığı formalaşır.

Proqramda, hər il üçün müxtəlif mövzular, oxu texnikası, mətnlərin təhlili, şifahi nitqin inkişafı, sinifdənxaric oxunun həcminə dair verilən tələbatların səviyyəsi göstərilmişdir. Oxu üçün əsərlərin texnikası, uşaqların dərsə marağının maksimum artırılmasına, onların dünyağörüşünün genişləndirməsinə, onlara gələcəkdə cəmiyyətdə sərbəst yaşamaq və işləmək üçün zəruri olan müsbət, mənəvi keyfiyyətlərin inkişafına kömək etmək məqsədilə toplanmışdır.

Bütün təlim müddətində xalqımızın, ən qədim zamanlarından tutmuş indiki gününə qədər türkçülüyümüzü, azərbaycanlığımızı, vətənpərvərliyimizi, adət-ənənələrimizi, sadə xalqın xeyirxah və zəhmətsevərliyini, qəhrəmanlığını, saflığı və sadəliyi, gözəl təbiətimizi tərənnüm edən əsərlərdən nümunələr göstərilir. Azərbaycan və xarici ədəbiyyatın ən parlaq nümayəndələrinin həyat yaradıcılığı (7 – 9) siniflərdə verilmişdir.

Oxu texnikasının formalaşması və inkişafı ardıcıl olaraq, il ərzində təlimdə həyata keçirilir. Əqli çatışmazlığı olan uşaqların diqqətini daim düzgün oxu vərdişlərinin formalaşmasına cəlb etmək lazımdır. Bu vərdiş, onların psixi inkişafının xüsusiyyətlərinə görə çətin formalaşır və oxuyan uşaqların dərk etməsini mürəkkəbləşdirir.

Uşaqlarda oxunun tezliyi, sürətli, yəni adi danışıq nitqi tempində aciq, aydın, hündürdən oxumağı tədricən formalaşır. Şagirdlər 2-ci sinifdə əvvəlcə hecalarla, sonra isə bütöv sözlərlə oxuyurlar. Daha sonra, sürətli oxu vərdişi mükəmməlləşdirilir. Ucadan oxu ilə yanaşı, uşağa səssiz, ürəyində oxu vərdişləri də aşılanır. Səssiz oxu vərdişlərinin yaradılması üzərində sistematik işi 3-cü sinifdən başlamaq lazımdır. Yardımçı məktəbdə şagirdlər ifadəli nitqə, artıq (1 – 2) siniflərdə tanış olurlar. Lakin ifadəli nitqlə oxumaq üzərində işə sistematik olaraq 3-çü sinifdə, bütöv sözlərlə oxumağa başladıqdan sonra tədris üzrə keçirilir.

Əsəri oxuyan uşaqların məzmunu qavraması təhlili prosesində həyata keçirilir. Əsərin təhlili – hadisələrin sadəcə təsviri olmayıb, səbəb və nəticə əlaqələrinin yaranması, qanunauyğunluqların dərk olunması mürəkkəb psixi proseslərin formalaşması və inkişafı ilə bağlı olduğu üçün, böyük korreksion əhəmiyyətə malikdir.

Yardımçı məktəb müəllimləri, oxu təlimi prosesində dərketmə, qavrama fəaliyyətinin çatışmazlıqlarını effektiv korreksiya vasitəsi kimi, illüstrasiya materiallarından, əyani vasitələrdən geniş istifadə etməlidirlər. Sinifdən – sinfə, tədricən əsərlərin təhlili zamanı şagirdin sərbəstliyinə, fikir söyləmək və onu müdafiə etmək, nəticəyə gəlmək bacarığına verilən tələblərin səviyyəsi artır. Eyni zamanda, bütün təlim illərində mürəkkəb əqli fəaliyyət tələb edən iş növləri müəllimin köməyilə yerinə yetirilir (4, 28).

*Şifahi nitqin inkişafı.* Yardımçı məktəblərdə rabitəli şifahi nitqin inkişafına böyük diqqət yetirilir. Əsərlərin məzmununun dərk olunmasına, lüğət ehtiyatının dəqiqləşdirilməsi və zənginləşdirilməsinə, düzgün cümlə qurmaq və oxunanın nəql etmə bacarığının inkişafına yönəlmiş məşqlər prosesində, sistematik iş əsasında şagirdlər düzgün, dolğun və ardıcıl danışmaq, nəql etmək bacarığı əldə edirlər. Bu məqsədlə, təlim ilindən və mətnin mürəkkəbliyindən asılı olaraq, suallardan, hazır və ya kollektiv tərtib olunmuş plandan (8 – 9) siniflərdə isə, sərbəst tərtib edilən plandan istifadə edilir.

Yardımçı məktəblərdə şagirdlərin sinifdənxaric oxu məqsədi, onları qavramasına yaxın olan uşaq ədəbiyyatı nümunələri ilə tanış etmək, onlarda oxuya, mütaliəyə maraq yaratmaq üçün uyğun kitab seçmək, sərbəst oxu bacarığı aşılanmaqdır (5, 25).

*Qrammatika və yazı qaydaları.* Yardımçı məktəblərdə qrammatika və yazı qaydaları təliminin əsas məqsədi şagirdlərdə şifahi və yazı vərdişlərini yaratmaq, inkişaf etdirmək, praktik əhəmiyyəti olan orfoqrafik və vurğu işarələrinin düzgün işlədilməsi qaydalarını formalaşdırmaq, ən əsası isə ana dilinə maraq yaratmaq və sevgi tərbiyə etməkdir. Fonetika, qrammatika və yazı qaydaları elementlərinin mənimsənilməsi təlim prosesində, əqli və nitqi inkişafla eyni zamanda həyata keçirilir. Qrammatika və yazı qaydaları üzrə proqram aşağıdakı bölmələrdən ibarətdir: təkrar səs və hərf, cümlə, rabitəli nitq (1 – 4) siniflərdə yazı və hüsnxətt. Hər ilin əvvəlində proqramın, bütün bölmələri üzrə, şagirdlərin əqli və yaş xüsusiyyətlərini nəzərə almaqla verilən tələblərin sə-

viyyəsi müəyyən olunmuşdur.

*Səslər və hərflər.* İntellektual çatışmazlıqları olan uşaqların fonetik – fonematik qüsurları, onların qrammatikaya və yazı qaydalarına yiyələnməsini çətinləşdirir. Bu səbəbdən, bütün təlim boyu yardımçı məktəblərdə səs – hərf təhlilinə böyük əhəmiyyət verilir. Səs – hərf təhlili (2 – 4) siniflərdə fonetik düzgün yazı qaydalarının tərtibi ilə yazının formalaşması üçün əsas rol oynayır. (5 – 9) siniflərdə səs – hərf təhlili üzrə iş davam etdirilir. Şagirdlər tədricən sözün tərkibinin və əsas nitq hissələrinin düzgün yazılışı qaydalarına yiyələnirlər.

*Söz (2 – 4)* siniflərdə praktik – qrammatik məşğələlər zamanı müxtəlif kateqoriyadan olan sözlər - əşyanın adını, hərəkətini, necəliyini bildirən sözlər və qohum sözlər haqqında məlumat verilir. Elementar qrammatikaya və yazı qaydalarına 5 – ci sinifdən etibarən öyrənilməsinə başlanılır. Əsas mövzular: sözün tərkibi və nitq hissələrinə aiddir.

Sözün tərkibinin, sözdən yeni cümlələr qurmaq qaydalarını öyrənməyi, lüğətin zənginləşdirilməsinə və fəallaşdırılmasına yönəlmişdir. Düzgün məşğələlər nəticəsində yazı qaydaları formalaşır. Düzgün yazı qaydalarının mənimsənilməsində mənaca müxtəlif, yazılışına görə oxşar olan sözlərin müqayisəli təhlilinin də böyük əhəmiyyəti vardır (6, 17-18).

Yardımçı məktəblərdə nitq hissələri, şifahi və yazılı nitq vərdişlərinin yaradılması, lüğətin zənginləşdirilməsi və fəallaşdırılması, savadlı yazı vərdişlərinin formalaşdırılması üçün zəruri olan həcmdə öyrədilir.

*Cümlə.* Yardımçı məktəblərdə cümlənin öyrədilməsinin, əqli çatışmazlığı olan şagirdlərin sərbəst həyata hazırlığı işində, sərbəst ünsiyyətdə xüsusi əhəmiyyəti vardır. Bu mövzu bütün təlim illərində proqrama daxil edilmişdir. İşi elə qurmaq lazımdır ki, şagirdlərdə mürəkkəb cümlələr qurmaq vərdişləri yaransın. Eyni zamanda orfoqrafik və vurğu işarələrinin düzgün istifadəsi vərdişi formalaşdırılsın və möhkəmləndirilsin.

*Rabitəli nitq.* Yardımçı məktəblərdə ana dili dərslərində rabitəli yazılı nitq vərdişlərinin formalaşdırılmasına xüsusi fikir verilir. Çünki əqli çatışmazlığı olan uşaqların, öz fikirlərini yazılı ifadə etmək imkanları olduqca məhduddur. Bununla əlaqədar, onların fonematik eşitməsinə, düzgün tələffüzünə, lüğətin dəqiqləşdirilməsi və zənginləşdirilməsinə, cümlə qurmaq bacarığına, öz fikirlərini şifahi və yazılı ifadə etmək bacarığına xüsusi fikir verilir. Bu uşaqların tələffüz qüsurları vaxtında islah olunmalıdır. Çünki bu qüsurlar gec-tez özünü yazıda büruzə verir. Rabitəli yazılı nitqə hazırlıq məşğələləri (2–4) siniflərdə keçirilir: ardıcıllıqla verilmiş suallara cavablar, şəkillər seriyasının adlandırılması, verilmiş cümlələrdə ardıcıllığın müəyyən edilməsi, deformasiyalı mətn üzərində iş və s. Bu məşğələlər (5 – 9 ) siniflərdə şagirdlərin daha mürəkkəb iş forması olan ifadə və inşa yazıya keçməsi üçün baza rolunu oynayır (7, 41).

Yuxarı siniflərdə uşaqlara işgüzar məktub yazmaq bacarığı da aşılanır. Bu təlim bacarığı, iki plan üzrə həyata keçirilir: 1) şagirdlər müxtəlif işgüzar məktublar (blanklar, qəbzlər və s.) barədə anlayışlar əldə edirlər və onların

doldurulması üzrə praktik vərdişlər əldə edirlər; 2) eyni zamanda, onlarda öz fikirlərini dəqiq, düzgün məntiqli və kifayət qədər qısa yazılı ifadə etmək bacarığının formalaşması nəzərdə tutulur ( tərcümeyi-hal, ərizə və s.).

*Qrafik vərdişlər.* Yardımçı məktəb şagirdlərinin qrafik vərdişləri əsasən (1 – 4) siniflərdə formalaşdırılmasına baxmayaraq, düzgün, səliqəli yazıya tələbat yuxarı siniflərdə də saxlanılır. Əqli çatışmazlığı olan uşaqlarda qrafik vərdişlərin çətin formalaşması, bu uşaqların əllərinin xırda motorikasının çatışmazlığı və onların koordinasiyasının zəifliyi ilə izah olunur (8, 44).

Yardımçı məktəblərdə müəllimlər uşaqların korreksiyası üçün kiçik və böyük yazı hərflərinin birləşməsinin və onların kalliqrafik yazılışı üzrə məşğələlərin aparılmasını vacib hesab edir. Hərflərin kalliqrafik yazılışının möhkəmləndirilməsi şagirdlərin yazıda orfoqrafik səhvlərin yaranmasının qarşısını alır, əlyazmasından və çap mətnindən köçürməni asanlaşdırır.

**ƏDƏBİYYAT**


1. Abdullayev A., Kərimov Y. İbtidai siniflərdə ana dili tədrisinin metodikası. Bakı: Maarif, 1968, 314 s.
2. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, 2000, 390 s.
3. Kərimov Y.Ş. III – siniflərdə ana dili dərsləri. Bakı, 1973, 380 s.
4. Qasımov S., Əhmədova A. Ana dilinin uşaqların mənimsəmələrinin pedaqoji-psixoloji xüsusiyyətləri. Bakı, 1995, 193 s.
5. Qasımov S. Anomal uşaqların ana dilini mənimsəmələrinin xüsusiyyətləri. Bakı, 1998, 200 s.
6. Замски Х.С. История олигофренопедагогики. М., 1974, 400 с.
7. Основы логопедии с практикумом Автор Власов Т.В. АПН, 2002, с. 200.
8. Ярмолаев А.И. Язык речи и речевая деятельность. АПН, 1963, 520 с.


## ОРГАНИЗАЦИЯ РАБОТЫ ПО УСВОЕНИЮ ФОНЕТИЧЕСКИХ ПОНЯТИЙ ДЛЯ ВСПОМОГАТЕЛЬНЫХ ШКОЛ


**А.А.МАМЕДОВА**


**РЕЗЮМЕ**


В статье рассматривается специфика усвоения фонетических понятий в процессе систематического обучения родному языку в вспомогательных школах, отмечается, что преподавание программы родного языка в указанных школах носит элементарно-практический характер. Одной из главных целей является правильный выбор направления программы для этих школ. Основное внимание в программах по родному языку для вспомогательных школ уделяется коррекции недостатков развития речи и общих недостатков.



**Ключевые слова:** вспомогательная школа, фонетические понятия, обучение родному языку, способность усвоения, правильное и сознательное чтение, формирование особенностей

## ORGANIZATION OF THE WORK OF MASTERING PHONETIC CONCEPTS FOR SUBSIDIARY SCHOOLS

**A.A.MAMMADOVA**

**SUMMARY**

The article deals with the specificity of mastering of phonetic concepts in the regular training course to the native language at auxiliary schools. Teaching of the program of the native language at auxiliary schools has elementary-practical character. The correct choice of a direction of the program for these schools is one of the main purposes. The basic attention here is given to the correct choice of the direction of the program for these schools. The basic emphasis in programs under the native language for auxiliary schools becomes on correction of common faults and lacks of development of speech.

**Keywords:** auxiliary school, phonetic concepts, training to the native language, mastering ability, correct and conscious reading, formation of features

# MÜNDƏRİCAT

## HÜQUQ

**Səfərov A.T.**
Universitetlərdə əqli mülkiyyət siyasəti və elmi-tədqiqat fəaliyyəti:
Silikon Vadisini necə keçmək olar? ........ 5
**Əliyev Ü.M.**
Xarici ölkələrdə sosial xidmət sferasının tənzimlənməsi xüsusiyyətləri ........ 15
**Rzayev Ə.H.**
İdarəetmə və nəzarət: funksional təhlil ........ 28
**Rəcəbov İ.Ə.**
Dəniz rayonlarının mübahisəli hüdudlandırılması haqqındakı danışıqlarda dövlətlərin öhdəlikləri ........ 36
**Xəlilov F.Y.**
Cinayət prosesində vəkil araşdırmasının subyekti, təminat mexanizmi, məqsəd və vəzifələri haqqında mülahizələr ........ 45
**Rüstəmov R.H.**
Transmilli və milli cinayətkarlığın qloballaşması vahid beynəlxalq cinayət prosessual fəaliyyətin formalaşmasının əsas şərti kimi ........ 57

## FƏLSƏFƏ

**Paşayeva Ə.N.**
Din və hüquq: islam dinində hüququn fəlsəfi təhlili ........ 65
**Hüseynova S.M.**
İnklüziv inkişaf parametrlərin təhlili ........ 75
**Məmmədəliyev Z.Q.**
Tarix fəlsəfəsi və humanitar elmlərin fəlsəfi əsaslarının təşəkkülü ........ 82

## İQTİSADİYYAT

**Zeynalov Z.H.**
Lizinq xidmətləri bazarının inkişafi-innovativ texnologiyaların sürətləndirilməsi amili kimi ........ 92

## PEDAQOGİKA

**Məmmədova A.Ə.**
Yardımçı məktəblərdə fonetik anlayışlarının mənimsənilməsi üzrə işin təşkili ........ 102

## СОДЕРЖАНИЕ

### ПРАВО

**Сафаров А.Т.**
Политика интеллектуальной собственности и
научно-исследовательская деятельность университетов:
как можно обогнать Силиконовую Долину? ........ 5
**Алиев У.М.**
Особенности регулирования сферы социального обслуживания
в зарубежных странах ........ 15
**Рзаев А.Г.**
Управление и контроль: функциональный анализ ........ 28
**Раджабов И.А.**
Обязательство государств по проведению переговоров
относительно спорных неразграниченных морских районов ........ 36
**Халилов Ф.Я.**
Суждения о субъекте, механизме обеспечения, цели и задачах
адвокатского расследования в уголовном процессе ........ 45
**Рустамов Р.Г.**
Глобализация транснациональной и национальной преступности
как основное условие формирования единой международной
уголовно-процессуальной деятельности ........ 57

### ФИЛОСОФИЯ

**Пашаева А.Н.**
Религия и права: философский анализ вопросов права
в исламской религии ........ 65
**Гусейнова С.М.**
Анализ параметров развития инклюзивности ........ 75
**Мамедалиев З.Г.**
Философия истории и становление философских оснований
гуманитарных наук ........ 82

### ЭКОНОМИКА

**Зейналов З.Г.**
Развитие рынка лизинговых услуг –
как фактор ускорения инновационных технологий ........ 92

### ПЕДАГОГИКА

**Мамедова А.А.**
Организация работы по усвоению
фонетических понятий для вспомогательных школ ........ 102

## CONTENTS

### LAW

**Safarov A.T.**
Intellectual property policy and scientific research
of universities: how can we overtake Silicon Valley? .......................................... 5
**Aliyev U.M.**
Features of the regulation of the sphere of social service
in foreign countries .................................................................................. 15
**Rzayev A.H.**
Control and management: functional analysis ...................................................... 28
**Rajabov I.**
Obligation of states to negotiate controversial
non-delimited maritime zones ............................................................................. 36
**Khalilov F.Y.**
Judgments of the subject, mechanism of providing, purpose
and problems of lawyer investigation in criminal proceedings ............................. 45
**Rustamov R.H.**
Globalization of transnational and national criminality
as a main ground for the formation
of the unified international criminal procedure..................................................... 57

### PHILOSOPHY

**Pashayeva A.N.**
Religion and law: philosophical analysis of law in islam religion......................... 65
**Huseynova S.M.**
Analysis of inclusive development parameters..................................................... 75
**Mammadaliev Z.G.**
Philosophy of history and formation of the philosophical
foundations of the humanities ............................................................................... 82

### ECONOMICS

**Zeynalov Z.H.**
Development of the leasing market as a factor in accelerating
innovative technologies ........................................................................................ 92

### PEDAGOGICS

**Mammadova A.A.**
Organization of the work of mastering phonetic concepts
for subsidiary schools ............................................................................................ 102

## MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədrinin 20 dekabr 2010-cu il tarixli 48-01-947/16 saylı məktubunu əsas tutaraq «Bakı Universitetinin Xəbərləri» jurnalının redaksiya heyəti bildirir ki, nəşr etdirmək üçün təqdim edilən məqalələr aşağıdakı qaydalar əsasında tərtib edilməlidir:

1. Təqdim olunan məqalənin mətni – A4 formatında, sətirlərarası – 1 intervalla, yuxarıdan – 5 sm, aşağıdan – 3,75 sm, soldan – 4 sm, sağdan – 3,5 sm, Times New Roman – 12 (Azərbaycan dilində – latın əlifbası, rus dilində – kiril əlifbası, ingilis dilində – ingilis əlifbası ilə) şrifti ilə yığılmalıdır.

2. Hər bir məqalənin müəllifinin (müəlliflərinin) adı və soyadı tam şəkildə yazılmalı, elektron poçt ünvanı, çalışdığı müəssisənin (təşkilatın) adı göstərilməlidir.

3. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər verilməlidir (açar sözlər məqalənin və xülasələrin yazıldığı dildə olmalıdır).

Məqalələr və xülasələr (üç dildə) kompyuterdə çap olunmuş şəkildə disketlə (disklə) birlikdə təqdim olunur, disketlər geri qaytarılmır!

Əlyazmalar kvartalın əvvəlindən bir ay keçməmiş verilməlidir.

4. Hər bir məqalənin sonunda verilmiş ədəbiyyat siyahısı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının «Dissertasiyaların tərtibi qaydaları» barədə qüvvədə olan Təlimatının «İstifadə edilmiş ədəbiyyat» bölməsinin 10.2-10.4.6 tələbləri əsas götürülməlidir.

**Kitabların (monoqrafiyaların, dərsliklərin və s.) biblioqrafik təsviri kitabın adı ilə tərtib edilir**. Məs.: Qeybullayev Q.Ə. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı: Azərnəşr, 1994, 284 s.

**Müəllifi göstərilməyən və ya dörddən çox müəllifi olan kitablar (kollektiv monoqrafiyalar və ya dərsliklər) kitabın adı ilə verilir**. Məs.: Kriminalistika: Ali məktəblər üçün dərslik / K.Q.Sarıcalinskayanın redaktəsi ilə. Bakı: Hüquq ədəbiyyatı, 1999, 715 s.

**Çoxcildli nəşrə aşağıdakı kimi istinad edilir.** Məs.: Azərbaycan tarixi: 7 cilddə, IV c., Bakı: Elm, 2000, 456 s.

**Məqalələrin təsviri aşağıdakı şəkildə olmalıdır**. Məs.: Vəlixanlı N.M. X əsrin ikinci yarısı – XI əsrdə Azərbaycan feodal dövlətlərinin qarşılıqlı münasibətləri və bir daha «Naxçıvanşahlıq» haqqında // AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, 2001, № 3, s. 120-129.

**Məqalələr toplusundakı və konfrans materiallarındakı mənbələr belə göstərilir**. Məs.: Məmmədova G.H. Azərbaycan memarlığının inkişafında Heydər Əliyevin rolu / Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin 80 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransının materialları. Bakı: Nurlan, 2003, s.3-10.

**Dissertasiyaya istinad belə olmalıdır.** Məs.: Süleymanov S.Y. Xlorofill-zülal kompleksləri, xlorplastların tilakoid membranında onların struktur-molekulyar təşkili və formalaşmasının tənzimlənməsi: Biol. elm. dok. … dis. Bakı, 2003, 222 s.

**Dissertasiyanın avtoreferatına da eyni qaydalarla istinad edilir, yalnız «avtoreferat» sözü əlavə olunur.**

**Qəzet materiallarına istinad belə olmalıdır**. Məs.: Məmmədov M.A. Faciə janrının tədqiqi. «Ədəbiyyat və incəsənət» qəz., Bakı, 1966, 14 may.

**Arxiv materiallarına aşağıdakı kimi istinad edilir**. Məs.: Azərbaycan Respublikası MDTA: f.44, siy.2, iş 26, vv.3-5.

İstifadə edilmiş ədəbiyyat siyahısında son 5-10 ilin ədəbiyyatına üstünlük verilməlidir.

***PS: Rəhbərliyin bizə verdiyi göstərişə əsasən növbəti saylarda bu tələblərin hər hansı birinə cavab verməyən məqalələr nəşriyyat tərəfindən qəbul edilməyəcək.***

Redaktorları: ***Məryəm Qədimova***
***Yafəs Quliyev***
***Nərgiz Əliyeva***

Kompüter tərtibçisi: ***Azadə İmanova***

***Yığılmağa verilmişdir:01.02.2018. Çapa imzalanmışdır:28.02.2019***
***Formatı: 70x100 1/16. Həcmi 7,25 ç.v. Sifariş 28. Sayı 120.***

***«Bakı Universiteti Nəşriyyatı», Bakı ş., AZ 1148, Z.Xəlilov küçəsi, 23.***
***Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır.***
***Şəhadətnamə B310.30.04.1999.***
***bun@box.az***